RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 230 (9975) 28 oktyabr 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





## Azərbaycanın sülh təşəbbüsü

### Bu, İlham Əliyevin müstəqil siyasətinin təməl prinsiplərini, ölkəmizin beynəlxalq imicini əks etdirən gerçəklikdir

İlham Əliyev Azərbaycanın müstəqillik qazandığı gündən etibarən ölkənin beynəlxalq əlaqələrinin inkişafına xüsusi önəm verib. Onun rəhbərliyi altında Azərbaycan bir tərəfdən dünya birliyi ilə münasibətlərini gücləndirərkən, digər tərəfdən isə regional məsələlərdə balanslı və sülhəyönəlik siyasət yürüdüb. Xüsusilə keçmiş Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində, o, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü qorumağı əsas prinsip kimi müəyyən edib, eyni zamanda münaqişənin sülh yolu ilə həlli üçün bir çox təşəbbüslər irəli sürüb.

Qarabağ zəfəri həm də Azərbaycanın gücünü və müstəqil xarici siyasətini daha geniş qlobal səviyyədə tanıtdı və bu dövr ərzində Azərbaycanın Qərb və Şərq ölkələri ilə diplomatik əlaqələri daha da dərinləşdi.

Azərbaycanın BMT, ATƏT, Qoşulmama Hərəkatı, Şanxay Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq təşkilatlarda fəal iştirakı onun qlobal siyasətdəki rolunu artırır. Azərbaycanın bu təşkilatlarda mövqeyi onun həm regional, həm də qlobal məsələlərə təsir göstərən bir ölkə olduğunu göstərir.

Avqustun 8-də ABŞ-də Azərbaycanla Ermənistan arasında sülh sazişinin mətninin paraflanması tərəflərin sülhə daha da yaxınlaşdığını təsdiqləyən reallıqdır. ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə keçirilən görüşdə əldə edilən nəticələr həm Azərbaycanda, həm də Ermənistanda müzakirə mövzusu olaraq qalır.

Artıq hər iki tərəf sülh barədə düşünür. Buna misal kimi təkcə Bakı ilə Yerevan arasında ilk çarter reysinin həyata keçirilməsini göstərmək olar. Zəngəzur dəhlizinin açılması istiqamətində ikitərəfli razılaşmanın əldə olunması da bunun tərkib hissəsidir.

6

## Azərbaycan ilə Qazaxıstan arasında əlaqələr qarşılıqlı etimad və yüksək hörmət ruhunda inkişaf edir

**Qazaxıstan Respublikasının Prezidenti zati-aliləri cənab Kasım-Jomart Tokayevə**



Hörmətli Kasım-Jomart Kemeleviç!

Qazaxıstan Respublikasının milli bayramı - Respublika Günü münasibətilə Sizə və Sizin simanızda qardaş xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Qazaxıstanın hər bir sahədə əldə etdiyi sanballı uğurları, iqtisadi inkişafı, əhalinin rifahının artması və beynəlxalq aləmdə yüksək nüfuz qazanması Sizin rəhbərliyiniz altında ölkədə aparılan əhəmiyyətli islahatların və yorulmaz fəaliyyətinizin nəticəsidir.

Xalqlarımızın ortaq tarixi-mədəni kökləri dövlətlərarası əməkdaşlığımızı şərtləndirən başlıca amillərdəndir. Qardaş ölkələrimiz arasında əlaqələr qarşılıqlı etimad və yüksək hörmət ruhunda inkişaf edir. Bu il imzalanmasının 20 illiyini qeyd etdiyimiz "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə" dövlətlərarası əlaqələrimizin strateji mahiyyətini əyani şəkildə əks etdirir.

Siyasi təmaslarımızın intensivliyi, ali səviyyədə qarşılıqlı anlaşmanın və fəal dialoqun mövcudluğu müxtəlif sahələrdə, xüsusilə də ticari-iqtisadi, energetika, o cümlədən "yaşıl enerji", nəqliyyat, investisiya, informasiya texnologiyaları, mədəni-humanitar və digər sahələrdə əməkdaşlığımızın dərinləşdirilməsi üçün əlverişli zəmin yaradır.

Bu yaxınlarda qardaş ölkənizə həyata keçirdiyim dövlət səfərim zamanı əldə etdiyimiz nəticələr, razılaşmalar və imzaladığımız sənədlər münasibətlərimizin daha da dərinləşdirilməsi istiqamətində sarsılmaz iradəmizin və əzmimizin bariz nümunəsidir.

Əminəm ki, Azərbaycan-Qazaxıstan qardaşlığının, etibarlı strateji tərəfdaşlığının və müttəfiqliyinin möhkəmləndirilməsi, əməkdaşlığımızın hərtərəfli genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Qazaxıstan xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2025-ci il*

## Milli Məclisdə beynəlxalq parlament konfransı keçiriləcək

Oktyabrın 29-da Milli Məclisdə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş beynəlxalq parlament konfransı keçiriləcək.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, konfrans "Konstitusiya müasir dünyada dövlətlərin müstəqilliyinin və suverenliyinin təməli kimi" mövzusuna həsr olunmuşdur.



Konfrans çərçivəsində iştirakçılar müasir dövlətlərin hüquqi əsaslarının möhkəmləndirilməsində konstitusiyaların rolu, dövlətlərin suverenliyi və milli müstəqilliyinin qorunması istiqamətində fikir mübadiləsi aparacaqlar.

Tədbirdə 20-dək ölkənin parlament nümayəndə heyətlərinin, eləcə də 5 beynəlxalq təşkilatın təmsilçilərinin iştirakı gözlənilir.

***"Azərbaycan"***

## Azərbaycan yeni dünya düzənində fərqli modelləri ilə əsas aktora çevrilib

Azərbaycanı fərqləndirən əsas istiqamətlərdən biri postmünaqişə dövrünün sülh və inkişaf modelidir. 30 ilə yaxın davam edən Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq prinsipləri əsasında ədalətli həlli ölkəmizin diplomatik və hərbi strategiyasının vəhdətini nümayiş etdirdi. Hərb tarixinin yeni səhifəsini açdı. 2020-ci ildə əldə edilən Zəfər təkcə ərazi bütövlüyümüzü bərpa etmədi, həm də Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının əsasını qoydu.

Bu gün Azərbaycan regionda sülhün təşəbbüskarı və təminatçısı kimi çıxış edir. Prezident cənab İlham Əliyevin irəli sürdüyü sülh müqaviləsi təşəbbüsləri, sərhədlərin delimitasiya və demarkasiyası, kommunikasiyaların açılması istiqamətində atılan addımlar Azərbaycanın beynəlxalq nüfuzunu daha da gücləndirib. Beləliklə, güc elementindən sonra konstruktiv diplomatiya və bərpayönümlü siyasət ön plana keçib. Bu isə Azərbaycanın etibarlı, məsuliyyətli və praqmatik tərəfdaş kimi mövqeyini möhkəmləndirib.

Postmünaqişə dövründə Azərbaycanın həyata keçirdiyi quruculuq siyasəti həm miqyası, həm də müasir yanaşması ilə seçilir. Azad edilmiş ərazilərdə həyata keçirilən "ağıllı kənd" və "ağıllı şəhər" layihələri gələcəyin yeni idarəetmə, ekoloji, rifah və sosial həyat modelini nümayiş etdirir.

Zəngilanın Ağalı kəndində tətbiq edilən pilot layihə bərpaolunan enerji mənbələri, rəqəmsal kənd təsərrüfatı və "yaşıl texnologiya"lar əsasında formalaşmış infrastrukturla reallaşan dayanıqlı inkişaf modelini ifadə edir.

Bu konsepsiya "Böyük qayıdış" proqramı ilə uzlaşaraq həm sosial ədaləti, həm də iqtisadi dirçəlişi təmin edir. Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa işləri regionu yeni iqtisadi mərkəz kimi formalaşdırır.

7

## 44 günlük Vətən müharibəsi



## Düz 5 il əvvəl həmin gün

9

# Azərbaycan ilə Avstriya arasında dostluq münasibətlərinin inkişafı xalqlarımızın mənafelərinə xidmət edəcək

### Avstriya Respublikasının Federal Prezidenti zati-aliləri cənab Aleksander Van der Bellenə

Hörmətli cənab Federal Prezident!

Avstriya Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Avstriya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, Avstriya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 oktyabr 2025-ci il*

# Ş.Ş.Abdullayevin Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığında, eyni zamanda Bəhreyn Krallığında fövqəladə və səlahiyyətli səfiri və Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Şahin Şakir oğlu Abdullayev Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığında, eyni zamanda Bəhreyn Krallığında fövqəladə və səlahiyyətli səfiri və Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2025-ci il*

# Ə.M.Hüseynovun İran İslam Respublikasının Təbriz şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əliyənnağı Mehti oğlu Hüseynov İran İslam Respublikasının Təbriz şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2025-ci il*

# Ş.Ş.Abdullayevin Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Şahin Şakir oğlu Abdullayev Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2025-ci il*

# F.Y.Talıbovun Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fərid Yunis oğlu Talıbov Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2025-ci il*

# M.A.Talıbovun Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında, eyni zamanda Honduras Respublikasında, Kolumbiya Respublikasında, Kosta Rika Respublikasında, Qvatemala Respublikasında, Panama Respublikasında və Peru Respublikasında səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Məmməd Afiq oğlu Talıbov Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında, eyni zamanda Honduras Respublikasında, Kolumbiya Respublikasında, Kosta Rika Respublikasında, Qvatemala Respublikasında, Panama Respublikasında və Peru Respublikasında səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2025-ci il*

# E.N.Səlimovun Azərbaycan Respublikasının İraq Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Eldar Nadir oğlu Səlimov Azərbaycan Respublikasının İraq Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2025-ci il*

# T.B.Zöhrabovun İran İslam Respublikasının Təbriz şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Taleh Balaşirin oğlu Zöhrabov İran İslam Respublikasının Təbriz şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2025-ci il*

# G.Q.İsmayılzadənin Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Gürsel Qüdrət oğlu İsmayılzadə Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2025-ci il*

# S.H.Fətəliyevin Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Seymur Həbib oğlu Fətəliyev Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2025-ci il*

# M.S.Mirzəyevin Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mütəllim Sabir oğlu Mirzəyev Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2025-ci il*

# E.N.Səlimovun Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Eldar Nadir oğlu Səlimov Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2025-ci il*

# Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin əməkhaqlarının artırılması haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 318** **Bakı şəhəri, 24 oktyabr 2025-ci il**

"Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin əməkhaqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 oktyabr tarixli 736 nömrəli Sərəncamının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin Vahid Tarif Cədvəli ilə müəyyən olunmuş tarif (vəzifə) maaşlarına aşağıdakı artım əmsalları tətbiq edilsin:

1.1. baş həkim - 3,0 dəfə;

1.2. baş mühasib, həkim-pediatr, musiqi rəhbəri, baş tərbiyəçi, tərbiyəçi, həkim diyetoloq - 2,5 dəfə;

1.3. baş tibb bacısı, böyük tibb bacısı (qardaşı), psixoloq, hüquq məsləhətçisi, mühasib - 2,0 dəfə;

1.4. təsdiq edilmiş mövcud ştat vahidinə uyğun olaraq digər vəzifələr - 1,5 dəfə.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərarın 1-ci hissəsindən irəli gələn məsələləri həll etsin.

3. Bu Qərar 2025-ci il avqustun 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Türkiyə xarici işlər nazirinin müavini Azərbaycan-Ermənistan normallaşma prosesi barədə məlumatlandırılıb

**Oktyabrın 27-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkiyə xarici işlər nazirinin müavini Ayşe Berris Ekinci ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Türkiyə müttəfiqliyindən irəli gələn mövzular, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətlərini təsbit edən tarixi Şuşa Bəyannaməsinin mövcud qardaşlıq və dostluq əlaqələrimizin təcəssümü olduğu bildirilib. Liderlərimizin təlimatı ilə çoxölçülü müttəfiqlik münasibətlərimizin siyasi, təhlükəsizlik, iqtisadi, ticarət, enerji, nəqliyyat, kommunikasiyalar, mədəni-humanitar və digər aspektləri üzrə əməkdaşlığın daha da gücləndirilməsi istiqamətində fəaliyyətin vacibliyi vurğulanıb.



Azərbaycan və Türkiyənin bütün beynəlxalq təşkilatlarda, xüsusilə də ailəmiz hesab olunan Türk Dövlətləri Təşkilatında birgə səylərimizin təqdirəlayiq olduğu vurğulanıb, bu il Qəbələdə keçirilmiş sammitin təşkilatın daha da gücləndirilməsinə xidmət edəcəyinə əminlik ifadə olunub. Nazir Ceyhun Bayramov həmsöhbətini Azərbaycan-Ermənistan normallaşma prosesi və onun müxtəlif aspektləri, Vaşinqton Sammitindən irəli gələn məsələlər barədə ətraflı məlumatlandırıb. Yaxın Şərqdə, Qəzza bölgəsində, Suriyada və Afrika ölkələrində mövcud səylər, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Bu gün həmçinin Azərbaycan və Türkiyə Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib. Siyasi məsləhətləşmələrdə Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Samir Şərifov, Türkiyə nümayəndə heyətinə isə xarici işlər nazirinin müavini Ayşe Berris Ekinci rəhbərlik ediblər.

# Konstitusiya Məhkəməsinin Plenumunun iclasında Prokurorluğun sorğusu əsasında qərar qəbul edilib

**Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin II hissəsi və 71-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 211.2-ci və 218.3-cü maddələrinin əlaqəli şəkildə şərh olunmasına dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim H.Əfəndiyevanın məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Prokurorluğunun sorğusunu və Milli Məclis Aparatının mülahizəsini, Ali Məhkəmənin Cinayət Kollegiyası, Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyası, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi və Vəkillər Kollegiyası tərəfindən təqdim olunmuş mütəxəssis mülahizələrini, ekspertlər Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət prosesi kafedrasının professoru, hüquq elmləri doktoru F.Abbasovanın və həmin kafedranın müəllimi, hüquq üzrə fəlsəfə doktoru L.Məmmədovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.



Qərarda deyilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin II hissəsi, 71-ci maddəsi və Cinayət-Prosessual Məcəlləsinin 218.3-cü maddəsinin müddəalarından irəli gələrək, həmin Məcəllənin 211.2.2-211.2.6-cı maddələrində müəyyən edilən əsaslarla cinayət işinin materiallarından başqa cinayət işi ayrıca icraata ayrıldıqda istintaq müddətinin axımı ilkin cinayət işinin başlandığı gündən hesablanır.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 211.2.1-ci maddəsi ilə nəzərdə tutulmuş əsasla ayrılmış cinayət işi üzrə ibtidai istintaq müddəti ayrılma haqqında qərar qəbul edildiyi (yeni cinayət işi başlanıldığı) gündən hesablanır.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

# Daxili işlər naziri gənclərin sırasından seçim edib

**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov oktyabrın 27-də respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**





Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 189 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 14 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

*"Azərbaycan"*

# Ədliyyə naziri minifutbol komandası ilə görüşüb

**Ədliyyə naziri Fərid Əhmədov Dubayda keçirilən II Dünya Korporativ Oyunlarının minifutbol yarışlarında qalib gəlmiş Ədliyyə Nazirliyinin komandası ilə görüşüb.**

Nazir qalib komandanın üzvlərini əldə etdikləri yüksək nailiyyət münasibətilə təbrik edərək onların qələbəsinin ölkəmizin və nazirliyin idman uğurlarına layiqli töhfə olduğunu bildirib. O, nazirlik əməkdaşlarının həm peşə fəaliyyətində, həm də idman sahəsində uğurlar qazanmasının sevindirici hal olduğunu vurğulayıb.

Sonda yarışda qalib gələn Ədliyyə Nazirliyinin komandası üzvləri nazirlik tərəfindən təşəkkürnamə ilə təltif olunublar.



Qeyd edək ki, Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində dövlət qurumlarının əməkdaşları arasında keçirilən II Dünya Korporativ Oyunlarının minifutbol yarışlarında Ədliyyə Nazirliyinin komandası finalda 1:0 hesabı ilə qələbə qazanaraq turnirin qalibi olub.

# Ermənistanın əsirliyində və girovluğunda olmuş azərbaycanlıların işgəncələrə məruz qalması ilə bağlı yeni ifadələr elan olunub

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 27-də davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.



İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin və zərərçəkmiş şəxslərin hüquqi varislərinin ifadələri elan olunub.

Zərərçəkmiş şəxs - "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin 1 saylı yolnəqliyyat idarəsinin sürücüsü Seyidov Nadir Bədir oğlu ifadəsində göstərib ki, idarə etdiyi ekskavator 2021-ci il noyabrın 19-da Zəngilan rayonu ərazisində düşmənin basdırdığı minaya düşüb. Partlayış nəticəsində o və yanında olan Renad Ağababayev xəsarət alıblar.

Zərərçəkmiş şəxs Zeynalov Bəykişi Musa oğlunun elan olunan ifadəsinə əsasən, 2020-ci il sentyabrın 27-də Ağdamın Qaradağlı kəndində yaşadığı evə Ermənistan silahlı qüvvələrinin atdığı mərminin düşməsi nəticəsində müxtəlif bədən xəsarətləri alıb, evi əşyalarla birlikdə yararsız hala düşüb.

Elan edilən ifadələrə əsasən, zərərçəkmiş Həsənov Mehman Fikrət oğlu 2023-cü il sentyabrın 19-da Ağdam rayonunun Mollalar kəndi ərazisində düşmənin atdığı mərminin, zərərçəkmiş şəxs Quliyev Hüseyn Mahir oğlu eyni tarixdə Ağdərə rayonunun Canyataq kəndi ərazisinə atılan mərminin partlaması, Həsənli İmran Elman oğlu isə həmin il sentyabrın 20-də Ağdərə rayonu istiqamətinə açılmış atəşlər nəticəsində bədən xəsarətləri alıblar.

Elan olunan digər ifadələrə görə, zərərçəkmiş şəxs Fərzəliyev Samir Vaqif oğlunun hüquqi varisi Fərzəliyeva Siyafər Əli qızı övladının 2020-ci il sentyabrın 27-də, zərərçəkmiş şəxs İsmayılov Mirrəhim Mirmehdi oğlunun hüquqi varisi İsmayılov Mirmehdi İsmayıl oğlu isə övladının həmin il oktyabrın 2-də Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində həlak olduqlarını bildiriblər.

Zərərçəkmiş Tevon Tağıyevin ifadəsində qeyd edilib ki, Ermənistan silahlı qüvvələrinin 1992-ci il fevralın 16-da yaşadığı Xocavənd rayonunun Qaradağlı kəndinə hücumu zamanı onu, digər kənd sakinlərini və hərbçiləri girov və əsir götürüblər. Ermənistan hərbçiləri onları Xankəndi istiqamətində aparıblar. O, Kamonu, Samveli və Abonu tanıyıb. Ermənistan hərbçiləri yolda Şahmurad Hüseynovu, Həbib Hüseynovu və Zahid Xəlilovu öldürüblər. Xankəndidə saxlanıldıqdan sonra Vartan Balayan onunla birlikdə 12 nəfəri Xocavəndə gətirib. Onlar dəyişdirilən günədək Xocavənddə saxlanılıblar. Xocavənddə olduqları müddətdə Ermənistan hərbçiləri onlara işgəncələr veriblər. Oğlu Telman Tağıyev Qaradağlı kəndində Ermənistan hərbçiləri tərəfindən öldürülüb, meyitini götürə bilməyib.

İlyasov Babək Həsən oğlunun ifadəsində vurğulanıb ki, o, 1993-cü il martın 31-də Kəlbəcər rayonunda "Tunel" adlanan ərazidə Ermənistan ordusunun hərbçiləri tərəfindən girov götürülərək, Xankəndi Şəhər Uşaq Xəstəxanasında saxlanılıb. Sonra həmin il iyunun 13-də girovluqdan azad olunub. Girov götürülərkən sağ gözündən yaralansa da, ona heç bir tibbi yardım göstərilməyib. Nəticədə bir gözünün görmə qabiliyyəti tamamilə itib. Həmin vaxt babası Aslan Mirzəyev və anası Afət Mirzəyeva vəhşicəsinə qətlə yetiriliblər.

Zərərçəkmiş Bayramov Faik Səlim oğlu ifadəsində göstərib ki, 1993-cü il iyunun 16-da Ağdam rayonunun Yetim Cinli kəndinin yaxınlığında yerləşən gölün kənarında Ermənistan hərbçiləri tərəfindən 12 nəfərlə birlikdə əsir götürülüb. Bir həftə Ağdam rayonunda, sonra Şuşa şəhərində yerləşən həbsxanada saxlanılıblar və ağır işgəncələrə məruz qalıblar. Ermənistan hərbçiləri yumruq-təpik, taxta parçaları ilə onu möhkəm döyməklə burnunu və dişlərini sındırıb, ac-susuz saxlayıblar.

İfadəsi elan olunan İsmayılov Asif Sakit oğlu qeyd edib ki, 1994-cü il aprelin 19-da Ağdamın İlxıçılar kəndi istiqamətində əsir götürülüb. Ermənistan hərbçiləri onu yaralı vəziyyətdə tankın üzərinə qoyub tanımadığı istiqamətdə aparıblar. Tankın üzəri onun bədənindən axan qana bulaşdığı üçün onu döyüb, işgəncə veriblər. Bundan başqa, Ermənistan hərbçiləri silahın qundağı ilə vuraraq onun burnunu qırıblar. Onu və digər əsirləri Şuşa həbsxanasına aparıb 1994-cü ilin sonlarından 1995-ci ilin əvvəllərinədək soyuq, qaranlıq kameralarda saxlayıblar. Orada erməni nəzarətçilər onu və digər əsirləri vəhşicəsinə döyüb, işgəncələr veriblər. Həmin nəzarətçilərdən Arturun, Manvelin, Samvelin, Vanyanın və Jirikin adlarını xatırlayır.

Zərərçəkmiş Əliyev Şövqi Xəqani oğlu ifadəsində bildirib ki, Ermənistan silahlı qüvvələrinin hərbçilərinin Ağdam rayonuna hücumu zamanı qardaşı Nicat Əliyev və ana babası Oktay Əliyev öldürülüb, özü, atası Xəqani Əliyev, anası Könül Əliyeva və nənəsi Zənifə Əliyeva yaralı vəziyyətdə girov götürülüblər. Girov götürüldükdən sonra Xankəndi Şəhər Uşaq Xəstəxanasında erməni həkimlər tərəfindən müalicə olunmaq əvəzinə, bazu sümüyü əzələ qatı ilə birlikdə transplantasiya məqsədilə çıxarılıb, nəticədə ömürlük şikəst olub.

Hacıyev Elman Qəhrəman oğlu ifadəsində diqqətə çatdırıb ki, 1993-cü il sentyabrın 25-də Murov dağı yaxınlığında Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən əsir götürülüb, vəhşicəsinə döyülüb. Sonra yük avtomobili ilə Kəlbəcərin Yanşaq kəndinə aparılıb, həmin kənddə yerləşən hərbi hissədə sorğu-sual olunub. Suallara verdiyi cavabları qəbul etmədikləri üçün onu huşunu itirənədək döyüblər. Həmin hərbi hissədə bir müddət qaldıqdan sonra Ağdərə rayonuna aparılıb və Yaşa adlı erməninin evinin zirzəmisinə salınıb. Həmin yerdə də saxlanıldığı müddətdə ağır işgəncələrə məruz qalıb. 1994-cü ilin təxminən aprel ayında bir neçə azərbaycanlı əsirlə birlikdə onu Şuşa həbsxanasına aparıblar. Orada da mütəmadi olaraq vəhşicəsinə döyülüb. 1994-cü ilin təxminən iyul ayında onu adlarını xatırlamadığı bir neçə azərbaycanlı əsirlə birlikdə Xankəndi şəhərinə gətiriblər. O, 1994-cü ilin təxminən oktyabr ayınadək orada qalıb. Sonra Xocavənd rayonunun Ağbulaq kəndinə aparılıb və 1995-ci ilin təxminən dekabr ayınadək həmin kənddə tanımadığı erməninin yaşadığı evdə əl-qolları bağlı saxlanılıb. 1995-ci ilin sonlarında Şuşa həbsxanasına, 1996-cı ilin mart ayının ortalarında Xankəndi şəhərində yerləşən xüsusi rejimli təcridxanaya aparılıb. Bu müddətdə Ağbulaq kəndində adlarını xatırlamadığı azərbaycanlı əsirlərlə Samvel Babayan və onun qardaşı Karo Babayan üçün ev tikintisində fəhlə işlərinə cəlb olunub. Orada olduğu müddətdə Lyova, Lyoşa kimi çağırılan Lüdvik, Mayıs, Andrey, Karen, Vova və Qarik adlı şəxslər mütəmadi olaraq onu vəhşicəsinə döyüblər.

Kərimov Təbriz Əjdər oğlu, Səfərli Vüsal Mirzəli oğlu və digərləri isə ifadələrində 2020-ci ilin iyulunda baş verən, Azərbaycanın Milli qəhrəmanları - general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyevin də həlak olduqları Tovuz döyüşlərində xəsarət aldıqlarını bildiriblər.

Sonra məhkəmədə müdafiə tərəfinin təqdim etdiyi sübutlar tədqiq olunub.

Belə ki, tədqiq olunan sənədlərdən bir neçəsini təqsirləndirilən Arayik Harutyunyanın hüquqlarını müdafiə edən vəkillər - Cavid Rzazadə və Anar Məmmədov təqdim etmişdi. Sənədlər Arayik Harutyunyanın doğum haqqında şəhadətnaməsinin, Ermənistan Respublikası pasportunun surətləri, həmçinin təhsil almasına dair arayış idi.

Bundan başqa, A.Harutyunyanın müdafiəçilərinin vəsatəti əsasında cinayət işi materiallarında olan istintaq eksperimentinin protokolu və AZƏRTAC-ın rəsmi saytında dərc olunmuş məqalə elan edilib.

Arayışda göstərilir ki, Arayik Harutyunyan 1990-cı ildə İrəvan Xalq Təsərrüfatı, indiki Ermənistan Dövlət İqtisadiyyat Universitetinin Planlı iqtisadiyyat fakültəsinin gündüz şöbəsinə qəbul olub. 1993-cü ildə Xankəndidə yerləşən "universitetə" köçürülməsi ilə əlaqədar həmin institutdan azad edilib.

Məhkəmədə tədqiq olunan, Arayik Harutyunyanın pasportunun surəti ilə bağlı təqsirləndirilən şəxs öz müdafiəçisinin sualını cavablandırarkən deyib ki, qondarma rejimin "ərazisi"ndə yaşayanlara Ermənistan pasportları "070" kodu ilə verilirdi. Bu pasportların Ermənistan Respublikasının vətəndaşlarına verilən pasportlardan fərqi onda idi ki, qeyd olunan pasport koduna malik şəxslər Ermənistanda keçirilən seçkilərdə iştirak edə, o cümlədən səs verə bilməzdilər. Buna baxmayaraq, pasport kodu "070" olan hər kəsin Ermənistan vətəndaşı kimi xarici ölkələrdə turizm, təhsil, səhiyyə və digər məqsədlərlə səyahət etmək hüququ var idi.

Dövlət ittihamçısı Vüsal Abdullayevin təqsirləndirilən şəxsin doğum haqqında şəhadətnaməsində anadan olduğu yerin Azərbaycan SSR-in Xankəndi şəhəri, pasportunda isə Ermənistan SSR qeyd olunması ilə bağlı "Bu, Ermənistanın Qarabağı öz ərazisi kimi sayması demək deyilmi" sualına təqsirləndirilən şəxs cavab verməkdən yayınaraq deyib ki, bu məsələni heç vaxt Ermənistanın aidiyyəti orqanları ilə müzakirə etməyib, həmçinin bu məsələ heç vaxt müzakirə mövzusu olmayıb.

Dövlət ittihamçısı təqsirləndirilən Arayik Harutyunyanın sıravi şəxs olmadığını xatırladaraq, suala mahiyyəti üzrə konkret cavab vermədiyini bildirib və əlavə edib: "Cavab vermək istəmirsinizsə, bu, sizin hüququnuzdur".

Məhkəmə prosesi oktyabrın 30-da davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# Azərbaycanın xarici siyasətinin uğurları



## Azərbaycan-Qazaxıstan: Orta dəhlizdən keçən ortaq maraqlar

**Azərbaycan bu gün dünya miqyasında sürətlə inkişaf edən ölkələr sırasındadır. Bu inkişafın əsasında müstəqil daxili və xarici siyasət kursu dayanır. Belə bir strateji kursun Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsi hazırkı milli inkişafın əsaslarını təşkil edir. Müxtəlif inkişaf modellərinin uğurla tətbiqi, sosial-siyasi, iqtisadi, humanitar yönümlü islahatların həyata keçirilməsi, beynəlxalq münasibətlər sistemində artan nüfuzumuz qlobal məsələlərdə ölkəmizin böyük təsir gücünə malik olduğunu göstərir. Əlbəttə ki, bütün bu nailiyyətlərin əsasında güclü lider fenomeni dayanır.**

Prezident İlham Əliyevin Qazaxıstana dövlət səfəri iki qardaş ölkə arasında münasibətlərin yeni mərhələsinin əsasını qoydu. Bunun, dövlət səfəri mahiyyəti daşıması, Azərbaycan Prezidentini Hava Limanında şəxsən Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin qarşılaması və yola salması, ölkə rəhbərimizi hökumət üzvlərindən ibarət böyük bir qrupun müşayiət etməsi hər iki tərəfin bu səfərə nə qədər önəm verdiyini göstərirdi.

Bu səfər Azərbaycan və Qazaxıstan arasında yalnız ikitərəfli əməkdaşlığın növbəti mərhələsi deyil, həm də türk dünyasının iqtisadi, texnoloji və humanitar inteqrasiyası baxımından strateji hadisə kimi qiymətləndirilməlidir. Təsadüfi deyil ki, Qazaxıstan Prezidenti Kasm-Jomart Tokayev bu dövlət səfərini ölkələrimiz arasında strateji tərəfdaşlığın və müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi yolunda çox mühüm hadisə və addım kimi qiymətləndirdi, Prezident İlham Əliyevin müasir dövrün görkəmli dövlət xadimi olduğunu vurğuladı: "Prezident İlham Əliyevin yorulmaz səyləri sayəsində Azərbaycanın dünya arenasında nüfuzu və təsiri dəfələrlə güclənib. Onun güclü liderliyi ilə Azərbaycan bir çox sahələrdə, hər şeydən əvvəl sosial-iqtisadi inkişafda böyük uğurlar qazanıb. Genişmiqyaslı islahatların nəticələri iqtisadiyyatın davamlı artımında, vətəndaşların rifahının yüksəldilməsində, Sizin ölkənizin dinamik şəkildə dəyişməsində öz əksini tapır. Azərbaycan iqtisadiyyatının makroiqtisadi göstəriciləri dayanıqlılıq ilə fərqlənir və ölkənin tərəqqisinin, iqtisadiyyatınızın yaxşı formada olmasının inandırıcı göstəricisidir".

Səfərin proqramı da kifayət qədər çoxşaxəli idi - Trans-Xəzər Orta dəhlizi layihəsinin təqdimatından tutmuş Ali Dövlətlərarası Şuranın iclasına, strateji sənədlərin imzalanmasından və Alem.ai Süni İntellekt Mərkəzinə səfərə qədər. Hər bir mərhələ həm regional, həm də qlobal miqyasda ciddi mesajlar vermis oldu.

### Orta dəhliz - Avrasiya məkanında yeni ticarət arteriyası

Öncə qeyd edək ki, Azərbaycan Qazaxıstanın mühüm etibarlı strateji tərəfdaşıdır. Ölkələrimiz ümumi köklərə, zəngin mənəvi-mədəni irsə və tarixə malikdir, münasibətlərimiz hər zaman olduğu kimi, bu gün də sabit inkişaf edir. Əsas məqsəd xalqlarımız arasında dostluğun gələcəkdə də hərtərəfli möhkəmlənməsi və müxtəlif sahələrdə əməkdaşlığa yeni təkan verilməsidir. Bu, iki ölkənin köklü maraqlarına uyğundur.

Səfərin ilk günü - oktyabrın 21-də Astanada Prezident İlham Əliyev və Prezident Kasım-Jomart Tokayevin iştirakı ilə "Orta dəhlizin inkişafı" layihəsinin təqdimatı keçirildi. Bildirildi ki, Orta dəhliz Çindən Avropaya ən qısa, təhlükəsiz və səmərəli marşrut olmaqla Avrasiyanın iqtisadi xəritəsini yenidən formalaşdırır. Bu dəhliz Rusiyadan və İran üzərindən keçən alternativ yollara nisbətən sabit və çevik tranzit xətti kimi önə çıxır. Marşrut Çin-Qazaxıstan-Xəzər dənizi-Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa istiqamətində uzanır və Yeni İpək yolunun mərkəzi arteriyası sayılır. Malların Çindən Avropaya dəniz yolu ilə çatdırılması 35-45 gün çəkirsə, Orta dəhlizlə bu müddət 12-15 günə enir.

Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Limanı və Bakı Beynəlxalq Dəmir Yolu Vağzalı kimi müasir infrastrukturu bu marşrutun əsas dayaqlarıdır. Layihə Azərbaycan, Qazaxıstan, Gürcüstan və Türkiyə arasında vahid logistika və gömrük sisteminin formalaşmasına, rəqəmsal gömrük, "yaşıl dəhliz" və "bir pəncərə" prinsiplərinin tətbiqinə şərait yaradır. Ukrayna müharibəsi və Qara dənizdə artan risklər fonunda Orta dəhliz bu gün Avrasiya ticarətinin ən etibarlı xətti kimi dəyərləndirilir. Prezident İlham Əliyev də Orta dəhlizlə bağlı çıxışlarında dəfələrlə qeyd edib ki, Azərbaycanın rolu sadəcə tranzit ölkə olmaqla məhdudlaşmır - Bakı artıq bölgənin logistik, enerji və rəqəmsal mərkəzinə çevrilib.

Bu layihə təkcə Çin və Orta Asiya ölkələrini Avropa ilə birləşdirən logistika marşrutu deyil, yeni geoiqtisadi reallığın əsas komponentidir. Orta dəhliz Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu çərçivəsində regionun ticarət həcmini, tranzit imkanlarını və strateji əhəmiyyətini çoxaltmaqla, Avrasiya qitəsində sabit iqtisadi inteqrasiyanın təminatçısına çevrilir.

Təqdimatda da bildirildi ki, Çindən Azərbaycana daşımaların həcmi 2030-cu ilədək üç dəfə artacaq. Bu göstərici Azərbaycanın həm Xəzər regionunda, həm də "Şərq-Qərb" nəqliyyat qovşağında əsas tranzit mərkəzinə çevrildiyini təsdiqləyir. Bu, eyni zamanda Prezident İlham Əliyevin uzun illər ərzində formalaşdırdığı Azərbaycanı regional və qlobal nəqliyyat xəritəsində strateji mövqeyə çatdırmaq siyasətinin praktiki nəticəsidir.

Tarixi qələbəmizdən, Ermənistanla dayanıqlı sülhə doğru əhəmiyyətli addımlardan sonra artıq reallaşmaq üzrə olan Zəngəzur dəhlizi (TRIPP) isə Orta dəhlizi həm tranzit həcmi, həm sürət, həm də etibarlılıq baxımından daha da gücləndirəcək, Avrasiyanın logistik xəritəsində Azərbaycanın strateji rolunu artıracaq və regional inteqrasiyanı dərinləşdirəcək.

Yeri gəlmişkən, elə Qazaxıstan səfəri zamanı Azərbaycan Prezidenti Ermənistanla sülhün institutlaşdırılmasına doğru atılan növbəti addımlardan biri kimi çox mühüm bir bəyanat verərək Azərbaycanın Ermənistana yük tranziti ilə bağlı işğal dövründən bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırdığını elan etdi. Qonşu ölkəyə Azərbaycan üzərindən ilk belə yük tranziti isə Qazaxıstan taxılının Ermənistana daşınması olub. "Zənnimcə, bu həm də Azərbaycan ilə Ermənistan arasında sülhün artıq kağız üzərində deyil, həm də praktikada olduğunun yaxşı göstəricisidir", - cənab İlham Əliyev qeyd etdi.

### Strateji tərəfdaşlıqdan müttəfiqliyə

Astanada keçirilən Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şurasının ikinci iclası da dövlət səfərinin siyasi baxımdan son dərəcə vacib məqamlarından oldu. Prezident Kasım-Jomart Tokayev və Prezident İlham Əliyev çıxışlarında dərin tarixi köklərə, ortaq dəyərlərə və qarşılıqlı etimada əsaslanan qardaşlıq münasibətlərini xüsusi vurğuladılar.

Kasım-Jomart Tokayev Azərbaycanı "Qazaxıstan üçün xüsusi ölkə, qardaş dövlət" adlandırdı və qeyd etdi ki, iki xalqı birləşdirən bağlar təkcə tarixi deyil, həm də müasir geosiyasi və iqtisadi maraqların kəsişməsində formalaşan strateji birliyə əsaslanır. O, Azərbaycan Prezidentinin "müdrik və uzaqgörən liderliyinin" regionda sülh və sabitliyə töhfə verdiyini xüsusi qeyd etdi. Ümumən Qazaxıstan Prezidentinin Azərbaycanın dövlət başçısına görüş zamanı da, mətbuat konfransında da bir neçə dəfə "görkəmli lider" deyə müraciət etməsi qlobal dünyada İlham Əliyev şəxsiyyətinə olan münasibətin göstəricisi kimi xüsusi diqqət çəkirdi.

Prezident İlham Əliyev isə cavab çıxışında Qazaxıstanın daim Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə dəstək göstərdiyini vurğuladı. Dövlət başçısı bildirdi ki, "bu gün Azərbaycan ilə Ermənistan arasında sülh dövrü başlayır və regionda yeni inkişaf mərhələsi formalaşır". Dövlətimizin başçısı İlham Əliyevin sözlərinə görə, Zəngəzur dəhlizinin (TRIPP) açılması və Orta dəhlizin inkişafı bütövlükdə Avrasiya məkanında yeni iqtisadi dinamikaya yol açacaq.

Hər iki lider qeyd etdi ki, Azərbaycanla Qazaxıstan arasında münasibətlərin hazırkı yüksək səviyyəsi sırf dövlət iradəsinin deyil, həm də xalqların təbii qardaşlıq bağlarının nəticəsidir. Bu platforma, əslində, türk dünyasının siyasi birliyinin praktik modelinə çevrilir. Türk Dövlətləri Təşkilatının inkişaf edərək qlobal gücə çevrilməsi üçün bütün imkanlarını ortaya qoyan və xüsusilə son illərdə buna ciddi şəkildə nail olan Azərbaycanın təşkilatın fəaliyyətinə paralel şəkildə bu qurumdakı ölkələrlə ayrı-ayrılıqda da ikitərəfli münasibətləri inkişaf etdirməsi son dərəcə əhəmiyyətlidir.

### İmzalanan sənədlər - əməkdaşlığın hüquqi dayaqları

Səfər zamanı Azərbaycan və Qazaxıstan prezidentlərinin iştirakı ilə bir sıra mühüm sənədlərin imzalanması iki ölkə arasında strateji tərəfdaşlığın çoxşaxəli hüquqi bazasını daha da möhkəmləndirdi.

Tərəflər "Strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilənin 20 illiyi" münasibətilə Birgə Bəyanat qəbul etdilər və Ali Dövlətlərarası Şuranın iki mühüm qərarını imzaladılar. Bundan əlavə, energetika, sənaye mülkiyyəti, rəqabət siyasəti, səhiyyə, statistika, hüquq-mühafizə, rəqəmsal transformasiya və süni intellekt sahələrini əhatə edən çoxsaylı sənədlər imzalanaraq mübadilə olundu. Xüsusilə "Energetika sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" və "Süni intellekt sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" gələcək onilliklər üçün əməkdaşlığın istiqamətlərini müəyyənləşdirir.

Azərbaycanla Qazaxıstanın iqtisadi əlaqələri artıq ticarət dövriyyəsinin artması, Birgə İnvestisiya Fondunun fəaliyyətə başlaması və SOCAR ilə "Samruk Kazına" Fondu arasında yeni birgə layihələrin reallaşdırılması ilə yeni mərhələyə qədəm qoyur. Bu sənədlər yalnız ikitərəfli razılaşmalar deyil, həm də regionda türk dövlətlərinin iqtisadi və texnoloji inteqrasiyasının real mexanizmlərini formalaşdırır.

### Gələcəyin texnoloji əməkdaşlığı

Səfər proqramı çərçivəsində Prezident İlham Əliyevlə Prezident Kasım-Jomart Tokayev Alem.ai Beynəlxalq Süni İntellekt Mərkəzinə də baş çəkdilər. Bu mərkəz Qazaxıstanda innovasiyaların və süni intellekt texnologiyalarının inkişafı məqsədilə yaradılıb. Burada təkcə elmi-tədqiqat laboratoriyaları deyil, həm də gənc istedadları yetişdirən "Tomorrow School" və startapların dəstəklənməsi üçün xüsusi kampus fəaliyyət göstərir.

Mərkəzin məqsədi hər il yüzlərlə gənci bu sahəyə cəlb etmək, 100 yeni süni intellekt startapının yaranmasını təmin etmək və texnoloji sahibkarlıq ekosistemini gücləndirməkdir. Azərbaycan nümayəndə heyətinin bu mərkəzə səfəri ölkəmizin rəqəmsal transformasiya və süni intellekt texnologiyalarında Qazaxıstanla əməkdaşlığının yeni istiqamətini göstərir. Bu həm də Prezident İlham Əliyevin irəli sürdüyü "ağıllı iqtisadiyyat" və "İnnovasiyalar əsrində rəqəmsal tərəfdaşlıq" strategiyasına tam uyğundur.

Prezident İlham Əliyevin Qazaxıstana dövlət səfəri göstərdi ki, Azərbaycan-Qazaxıstan münasibətləri artıq sadəcə dostluq və qardaşlıq mərhələsində deyil, möhkəm strateji müttəfiqlik səviyyəsinə yüksəlib. Siyasi etimad, iqtisadi sinerji, mədəni yaxınlıq və rəqəmsal transformasiya istiqamətində paralel addımlar bu birliyi türk dünyasının geosiyasi sütununa çevirir.

Bu səfər həm də bir daha nümayiş etdirdi ki, Azərbaycan liderinin xarici siyasət fəlsəfəsində əsas prioritetlərdən biri - qitələrarası əməkdaşlıqda türk dövlətlərinin rolunu artırmaq, Xəzərdən Avropaya uzanan sabitlik və inkişaf körpüsü yaratmaqdır. Astana səfəri bu baxımdan təkcə diplomatik hadisə deyil, türk dünyasının gələcək xəritəsinin siyasi-texnoloji konturlarını müəyyən edən strateji dönüş nöqtəsidir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## Fərqli region olsa da...

### Azərbaycan və Qazaxıstan arasında iqtisadi əməkdaşlığın perspektivləri genişdir



**Prezident İlham Əliyevin Qazaxıstan Respublikasına etdiyi son dövlət səfəri iki ölkə arasında strateji tərəfdaşlığın möhkəmləndirilməsi baxımından mühüm tarixi mərhələ kimi qiymətləndirilə bilər. Dövlət başçılarının bəyanatları münasibətlərin artıq dostluq çərçivəsindən çıxaraq, qardaşlıq səviyyəsinə yüksəldiyini və bunun əsas dayağının iqtisadi-ticarət əlaqələri olduğunu bir daha təsdiqlədi.**

Bəyanatlar fonunda Azərbaycan ilə Qazaxıstan arasında son 20 il ərzində formalaşan və inkişaf edən iqtisadi əməkdaşlıq xüsusi vurğulanmalıdır. İki ölkə arasında iqtisadi əlaqələrin əsas istiqamətləri enerji, nəqliyyat-logistika, kənd təsərrüfatı, sənaye və investisiya sahələridir. Bu dövr ərzində Azərbaycanla Qazaxıstan arasında qarşılıqlı ticarət dövriyyəsində nəzərəçarpacaq artım müşahidə olunmuş, birgə layihələr və müqavilələr əməkdaşlığın praktik məzmununu daha da gücləndirmişdir. Faktlara müraciət edək. Son 6 ilin rəqəmləri göstərir ki, Azərbaycan ilə Qazaxıstan arasında ticarət əlaqələri həcminə və məzmununa görə tamamilə yeni mərhələyə qədəm qoyub. 2020-2025-ci illərdə iki ölkə arasındakı ticarət dövriyyəsi təxminən 3,8 dəfə artaraq iqtisadi əməkdaşlığın miqyasını və perspektivini aydın şəkildə göstərib. Təkcə 2025-ci ilin yanvar-avqust aylarında bu göstərici 547,6 milyon dollara çatıb ki, onun da 481,6 milyon dolları Qazaxıstandan Azərbaycana ixrac olunan malların payına düşüb. 66 milyon dollar isə ixrac məhsullarını əhatə edir. Qazaxıstandan idxalda üç əsas məhsul qrupunun üstünlük təşkil etməsi ayrıca diqqət çəkir. Belə ki, qızıl (yarım emal formada) idxalın 54, buğda 25, xam neft və neft məhsulları isə 8 faizini təşkil edir. Bu rəqəmlər Qazaxıstanın Azərbaycan üçün önəmli bir enerji və xammal mənbəyi olduğunu təsdiqləyir.

Azərbaycanın Qazaxıstana ixrac strukturunda isə tam fərqli bir dinamika müşahidə olunur. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) nəzdində fəaliyyət göstərən Türk Dünyası Araşdırmalar Mərkəzinin (TDAM) rəhbəri Vüsalə Cəfərovanın açıqlamasında bildirilir: "Azərbaycanın Qazaxıstana ixracında son illər sənaye və nəqliyyat sektoruna aid məhsulların payı artır. 2025-ci ilin 8 ayının göstəricilərinə görə, minik avtomobilləri ümumi ixracda təxminən 35, neft-qaz sənayesi üçün borular və avadanlıqlar 17, dizel mühərrikli avtomobillər 10 faiz təşkil edib. Bu ixrac strukturu Azərbaycanın Qazaxıstan bazarında re-eksport və sənaye təchizatçısı kimi rolunun möhkəmləndiyini göstərir".

Bu gün Azərbaycanla Qazaxıstan arasında ikitərəfli biznes əlaqələri sürətlə genişlənməkdədir. Hazırda Qazaxıstanda 1500-ə yaxın Azərbaycan kapitallı şirkət, Azərbaycanda isə təxminən 150 Qazaxıstan müəssisəsi fəaliyyət göstərir. V.Cəfərovanın fikrincə, bu göstəricilər yalnız rəqəm deyil, iki ölkə sahibkarları arasında artan etimadın və iqtisadi tərəfdaşlığın real ifadəsidir. Sərmayə axınlarına nəzər saldıqda isə əməkdaşlığın daha çox dərinləşdiyini görmək olur. 2005-2025-ci illər ərzində Azərbaycan tərəfindən Qazaxıstana 424,6 milyon, dost ölkədən Azərbaycana isə 156 milyon dollar həcmində sərmayə qoyulub. Bu rəqəmlər ikitərəfli iqtisadi münasibətlərin qarşılıqlı maraq əsasında qurulduğunu və real kapitalla dəstəkləndiyini sübut edir.

Məhz bu səbəbdəndir ki, Prezident İlham Əliyevin Qazaxıstana dövlət səfəri çərçivəsində iqtisadi əməkdaşlığın şaxələndirilməsi, eləcə də qarşılıqlı investisiya imkanlarının genişləndirilməsi liderlərin gündəliyində xüsusi yer tuturdu. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin "iqtisadi-ticari əməkdaşlığın inkişafı bizim üçün təxirəsalınmaz və çox mühüm vəzifədir" fikri iki ölkənin iqtisadi münasibətlərinə verdiyi yüksək önəmi göstərir. Bu həm də tərəflərin qarşılıqlı olaraq ticarətin genişləndirilməsinə, yeni investisiya imkanlarının yaradılmasına ciddi yanaşmalarını əks etdirir. İlham Əliyevin "bütün istiqamətlər üzrə qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsini hədəfləyirik" bəyanatı isə iqtisadi sahədə əməkdaşlığın yalnız ticarətlə məhdudlaşmadığını, həm də sənaye, enerji, nəqliyyat və digər strateji sahələrdə inteqrasiyanın gücləndirilməsinə yönəldiyini göstərir. Bu yanaşma ticarət dövriyyəsindəki davamlı artımın arxasında dayanan siyasi iradənin və strateji düşüncənin təsdiqidir.

Səfər zamanı prezidentlərin iştirakı ilə "Orta dəhlizin inkişafı" - Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə birgə layihənin təqdimatı keçirilib. Bildirilib ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanında Qazaxıstan limanları ilə daşınmalar ümumi yük dövriyyəsinin təxminən 35 faizini təşkil edir. 2024-cü ildə bu göstərici 2,6 milyon ton olub. 2025-ci ilin 9 ayında isə 2,1 milyon ton həcmində yük daşınıb. Son illər Azərbaycan - Qazaxıstan nəqliyyat və enerji əməkdaşlığı nəticəsində Orta dəhliz üzrə yüklərin həcmi rekord templə artıb. Xüsusən konteyner daşımaları təxminən iki dəfə artaraq 40200 TEU səviyyəsinə çatıb. Yük dövriyyəsi isə 2020-ci ildəki 0,8 milyon tondan 2024-cü ildə 4,5 milyon tona yüksəlib. 2025-ci il üçün hədəf 5,2 milyon ton və 70 min TEU olaraq müəyyən edilib.

Tədbirlə bağlı fikirlərini açıqlayan Prezident İlham Əliyev Zəngəzur dəhlizinə (TRIPP) də toxunub: "Zəngəzur dəhlizi layihəsi böyük potensiala malikdir. Azərbaycan ərazisində avtomobil və dəmir yolu əlaqəsi üzrə bütün işlər gələn ilin ortalarında başa çatdırılacaq. Ümid edirik ki, digər ölkələrin ərazisində də bütün bunlar analoji sürətlə həyata keçiriləcək və belə olan halda Zəngəzur dəhlizinin açılışı 2028-ci ilin sonuna qədər baş verə bilər". Dövlət başçısının bu fikirləri ona dəlalət edir ki, Zəngəzur dəhlizinin (TRIPP) reallaşması regional inteqrasiyanı bir qədər də dərinləşdirəcək, ticarət və logistika imkanlarını genişləndirəcək. Bu layihənin tamamlanması ilə həm Azərbaycan, həm də Qazaxıstan üçün yeni iqtisadi perspektivlər açılacaq, regional əməkdaşlıq daha da möhkəmlənəcək.

Bütün bu faktlar göstərir ki, son 20 ildə Azərbaycan və Qazaxıstan arasında iqtisadi əməkdaşlıq təkcə rəqəmlərlə məhdudlaşmayıb. Həm ikitərəfli, həm də regional layihələr çərçivəsində bu əməkdaşlıq daha geniş miqyas alıb. Bu fonda gələcək illərdə ticarət, nəqliyyat və investisiya sahələrində qarşılıqlı fəaliyyətin daha da dərinləşəcəyi şübhəsizdir. Deməli, iki ölkə arasında strateji tərəfdaşlığın davamlı və uzunmüddətli xarakter daşıyacağı qaçılmazdır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*




# Konstitusiya və Suverenlik İli 2025



**"Bizim əsas istinad nöqtəmiz, güc mənbəyimiz iqtisadi müstəqilliyimizdir".**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# Azərbaycan dövlət suverenliyinin, iqtisadi müstəqilliyin uğur hekayəsini yazmış qətiyyətli, ləyaqətli və nüfuzlu dövlətdir



## Müsahibimiz Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanovdur

*- Azər müəllim, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin təşəbbüsü ilə oktyabrın 22-də Milli Məclisdə "Dövlət suverenliyinin iqtisadi əsasları və iqtisadi müstəqillik" mövzusunda elmi-praktik konfrans keçirilmişdir. Bu konfransın keçirilməsi hansı zərurətdən irəli gəlmişdir?*

- Məlum olduğu kimi, Prezident İlham Əliyevin sərəncamı ilə 2025-ci il ölkəmizdə "Konstitusiya və suverenlik İli" elan edilmişdir. Milli Məclis bu vəsilə ilə silsilə tədbirlər həyata keçirir. Komitəmizin təşəbbüsü ilə keçirilən konfrans da həmin tədbirlərdən biri kimi təşkil olundu. Konfransda Milli Məclisin deputatları, iqtisadi yönümlü dövlət orqanlarının nümayəndələri, iqtisadçı alimlər iştirak edirdilər. Konfransın mövzusu elmi-praktik və konseptual olaraq geniş müzakirə edildi, dəyərli təklif və tövsiyələr səsləndirildi.

### Dövlətimizin siyasəti həmişə siyasi və iqtisadi müstəqilliyin vəhdətindən ibarət olub

*- Dövlət suverenliyinin iqtisadi əsasları, iqtisadi müstəqillik kimi mövzuların aktuallığını nə ilə izah edirsiniz?*

- Bu mövzunu şərtləndirən amillər sırasında 2025-ci ilin "Konstitusiya və suverenlik İli" elan edilməsini, 20 sentyabrın Dövlət Suverenliyi Günü kimi təsis edilməsini qeyd etmək istərdim. Ali Baş Komandan, Prezident İlham Əliyevin uzaqgörən siyasəti, müdrik rəhbərliyi və sərkərdəlik qabiliyyəti, müzəffər ordumuzun rəşadəti, qəhrəman şəhidlərimizin və qazilərimizin fədakarlığı sayəsində Azərbaycan Respublikasının dövlət suverenliyi tam bərpa edilib. Artıq suverenliyin bərpasından sonrakı gerçəkləri və çağırışları nəzərə almalıyıq. Bu kontekstdə suverenlik və iqtisadi müstəqilliyə yeni reallıqlar prizmasından baxmalıyıq. Yeni mərhələdə suverenliyin iqtisadi əsasları möhkəmlənməlidir. Dövlətimizin siyasəti həmişə siyasi və iqtisadi müstəqilliyin vəhdətindən ibarət olub. Hər iki məsələyə Ulu Öndər Heydər Əliyev kimi Prezident İlham Əliyev də xüsusi önəm verir. Bizi tam suverenliyə və iqtisadi müstəqilliyə gətirib çıxaran, qət etdiyimiz uzun yola bir daha nəzər salmalıyıq. Nəzərə almalıyıq ki, Azərbaycan dövlət suverenliyinin, iqtisadi müstəqilliyin uğur hekayəsini yazmış qətiyyətli, ləyaqətli və nüfuzlu dövlətdir. Biz dövlətimizin bu uğur hekayəsini bir daha təhlil etməli və gələcək üçün hədəflərimizi bir daha dəqiqləşdirməliyik.

*- Qeyd etdiniz ki, yeni mərhələdə suverenliyin iqtisadi əsaslarını möhkəmləndirməliyik. Suverenliyin iqtisadi əsaslarına keçməzdən əvvəl gəlin dövlət suverenliyinin özünün mahiyyətinə baxaq.*

- Dövlət suverenliyi hüquqi kateqoriya olsa da, onun iqtisadi baxımdan da dəyərləndirilməsini vacib hesab edirik. O, dünyanın bütün siyasi sistemlərində ali və güzəştə gedilməyəcək prinsipdir. Suverenlik hər şeydən əvvəl dövlətin daxili və xarici siyasətdə müstəqil qərar vermək hüququ və imkanıdır, qərarların başqa bir dövlətin diktəsi olmadan qəbul edilməsidir. Başqa sözlə, dövlətin daxili və xarici siyasətdə müstəqil olmasıdır. Prezident İlham Əliyevin təbirincə desək, Azərbaycan müstəqil siyasət aparan dövlətdir və heç bir dairənin təsiri altına düşmür. Suverenlik daxili resurslara əsaslanan dövlətçilik xəttidir, ali hakimiyyətin xarici müdaxilə olmadan xalqın iradəsi ilə sərbəst şəkildə formalaşdırılmasıdır. Cənab Prezident dövlət suverenliyi ilə bağlı deyib: "Bizim heç bir beynəlxalq təşkilat qarşısında öhdəliyimiz yoxdur ki, o, suverenliyimizi məhdudlaşdırsın". Bu uzun illər həyata keçirilən ləyaqətli və qətiyyətli dövlət siyasətinin nəticəsidir.

### Prezident İlham ƏLİYEV: "İqtisadi müstəqillik siyasi müstəqilliyimiz üçün əsas şərtdir..."

*- Bəs iqtisadi müstəqillik nədir? Onun əsas mahiyyəti nədən ibarətdir?*

İqtisadi müstəqillik ölkənin iqtisadi siyasətinin xarici təsirlərdən asılı olmayaraq, müstəqil həyata keçirilməsi, iqtisadi qərarların qəbul edilməsi zamanı dövlətin strateji maraq və hədəflərinin nəzərə alınmasıdır. İqtisadi müstəqilliyə malik olan ölkə milli iqtisadiyyatını dövlət maraqlarına uyğun formalaşdırır, bu əsasda dövlət suverenliyinin iqtisadi əsaslarını möhkəmləndirir. Ümumiyyətlə, iqtisadi müstəqillik uğurlu iqtisadi diplomatiya ilə müəyyənləşir. Bir həqiqəti də etiraf etmək lazımdır ki, mütləq iqtisadi müstəqillik olmur. İqtisadi müstəqilliyin nisbi olması onu gündəmdən çıxartmır. Prezident İlham Əliyevin iqtisadi müstəqilliklə bağlı baxışları onun mahiyyətini aydın bir şəkildə açıqlayır: "Bizim müstəqilliyimizin, müstəqil siyasətimizin təməlində iqtisadi müstəqillikdir... İqtisadi cəhətdən özünə güvənli dövlət müstəqil siyasət həyata keçirə bilir....Güclü iqtisadi dayaqlar siyasi müstəqilliyə də təkan verir... İqtisadiyyatımız nə qədər güclü olsa, bizim siyasi addımlarımız da o qədər cəsarətli və uğurlu olacaqdır... İqtisadi müstəqillik siyasi müstəqilliyimiz üçün əsas şərtdir..." Dövlət başçısının tezisləri bir daha təsdiq edir ki, siyasi və iqtisadi müstəqilliyin uzlaşdırılması Azərbaycanda dövlət siyasətinin əsas prinsiplərindən biridir. Ölkəmiz məhz bu siyasət nəticəsində regional liderliyini təmin etmiş, geosiyasi mövqeyini əhəmiyyətli dərəcədə gücləndirmişdir.

*- Xatırlatdınız ki, Azərbaycanda dövlət siyasəti həmişə siyasi və iqtisadi müstəqilliyin vəhdətindən ibarət olub. Sizcə, dövlət suverenliyi ilə iqtisadi müstəqillik arasında əlaqə nədən ibarətdir?*

- Dövlət suverenliyi və iqtisadi müstəqillik arasında sıx və ayrılmaz əlaqə var. Bu iki anlayış bir-birini tamamlayır. Azərbaycan siyasi və iqtisadi müstəqilliyi uğurla uzlaşdıra bilən nadir ölkələrdəndir. Suverenlik təkcə hərbi və diplomatik deyil, iqtisadi əsaslara da söykənməlidir. Təsadüfi deyildir ki, 44 günlük Vətən müharibəsində düşmənlə döyüşən təkcə müzəffər ordumuz, hərbi texnikamız deyil, həm də milli iqtisadiyyatımız döyüşürdü. Möhkəm iqtisadi baza dövlət maraqlarını və milli təhlükəsizliyi qorumağa imkan verir. İqtisadi güvəni və gücü olan ölkə özünün daxili və xarici siyasətində müstəqil qərarlar verə bilir, diplomatik manevr imkanlarına malik olur. Ayrı-ayrı ölkələrin təcrübəsi göstərir ki, iqtisadi müstəqillik olmadan real dövlət suverenliyi mümkün deyil. İqtisadi dayaqları zəif olan ölkələrin siyasi müstəqilliyi də formal xarakter daşıyır və onların iqtisadi asılılığı hər zaman siyasi güzəşt riski yaradır. Bilməliyik ki, iqtisadiyyatın xarici təsirlərdən asılılığı suverenliyi məhdudlaşdırır. İqtisadi müstəqillik dövlət suverenliyinin əsas dayağı olduğu kimi, suverenlik olmadan da dövlət maraqlarına cavab verən milli iqtisadiyyat formalaşdırmaq mümkün deyil. Birinin zəifləməsi digərinin dayaqlarını sarsıtdığı kimi, güclənməsi də digərini gücləndirir.

### Ulu Öndər Heydər Əliyev dövlətçiliyi qorumaq ənənəsinin əsasını qoydu

*- Vurğuladığınız kimi, siyasi və iqtisadi müstəqilliyin uzlaşdırılmasına Ulu Öndər Heydər Əliyev də xüsusi önəm verirdi. Bu sahədə Ümummilli Liderin əsas xidmətləri nədən ibarət olmuşdur?*

- Ölkəmizi tam suverenliyə və iqtisadi müstəqilliyə gətirən strateji yol Heydər Əliyevin adı ilə bağlıdır. Hər şeydən əvvəl Ulu Öndər Azərbaycanda dövlətçiliyi qorumaq ənənəsinin əsasını qoymuşdur. O qeyd edirdi ki, "İqtisadiyyatı qüdrətli olan dövlət hər şeyə qadirdir". Bu səbəbdən də dövlət quruculuğu ilə iqtisadi quruculuq uğurlu bir şəkildə əlaqələndirilmişdir. Ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq, dövlətin siyasi əsasları formalaşdırıldı, dövlət idarəetmə aparatı təşkil edildi, ictimai-siyasi sabitlik təmin olundu. Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul edildi. Həmin dövrdə güclü dövlət güclü iqtisadiyyatın qurulmasını tələb edirdi. Bu məqsədlə, ölkədə iqtisadi islahatlar, o cümlədən torpaq islahatı həyata keçirilmiş, dərin iqtisadi böhranın qarşısı alınmış, makroiqtisadi sabitliyə nail olunmuşdur. Beləliklə, ölkəmiz inkişaf relslərinə keçirilmişdir. "Əsrin müqaviləsi"nin imzalanması, Dövlət Neft Fondunun yaradılması inkişaf prosesinə ciddi təkan vermişdir.

### Yeni konstitusiya ölkəmizin iqtisadi ideologiyasını müəyyən etdi

*- 1995-ci ilin noyabrın 12-də ümumxalq referendumu yolu ilə yeni Konstitusiyanın qəbulu ilə həm də ölkəmizin iqtisadi inkişaf modelinin əsasları formalaşdırıldı. Bu model milli iqtisadiyyatın təşəkkül tapmasında həlledici rol oynadı. İqtisadi inkişaf modelinin konstitusion əsasları nədən ibarətdir?*

- Hər bir dövlətin Əsas Qanunu - konstitusiyası eyni zamanda ölkənin hansı siyasi və iqtisadi inkişaf yolunu seçdiyini müəyyənləşdirir. Yeni konstitusiya dövlət idarəçiliyinin formasını, vətəndaşların və dövlətin hüquq və vəzifələrini müəyyən etməklə yanaşı, həm də iqtisadi sistemin əsaslarını, dövlətin iqtisadi strategiyasının əsas prinsplərini də özündə əks etdirmişdir. Heydər Əliyev yeni konstitusiyanın müəllifi kimi bir tərəfdən ölkədə dövlət idarəçiliyinin əsaslarını, digər tərəfdən də Azərbaycanın iqtisadi inkişaf modelinin əsas prinsiplərini təsbit etmişdir. Bu həm də iqtisadi ideologiyanın müəyyən edilməsi deməkdir. Mahiyyət etibarı ilə iqtisadi ideologiya dövlətin iqtisadi strategiyasını, iqtisadi islahatların konseptual əsaslarını, seçilmiş iqtisadi modelin əsas prinsiplərini, ölkənin milli iqtisadi mənafeyi və maraqları ilə bağlı məsələləri özündə birləşdirir. Heydər Əliyev tərəfindən əsası qoyulmuş iqtisadi ideologiya artıq Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Belə bir ideologiyanın əsasını hər şeydən əvvəl mülkiyyət münasibətləri təşkil edir. Mülkiyyətin toxunulmazlığı və onun dövlət tərəfindən müdafiə edilməsi artıq konstitusion müddəaya çevrilmişdir. İqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanır. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. Əsas Qanunda qeyd edilir ki, Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir. "İqtisadiyyatın inkişafı xalqın rifahının yüksəldilməsinə xidmət edir" müddəası isə iqtisadi siyasətin sosialyönümlü olmasını təsbit edir. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, ölkəmizdə prezidentli respublika üsuli-idarəsinin seçilməsi iqtisadi sistemin transformasiyasının və radikal iqtisadi islahatların həyata keçirilməsinin sürətləndirilməsi baxımından özünü doğrultmuşdur. Azərbaycan Respublikasının Konstitusiyası iqtisadi siyasətin hazırlanması və həyata keçirilməsi ilə bağlı olan bütün idarəetmə halqalarının iqtisadi idarəçilik sahəsində hüquq və səlahiyyətlərini, onların əsas vəzifələrini dəqiq müəyyən etmişdir. Qeyd edilən müddəalar iqtisadi islahatların dönməzliyinə konstitusion təminat verməklə yanaşı, bazar münasibətlərinin ölkənin iqtisadi həyatına daha dərindən nüfuz etməsi üçün hüquqi-ideoloji zəmin yaratmış, dövlət suverenliyinin iqtisadi əsaslarının möhkəmlənməsinə xidmət etmişdir.

*- Ötən əsrin 90-cı illərinin ortalarından əsası qoyulmuş neft strategiyasını siyasi və iqtisadi müstəqilliyin uğurlu nümunəsi kimi təqdim edə bilərikmi?*

- Təbii ki! 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanda siyasi və iqtisadi müstəqilliyin uğurlu bir şəkildə uzlaşdırılmasının, siyasi iradənin və qətiyyətin təsdiqidir. Bu müqavilə xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsinə, neft sənayesinin modernizasiyasına şərait yaratdı. Dövlət Neft Fondunun yaranması ilə neft gəlirlərinin səmərəli idarə edilməsi modelinin əsası qoyuldu. Prezident İlham Əliyev bununla bağlı qeyd etmişdi: "Neft Fondu Azərbaycanın iqtisadi suverenliyinin əsas dayaqlarındandır". "Əsrin müqaviləsi"nin həyata keçirilməsi ilə neft sektoru Azərbaycanın iqtisadi inkişafında lokomativ rolunu oynadı. Möhtərəm Prezidentin təbirincə desək, əgər neft sərvətlərimizi düzgün idarə etməsəydik, bu gün iqtisadi müstəqillikdən danışmaq mümkün olmazdı.

*- Prezident İlham Əliyev suverenliyin iqtisadi əsaslarını necə möhkəmləndirdi? Bu məqsədlə hansı strateji addımlar atıldı?*

- Hər şeydən əvvəl dövlət başçısı tərəfindən aydın baxışlar sistemi təqdim edildi. Müstəqil iqtisadi və siyasi xəttin həyata keçirilməsi prioritet kimi müəyyən edildi. Güclü iqtisadiyyat - güclü dövlət prinsipi əsas götürüldü. Azərbaycan milli iqtisadiyyatını öz milli dövlət maraqlarına uyğun olaraq formalaşdırdı. Siyasi və iqtisadi müstəqilliyin bir-birini tamamlamasını təmin edən dövlət siyasəti həyata keçirildi. Prezident İlham Əliyevin bilavasitə rəhbərliyi və təşəbbüsü ilə həyata keçirilən Azərbaycanın enerji layihələri dövlət suverenliyinin əsaslarını möhkəmləndirdi. Enerji resurslarının ixracı marşrutu şaxələndirildi. Həmçinin iqtisadi müstəqilliyimizi gücləndirən və strateji xarakter daşıyan nəqliyyat-infrastruktur layihələri icra edildi. Həm enerji, həm də nəqliyyat layihələri ölkəmizin geosiyasi mövqeyini gücləndirdi. Neft gəlirlərinin səmərəli istifadəsi və idarə edilməsi təmin edildi.

### Strateji valyuta ehtiyatları Azərbaycanın maliyyə təhlükəsizliyi "yastığı" və müdafiə qalxanıdır

*- Hansı amillər və göstəricilər Azərbaycanda dövlət suverenliyinin iqtisadi əsaslarının möhkəm olmasını xarakterizə edir?*

- Bu, ilk növbədə, özünü strateji resurslara dövlətimizin şəriksiz sahiblik hüququnda göstərir. Azərbaycan öz strateji resurslarını özü idarə edir. İqtisadi siyasət milli dövlət maraqlarını nəzərə alır və ona uyğun olaraq həyata keçirilir. Fiskal və monetar alətləri müstəqil şəkildə tətbiq edə bilirik. İnkişaf proqramları donor vəsaiti ilə deyil, daxili resurslar hesabına reallaşır. Nəzərə almalıyıq ki, hər bir ölkənin əsas iqtisadi dayağı onun maliyyə sabitliyinə malik olmasıdır. Bu baxımdan makroiqtisadi sabitliyin qorunmasını da xüsusi olaraq qeyd etməliyik. Azərbaycanda uzun illərdir ki, xarici dövlət borcunun səviyyəsi aşağı həddədir. Hazırda bu rəqəm 5 milyard dollara bərabər olmaqla ÜDM-in 6,5 faizini təşkil edir. Daxili dövlət borcu 17 milyard manat olmaqla ÜDM-in 13,1 faizi həddindədir. Bu rəqəmlər iqtisadi təhlükəsizlik baxımından kritik hesab edilən hədlərdən dəfələrlə aşağıdır. Strateji valyuta ehtiyatlarımız ÜDM-in həcmini üstələyərək 81,5 milyard dollara çatıb. Sonuncu göstərici ölkəmizin maliyyə təhlükəsizliyi yastığı və təzyiqlərə qarşı müdafiə qalxanıdır.

*- Qeyd etdiniz ki, iqtisadi müstəqillik uğurlu iqtisadi diplomatiya ilə müəyyənləşir. Ümumiyyətlə, iqtisadi diplomatiya nədir? Dövlətimizin iqtisadi əsaslarının möhkəmlənməsində onun yeri və rolu nədən ibarətdir?*

- İqtisadi diplomatiya mahiyyətcə, xarici siyasət vasitəsilə milli iqtisadi maraqların qorunmasına xidmət edir. O, strateji məhsullar üçün xarici bazarlara çıxışı təmin edir, xarici investorların ölkəyə cəlb edilməsi və ticarət əlaqələrinin genişləndirilməsi istiqamətində fəaliyyət göstərir. İqtisadi diplomatiya vasitəsilə ölkənin regionda və regional inteqrasiya proseslərində iqtisadi təsir imkanları artır, üstünlüklər əldə edilir. "Əsrin müqaviləsi" iqtisadi diplomatiya sahəsində uğur hekayəmizdir. Regionda enerji və nəqliyyat sahəsində aparıcı mövqeyimiz var. Bu sahədə strateji layihələr regionda mühüm oyunçuya çevrilib.

*- İqtisadi təhlükəsizlik iqtisadi müstəqilliyin möhkəmləndirilməsi kontekstində nə üçün bu qədər önəmlidir?*

- İqtisadi təhlükəsizlik iqtisadi və siyasi müstəqilliyin, dövlətçiliyimizin qorunmasının əsasıdır. Yeni çağırışlar iqtisadi təhlükəsizliyin gücləndirilməsini tələb edir. Prezident İlham Əliyevin təbirincə desək, iqtisadi müstəqillik milli təhlükəsizliyimizin əsas dayağıdır. İqtisadi təhlükəsizlik isə milli təhlükəsizlik konsepsiyasının tərkib hissəsidir. O, siyasi və geosiyasi təhlükəsizlik baxımından da əhəmiyyətlidir. İqtisadi təhlükəsizlik tədbirləri iqtisadi suverenlik üçün potensial risk doğuran amilləri aradan qaldırır, ölkəni xarici iqtisadi şoklardan və təzyiqlərdən qoruyur və bu baxımdan da suverenliyimizin qorunmasının əsası kimi çıxış edir. İqtisadi təhlükəsizlik iqtisadi müstəqilliyi, iqtisadi müstəqillik isə dövlət suverenliyini möhkəmləndirir. Neftdən asılılığın azaldılması, maliyyə dayanıqlılığının təmin edilməsi, texnoloji inkişafa nail olunması iqtisadi təhlükəsizliyi təmin edən ən mühüm tədbirlərdir. Hesab edirik ki, dövlət suverenliyinin və ərazi bütövlüyünün bərpasından sonra qarşıda dayanan başlıca vəzifə iqtisadi təhlükəsizlik tədbirlərini gücləndirməkdən ibarətdir. Bu baxımdan mövcud reallıqları və təhdidləri nəzərə alan İqtisadi Təhlükəsizlik Konsepsiyasının işlənməsini zəruri hesab edirik. Unutmamalıyıq ki, iqtisadi müstəqillik statik deyil. Onun möhkəmləndirilməsi davamlı proses olmalıdır. Bunu isə iqtisadi təhlükəsizlik tədbirləri təmin edir.

### Prezident İlham ƏLİYEV: "Postneft dövrü üçün biz iqtisadiyyatımızı şaxələndirməli, idxaldan asılılığı azaltmalıyıq"

*- Yeni çağırışlar fonunda iqtisadi müstəqilliyin və dövlətimizin iqtisadi dayaqlarının möhkəmləndirilməsi sahəsində qarşıda dayanan əsas hədəflər nədən ibarətdir?*

- Bu hədəflər də Prezident İlham Əliyevin çıxışlarında çox aydın bir şəkildə əksini tapır. Dövlət başçısı qeyd edir: "Postneft dövrü üçün biz iqtisadiyyatımızı şaxələndirməli, idxaldan asılılığı azaltmalıyıq... Ərzaq təhlükəsizliyi, enerji təhlükəsizliyi, informasiya təhlükəsizliyi - bunların hamısı bizim suverenliyimizin tərkib hissələridir". Sənayeləşmə və kənd təsərrüfatının inkişaf etdirilməsi, texnoloji və innovativ inkişaf iqtisadi müstəqilliyin möhkəmləndirilməsi baxımından strateji hədəflər kimi müəyyən olunub. Həmçinin makroiqtisadi sabitliyi qorumaq, davamlı iqtisadi artıma nail olmaq, maliyyə dayanıqlılığını təmin etmək, sahibkarlığı inkişaf etdirmək, institusional islahatları dərinləşdirmək, nəqliyyat infrastrukturunu gücləndirmək qarşıda dayanan əsas vəzifələrdəndir. "Konstitusiya və suverenlik İli" 2025-ci ildə başa çatsa da, növbəti illər Azərbaycan Respublikasının iqtisadi əsaslarının və iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi mərhələsi olacaqdır.

***Müsahibəni apardı:***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanın sülh təşəbbüsü

## Bu, İlham Əliyevin müstəqil siyasətinin təməl prinsiplərini, ölkəmizin beynəlxalq imicini əks etdirən gerçəklikdir



**İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni tarixi-siyasi reallıq Azərbaycanın regional mövqeyinin möhkəmləndirilməsini və beynəlxalq münasibətlər sistemindəki rolunun daha da artmasını şərtləndirdi. Yəni hərbi-siyasi qələbə ilə Azərbaycan həm də bölgədəki statusunu daha da möhkəmləndirdi.**

Məhz İlham Əliyevin uğurlu diplomatiyası sayəsində onilliklərdir davam edən Azərbaycan-Ermənistan münaqişəsi yalnız hərbi qələbə ilə deyil, həm də beynəlxalq hüquq çərçivəsində təsbit olunmuş sülh razılaşması ilə başa çatmaq üzrədir.

Bu bir həqiqətdir ki, Prezident İlham Əliyev beynəlxalq diplomatiyada sülhün və təhlükəsizliyin təbliğatçısı kimi tanınır. Prezident İlham Əliyev yalnız Azərbaycanın deyil, həm də regionun və dünyadakı münaqişələrin həlli üçün daim konstruktiv yanaşmalar ortaya qoyub, sülhsevər siyasəti ilə dünya birliyinin diqqətini çəkib.

İlham Əliyev Azərbaycanın müstəqillik qazandığı gündən etibarən ölkənin beynəlxalq əlaqələrinin inkişafına xüsusi önəm verib. Onun rəhbərliyi altında Azərbaycan bir tərəfdən dünya birliyi ilə münasibətlərini gücləndirərkən, digər tərəfdən isə regional məsələlərdə balanslı və sülhəyönəlik siyasət yürüdüb. Xüsusilə keçmiş Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində, o, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü qorumağı əsas prinsip kimi müəyyən edib, eyni zamanda münaqişənin sülh yolu ilə həlli üçün bir çox təşəbbüslər irəli sürüb.

Qarabağ zəfəri həm də Azərbaycanın gücünü və müstəqil xarici siyasətini daha geniş qlobal səviyyədə tanıtdı və bu dövr ərzində Azərbaycanın Qərb və Şərq ölkələri ilə diplomatik əlaqələri daha da dərinləşdi.

Azərbaycanın BMT, ATƏT, Qoşulmama Hərəkatı, Şanxay Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq təşkilatlarda fəal iştirakı onun qlobal siyasətdəki rolunu artırır. Azərbaycanın bu təşkilatlarda mövqeyi onun həm regional, həm də qlobal məsələlərə təsir göstərən bir ölkə olduğunu göstərir.

Avqustun 8-də ABŞ-də Azərbaycanla Ermənistan arasında sülh sazişinin mətninin paraflanması tərəflərin sülhə daha da yaxınlaşdığını təsdiqləyən reallıqdır. ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə keçirilən görüşdə əldə edilən nəticələr həm Azərbaycanda, həm də Ermənistanda müzakirə mövzusu olaraq qalır.

Artıq hər iki tərəf sülh barədə düşünür. Buna misal kimi təkcə Bakı ilə Yerevan arasında ilk çarter reysinin həyata keçirilməsini göstərmək olar. Zəngəzur dəhlizinin açılması istiqamətində ikitərəfli razılaşmanın əldə olunması da bunun tərkib hissəsidir.

Bütün bunlar iki dövlətin rəhbərlərinin heç bir kənar qüvvələrin, yəni vasitəçi olmadan reallaşdırdığı proseslərdir. Qərb institutları konkret olaraq bu prosesdən kənarda saxlanılır. Uzun illər Qərb bu sahədə təşəbbüsü öz əlində saxlayıb, öz iradəsini diktə etdiyi üçün tərəflər arasında heç bir razılaşma əldə edilmirdi. Çünki hər bir təşkilat, dövlət öz maraqları çərçivəsində ortada "dirijorluq" edirdi. İndi Azərbaycan və Ermənistan heç bir kənar müdaxilə olmadan etimad quruculuğu prosesini həyata keçirirlər.

Əminliklə deyə bilərik ki, Azərbaycan və Ermənistan arasında etimad quruculuğu prosesi, bölgədə sülhün və sabitliyin təmin edilməsi üçün vacib bir mərhələdir. Bu hər iki ölkənin uzun illər ərzində yaşadığı gərginlik və münaqişələrin fonunda, yeni bir əməkdaşlıq və qarşılıqlı anlaşma istiqamətində atılmış mühüm addımdır.

Azərbaycan və Ermənistan arasında etimad quruculuğu prosesi birbaşa diplomatik əlaqələr və yüksəksəviyyəli danışıqlar vasitəsilə həyata keçirilir. Bu diplomatik təmaslar, qarşılıqlı anlaşma və sülh yolunun tapılması üçün əsas mexanizmlərdən biridir.

Prezident İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında müntəzəm olaraq aparılan danışıqlar iki ölkə arasında etimadın bərpa edilməsinə xidmət edir. Əvvəlki illərdə diplomatik əlaqələrin olmaması birbaşa dialoq imkanlarını məhdudlaşdırmışdı, amma son zamanlarda bu vəziyyət dəyişib.

Artıq beynəlxalq təşkilatlar, o cümlədən Avropa İttifaqı (Aİ), BMT, ATƏT və digər mühüm qurumlar Azərbaycan və Ermənistan arasında etimad quruculuğu prosesini dəstəkləyirlər. Aİ xüsusilə hər iki ölkəyə sülh prosesində yardım göstərən əsas tərəfdaşdır. Avropa İttifaqı həmçinin sərhədin müəyyənləşdirilməsi, mülki vətəndaşların təhlükəsizliyi və qarşılıqlı etimadın artırılması məsələlərində önəmli rol oynayır.

Daha geniş baxıldığında, beynəlxalq cəmiyyətin sülh təşəbbüsləri tərəfləri daha da yaxınlaşdıraraq, etimad quruculuğu prosesinə müsbət təsir göstərir. Bu təkcə siyasi və iqtisadi maraqların deyil, həm də insan hüquqları və humanitar yardım məsələlərinin ön planda tutulduğu bir dövrün başlanğıcıdır.

Sərhəd məsələləri və qarşılıqlı təhlükəsizlik Azərbaycan və Ermənistan arasında etimad quruculuğunun ən mühüm aspektlərindəndir. Hər iki tərəf sərhədlərdəki vəziyyətin sabitliyini qorumağa, mülki əhalinin təhlükəsizliyini təmin etməyə və hərbi təxribatların qarşısını almağa çalışır.

Sərhədin müəyyənləşdirilməsi həmçinin iqtisadi və humanitar əməkdaşlığın inkişaf etdirilməsi məsələləri, etimad quruculuğunun əsas şərtlərindəndir. Bu istiqamətdə, xüsusilə sərhəd keçiriciliyinin asanlaşdırılması, ticarət əlaqələrinin qurulması və iki ölkə arasında kommunikasiyanın yaradılması vacib addımlar hesab olunur.

Humanitar məsələlər həm də etimad quruculuğunun təməlini təşkil edir. Azərbaycanın müharibədən sonra Ermənistanla əlaqələri müsbət istiqamətdə qurmaq üçün daha çox insan hüquqları məsələlərini müzakirə etməsi, iki tərəf arasında anlaşma mühitini formalaşdırmağa xidmət edir. Müharibə dövründə əsir düşən şəxslərin mübadiləsi, itkin düşənlərin axtarışı və digər humanitar məsələlər qarşılıqlı etimadın qurulmasında əhəmiyyətli rol oynayır.

Azərbaycan və Ermənistanın vətəndaş cəmiyyətləri arasında da sülh və əməkdaşlıq üçün daha çox təmas və əlaqələrin qurulması vacibdir. Bu istiqamətdə müxtəlif qeyri-hökumət təşkilatları və ictimai qurumlar iki ölkə arasında etimadın artırılmasına töhfə verməkdədirlər.

Bir sözlə, Azərbaycan və Ermənistan arasında etimad quruculuğu prosesi hələ başlanğıc mərhələsində olsa da, müsbət irəliləyişlər müşahidə edilir. Bu yalnız diplomatik əlaqələrin inkişafı ilə deyil, həm də iqtisadi, humanitar və mədəni sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın qurulması ilə bağlıdır. Bu proses hər iki ölkənin gələcəkdə daha çox dialoqa və əməkdaşlığa açıq, eyni zamanda regional sülhün bərqərar olmasına imkan yaradacaq.

Əgər bu istiqamətdə atılan addımlar davam edərsə və tərəflər qarşılıqlı etimadı gücləndirməyə çalışarlarsa, regionda daha uzunmüddətli və davamlı sülhün təmin edilməsi mümkün olar. Bu proses yalnız Azərbaycan və Ermənistanın deyil, bütövlükdə Cənubi Qafqazın gələcək inkişafı və sabitliyi üçün vacibdir.

Azərbaycanın sülh təşəbbüsü regiona marağı artıracaq. Azərbaycanın bu sahədəki fəaliyyəti yalnız ölkənin regional və beynəlxalq gücünü artırmaqla qalmır, həm də digər dövlətlərin, beynəlxalq təşkilatların, daha geniş miqyasda regional təhlükəsizlik məsələlərinə olan diqqətini cəlb edir.

Bu gün İlham Əliyev tərəfindən irəli sürülən təşəbbüslər Cənubi Qafqazda sabitlik, inkişaf və əməkdaşlıq üçün real platforma yaradır.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Azərbaycan sülhü həm də iqtisadi əməkdaşlığın əsas amillərindən biri kimi təqdim edir



**"Cənubi Qafqazda dayanıqlı sülhün əldə olunması üçün atılan addımlar Azərbaycan diplomatiyasının ardıcıl və məqsədyönlü siyasətinin nəticəsidir. 2020-ci ildən sonra yaranan reallıqlar ölkəmizin yalnız hərbi üstünlüyünün deyil, həm də siyasi gücünün təzahürüdür".**

Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. O bildirib ki, Prezident İlham Əliyevin ardıcıl sülh təşəbbüsləri bölgədə uzun illərdir davam edən hərbi münaqişəni dayandırmaqla yanaşı, qarşılıqlı iqtisadi əlaqələrin yaranmasının, faydalı əməkdaşlığın əsasını qoyur. Ermənistana yük tranziti ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması məhz yeni reallıqların təzahürüdür. Prezident İlham Əliyev Qazaxıstana dövlət səfəri çərçivəsində mətbuata bəyanatında qeyd edib ki, Azərbaycan Ermənistana işğaldan bəri mövcud olan yüklərin tranzit məhdudiyyətlərini aradan qaldırıb: "Belə bir ilk tranzit Qazaxıstanın Ermənistana taxıl yükü olub. Zənnimcə, bu həmçinin Azərbaycan ilə Ermənistan arasında sülhün yalnız kağız üzərində deyil, həm də praktikada olduğunun yaxşı göstəricisidir".

Deputat qeyd edib ki, Rusiyadan da yüklər Ermənistana Azərbaycan vasitəsilə daşınacaq. Artıq belə bir razılaşmanın əldə olunduğu bildirilir. Bu o deməkdir ki, regionda ticarət yolları artıq açılır, sərhədlər yumşalır, qarşılıqlı etimadın formalaşması üçün mühüm zəmin yaranır. "Yüklərin Azərbaycan vasitəsilə Gürcüstan ərazisindən keçməsi keçid mərhələsinin göstəricisidir, lakin bu, gələcəkdə daha birbaşa və davamlı kommunikasiya xətlərinin qurulmasının mümkünlüyünü ifadə edir. Bütün bunlar Azərbaycanın siyasi iradəsi və sülhyönümlü diplomatik fəallığı nəticəsində mümkün olub", - deyə o əlavə edib.

S.Fətəliyevanın sözlərinə görə, Azərbaycanla Ermənistan arasında sülh prosesinin intensivləşməsində Vaşinqton görüşü dönüş nöqtəsi oldu. ABŞ-nin paytaxtında iki ölkə arasında sülh sazişi layihəsinin paraflanması region üçün tarixi hadisə olmaqla yanaşı, Azərbaycanın beynəlxalq diplomatiyada oynadığı rolu bir daha göstərdi. Vaşinqton danışıqları zamanı Prezident İlham Əliyevin nümayiş etdirdiyi prinsipiallıq və dövlət maraqlarına sadiqlik Cənubi Qafqazda sülh prosesinin uğurla davam etdirilməsini təmin etdi. Bakının məqsədi qarşılıqlı etimad və iqtisadi əməkdaşlıq əsasında sabitliyin qurulmasıdır. Belə bir etimad quruculuğu üçün Prezident İlham Əliyev güclü siyasi iradə nümayiş etdirir. Azərbaycan postmüharibə dövründə sülhü təkcə siyasi sənəd kimi deyil, həm də iqtisadi əməkdaşlığın əsas amillərindən biri kimi təqdim edir.

Deputat vurğulayıb ki, regionda dayanıqlı sülhün təmin olunması üçün iqtisadi əlaqələrin qurulması da çox önəmlidir: "Bu baxımdan Ermənistanın regional layihələrdə iştirakına şərait yaradılması rəsmi Bakı tərəfindən atılmış strateji addımdır. Ermənistana yük tranzitinin açılması, həm sülh prosesi üçün etimad yaradan amildir, həm də regionun iqtisadi coğrafiyasını dəyişdirəcək hadisədir. Bu qərar göstərir ki, Azərbaycan hərb meydanında qazandığı qətiyyətli qələbənin davamını sülh və dialoq mərhələsinə ötürüb".

Sevinc Fətəliyeva qeyd edib ki, bu hadisə bütövlükdə Cənubi Qafqazın üç ölkəsi arasında iqtisadi inteqrasiyanın başlanğıcı da hesab oluna bilər. Yeri gəlmişkən, Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycanın Ermənistan istiqamətində yük tranzitinə qoyduğu məhdudiyyətlərin aradan qaldırılmasına görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Deputat vurğulayıb ki, Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində Cənubi Qafqaz hərbi toqquşmalar məkanından əməkdaşlıq platformasına çevrilməkdədir. Azərbaycanın sülh təşəbbüsləri bu gün həm beynəlxalq aləmdə, həm də region daxilində etimad qazanıb. Ermənistan üçün də bu, iqtisadi təcriddən çıxmaq, dünya ilə inteqrasiya imkanlarını genişləndirmək anlamına gəlir. Bütün bunlar göstərir ki, Prezident İlham Əliyevin prinsipial siyasəti sayəsində Cənubi Qafqazda tarixi hadisələr baş verir. Dövlətimizin nümayiş etdirdiyi konstruktiv mövqe və qətiyyətli liderlik bölgədə sabitliyin əsas təminatına çevrilib. İnanırıq ki, atılan addımlar qısa müddətdə regionda dayanıqlı sülhü tam təmin edəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Vyanada "Beynəlxalq sülh və təhlükəsizlikdə neytral və bloklara qoşulmayan dövlətlərin rolu" mövzusunda beynəlxalq konfrans keçirilib

**Vyana Diplomatiya Akademiyasında "Beynəlxalq sülh və təhlükəsizlikdə neytral və bloklara qoşulmayan dövlətlərin rolu" mövzusunda beynəlxalq konfrans keçirilib.**



AZƏRTAC xəbər verir ki, Azərbaycanın Avstriyadakı səfirliyinin dəstəyi ilə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (AIR Center), Müharibə nəticələrinin araşdırılması üzrə Lüdviq Boltsmann İnstitutu və Vyana Diplomatiya Akademiyasının birgə təşkil etdiyi konfransda neytral və bloklara qoşulmayan dövlətlərin, xüsusilə də Azərbaycan və Avstriyanın siyasəti, onların təhlükəsizlik təminatçısı kimi rolu və sülhə, sabitliyə, həmçinin mövcud və yeni yaranan transmilli çağırışların həllinə verdikləri töhfələri müzakirə olunub.

Vyana Diplomatiya Akademiyasının direktor müavini Martina Şubert və Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli konfransa açılış nitqi ilə çıxış ediblər. R.Sadıqbəyli bildirib ki, hazırda Avropada və dünyada müşahidə olunan təhlükəsizlik böhranı - beynəlxalq hüququn əsas prinsiplərinin pozulması, etimadın və inamın aşınması, siyasi-hərbi bloklar arasında dərinləşən uçurumlar, eləcə də qlobal dinamikaların və ittifaqların dəyişməsi dünyanın gələcək təhlükəsizlik və sabitlik mənzərəsinə dair qeyri-müəyyənliyi artırır. Bu dəyişkən təhlükəsizlik mühiti, həmçinin neytral və bloklara qoşulmayan dövlətlər üçün çətinliklər yaradır. Çünki onlar təhlükəsizliklərini siyasi-hərbi bloklara üzvlük vasitəsilə təmin edə bilmirlər və bu bloklardan təhlükəsizlik zəmanətlərinə ehtiyac duyurlar. Diqqətə çatdırılıb ki, bu il Azərbaycanın Konstitusiyasının qəbulunun 30 illiyi və Avstriyanın əbədi neytrallığının elan olunduğu Dövlət Müqaviləsinin 70 illiyi qeyd edilir. Avstriya 1955-ci ildə neytrallığını elan edərək hərbi ittifaqlara qoşulmamaq qərarı verib. Azərbaycan isə 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra heç bir siyasi-hərbi bloka qoşulmadan bütün ölkələrlə dost münasibətlər qurmağa çalışan çoxşaxəli xarici siyasət yürüdüb. Azərbaycanın "Qoşulmayan" statusu beynəlxalq səviyyədə tanınıb və ölkə 2011-ci ilin may ayında Qoşulmama Hərəkatının tamhüquqlu üzvünə çevrilib.

Konfransın sessiyalarında neytrallıq və strateji müstəqilliyə yeni baxışlar, yeni geosiyasi kontekstdə bloklara qoşulmadan xarici siyasətin həyata keçirilməsi mövzularında çıxışlar dinlənilib, fikir mübadiləsi aparılıb. Sessiyalarda BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev, Avropa və Təhlükəsizlik Siyasəti üzrə Avstriya İnstitutunun baş məsləhətçiləri Frants Tsede və Martin Saydik, hərbi tarixçi Ervin Şmidl, Ludviq Boltsmann İnstitutunun təmsilçisi Anna Qraf-Ştayner, Vyana Universitetinin müəllimi Ralf Yanik, Strateji Analizlər üzrə Mərkəzin prezidenti Valter Fayxtinqer və digər məruzəçilər çıxış ediblər.

BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev vurğulayıb ki, 2011-ci ildə Azərbaycanın Qoşulmama Hərəkatına qoşulması ölkəmizin "Bandunq Prinsipləri"nə sadiqliyini nümayiş etdirib. Bu siyasi xətt hazırda da davam etdirilir və Azərbaycan regional əməkdaşlıqla yanaşı, ikitərəfli münasibətlərə, xüsusilə Türkiyə ilə müttəfiqlik əlaqələrinin dərinləşdirilməsinə xüsusi önəm verir.

BMTM rəhbərinin sözlərinə görə, "soyuq müharibə"dən sonra Azərbaycan müxtəlif istiqamətlərdə - həm Müstəqil Dövlətlər Birliyi (MDB), həm də Avrointeqrasiya çərçivəsində əməkdaşlıq imkanlarını dəyərləndirsə də, mövcud geosiyasi vəziyyət ölkəmizi balanslaşdırılmış və praqmatik xarici siyasət xətti yürütməyə səbəb olub.

2019-2023-cü illərdə hərəkata sədrliyimiz dövründə Azərbaycan beynəlxalq həmrəyliyin gücləndirilməsi, pandemiya dövründə ədalətli vaksin bölgüsünün təşviqi, eləcə də Qoşulmama Hərəkatı Gənclər Təşkilatının və Parlament Şəbəkəsinin yaradılması kimi vacib təşəbbüslərlə çıxış edib.

F.Şəfiyev bildirib ki, ölkəmiz beynəlxalq hüququn əsas norma və prinsiplərinin, xüsusilə dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsipinin qorunmasını hər zaman prioritet hesab edib. Qoşulmama Hərəkatına üzv ölkələrin əksəriyyətinin İkinci Qarabağ müharibəsində Azərbaycanın suverenliyini dəstəkləməsi hərəkat daxilində qarşılıqlı etimadın və dostluğun bariz nümunəsi kimi dəyərləndirilib.

BMTM rəhbəri həmçinin rəsmi Bakının beynəlxalq platformalarda dialoqun, çoxtərəfliliyin və beynəlxalq ədalətin təşviqinə yönəlik təşəbbüsləri dəstəkləməyə davam etdiyini diqqətə çatdırıb.

"Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri də vasitəçilik missiyasının təşviqidir. Ölkəmiz son illərdə bir sıra dövlətlərin nümayəndələri arasında aparılan danışıqlara evsahibliyi etməklə regionda sülh və sabitliyə töhfə verən etibarlı tərəfdaş imicini gücləndirib", - deyə F.Şəfiyev vurğulayıb. Çıxışlardan sonra mövzular ətrafında sual-cavab və fikir mübadiləsi aparılıb.

# Azərbaycanın xarici siyasətinin uğurları

## Azərbaycan yeni dünya düzənində fərqli modelləri ilə əsas aktora çevrilib

**Müasir beynəlxalq münasibətlər sistemində baş verən dərin dəyişikliklər, geosiyasi gərginliklər və regional münaqişələrin çoxalması fonunda milli maraqlarını qətiyyətlə qorumağı bacaran, eyni zamanda konstruktiv əməkdaşlıq gündəliyi ilə çıxış edən dövlətlər xüsusi çəki qazanırlar. Azərbaycan bu mənada son illərdə həm regional, həm də qlobal səviyyədə fərqli inkişaf modelləri, diplomatik fəallığı və strateji təşəbbüsləri ilə yeni dünya düzəninin əsas aktorlarından birinə çevrilib.**

Prezident cənab İlham Əliyevin uzaqgörən və sistemli siyasəti nəticəsində formalaşan "Azərbaycan modeli" təkcə ölkəmizin siyasi, iqtisadi və mədəni inkişafını deyil, həm də beynəlxalq sabitlik və əməkdaşlıq arxitekturasını formalaşdıran nümunəyə çevrilib.

### Münaqişənin həlli və sülh gündəliyi modeli

Azərbaycanı fərqləndirən əsas istiqamətlərdən biri postmünaqişə dövrünün sülh və inkişaf modelidir. 30 ilə yaxın davam edən Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq prinsipləri əsasında ədalətli həlli ölkəmizin diplomatik və hərbi strategiyasının vəhdətini nümayiş etdirdi. Hərb tarixinin yeni səhifəsini açdı. 2020-ci ildə əldə edilən Zəfər təkcə ərazi bütövlüyümüzü bərpa etmədi, həm də Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının əsasını qoydu.

Bu gün Azərbaycan regionda sülhün təşəbbüskarı və təminatçısı kimi çıxış edir. Prezident cənab İlham Əliyevin irəli sürdüyü sülh müqaviləsi təşəbbüsləri, sərhədlərin delimitasiya və demarkasiyası, kommunikasiyaların açılması istiqamətində atılan addımlar Azərbaycanın beynəlxalq nüfuzunu daha da gücləndirib. Beləliklə, güc elementindən sonra konstruktiv diplomatiya və bərpayönümlü siyasət ön plana keçib. Bu isə Azərbaycanın etibarlı, məsuliyyətli və praqmatik tərəfdaş kimi mövqeyini möhkəmləndirib.

### Quruculuq və ağıllı inkişaf modeli

Postmünaqişə dövründə Azərbaycanın həyata keçirdiyi quruculuq siyasəti həm miqyası, həm də müasir yanaşması ilə seçilir. Azad edilmiş ərazilərdə həyata keçirilən "ağıllı kənd" və "ağıllı şəhər" layihələri gələcəyin yeni idarəetmə, ekoloji, rifah və sosial həyat modelini nümayiş etdirir.

Zəngilanın Ağalı kəndində tətbiq edilən pilot layihə bərpaolunan enerji mənbələri, rəqəmsal kənd təsərrüfatı və "yaşıl texnologiya"lar əsasında formalaşmış infrastrukturla reallaşan dayanıqlı inkişaf modelini ifadə edir.

Bu konsepsiya "Böyük qayıdış" proqramı ilə uzlaşaraq həm sosial ədaləti, həm də iqtisadi dirçəlişi təmin edir. Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa işləri regionu yeni iqtisadi mərkəz kimi formalaşdırır. Azərbaycan bu sahədə XXI əsrin "yaşıl" və rəqəmsal dövlət modelini təqdim edir.

### Xarici siyasət və qlobal diplomatiya modeli

Azərbaycanın xarici siyasəti tarazlıq, müstəqillik və çoxvektorlu əməkdaşlıq prinsiplərinə əsaslanır. Prezident cənab İlham Əliyevin "müstəqil xarici siyasət" konsepsiyası nəticəsində ölkəmiz beynəlxalq sistemdə etibarlı və balanslı tərəfdaş kimi qəbul olunur.

Azərbaycan həm Qoşulmama Hərəkatı çərçivəsində ədalətli beynəlxalq nizamın müdafiəçisidir, həm də Avropa İttifaqı, Türk Dövlətləri Təşkilatı, BMT və İƏT kimi qurumlarla səmərəli əməkdaşlıq aparır.

Enerji diplomatiyası, nəqliyyat təşəbbüsləri və humanitar siyasət Azərbaycanın regional dialoq və körpü rolunu yüksəldib. Prezident cənab İlham Əliyevin irəli sürdüyü "Sülh və Ədalət uğrunda Hərəkat" ideyası isə beynəl-



xalq münasibətlərdə yeni düşüncə fəlsəfəsini formalaşdırır. Bu fəlsəfə ədalətə, qarşılıqlı hörmətə və tərəfdaşlığa əsaslanır.

### İqtisadi inkişaf, nəqliyyat və enerji təhlükəsizliyi modeli

Azərbaycan iqtisadiyyatı bu gün resurslardan asılılıqdan innovasiyaya əsaslanan yeni mərhələyə qədəm qoyub. Son illərdə aparılan islahatlar nəticəsində qeyri-neft sektoru üzrə artım dinamikası regionun ən yüksək göstəricilərindən biridir.

Eyni zamanda Zəngəzur dəhlizi, Orta dəhliz və Trans-Xəzər marşrutu kimi layihələr Azərbaycanı qlobal nəqliyyat-loqistika mərkəzinə çevirib.

Enerji sahəsində isə Azərbaycan artıq Avropanın strateji enerji tərəfdaşıdır. "Cənub qaz dəhlizi" və yeni enerji marşrutları Avropanın enerji təhlükəsizliyini təmin etməklə yanaşı, Azərbaycanın qlobal sabitliyə verdiyi töhfəni də nümayiş etdirir.

Bu model sübut edir ki, Azərbaycan iqtisadi müstəqilliyini qoruyaraq, eyni zamanda qlobal iqtisadi sabitlik və enerji təhlükəsizliyinə real töhfə verən bir dövlətdir.

### Mədəniyyətlər və dinlərarası dialoq - Mehriban Əliyevanın missiyası

Azərbaycanın beynəlxalq nüfuzunun ən mühüm dayaqlarından biri mədəniyyətlər və dinlərarası dialoq modelidir. Prezident cənab İlham Əliyevin müəyyən etdiyi strateji xətt, sülhü yalnız siyasi sənədlərlə deyil, mədəni və mənəvi dəyərlər vasitəsilə də möhkəmləndirir. Azərbaycanın çoxmillətli, çoxkonfessiyalı mühiti tolerantlıq və qarşılıqlı hörmətin dövlət siyasətinə çevrildiyi nadir nümunədir.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsləri bu modelin qlobal miqyasda tanınmasında həlledici rol oynayıb. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu dünyanın müxtəlif ölkələrində - Vatikanda, Fransada, Rusiyada, Gürcüstanda və digər dövlətlərdə - dini və mədəni abidələrin bərpasına töhfə verib.

Vatikan Apostol Kitabxanasında Azərbaycan tarixi və türkdilli irsə aid 75 əlyazmanın bərpası və rəqəmsallaşdırılması, Roma Papası ilə dialoqlar, Bakı Humanitar Forumu və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu kimi təşəbbüslər Azərbaycanın mədəniyyətlərarası diplomatiya mərkəzinə çevrildiyini sübut edir.

Mehriban xanım Əliyevanın fəaliyyəti nəticəsində Azərbaycan sülhü, tolerantlığı və qarşılıqlı anlaşmanı praktiki şəkildə təşviq edən aparıcı ölkə statusunu qazanıb.

### Azərbaycan modeli - ədalət, sabitlik və tərəqqi yolunda

Azərbaycanın yeni dünya düzənində əsas aktora çevrilməsi təsadüfi deyil. Bu, ardıcıl siyasi strategiyanın, güclü liderliyin, dayanıqlı iqtisadi modelin və humanist dəyərlərə əsaslanan dövlət idarəçiliyinin məntiqi nəticəsidir.

Bu gün Azərbaycan təkcə öz milli maraqlarını müdafiə etmir - o, eyni zamanda qlobal sistemin yenidən formalaşmasında məsuliyyətli və ədalətli aktor kimi çıxış edir.

Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə formalaşan Azərbaycan modeli XXI əsrin çağırışlarına cavab verən ədalət, sabitlik və tərəqqi modeli kimi dünyaya təqdim olunur. Bu model regionu və bütövlükdə dünyanı sülhə, əməkdaşlığa və davamlı inkişafa aparan strateji yol xəritəsidir.

***Mehriban VƏLİYEVA,***
***Milli Məclisin deputatı***

## İskander AKILBAYEV: "Qazaxıstan və Azərbaycan ənənəvi ticarətdən əlavə dəyər zəncirləri üzrə kooperasiyaya keçir"

**"Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana dövlət səfəri iki ölkə arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsində mühüm mərhələ oldu". Bu barədə AZƏRTAC-a müsahibəsində Qazaxıstan Beynəlxalq Münasibətlər Şurasının icraçı direktoru İskander Akılbayev bildirib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin səfəri göstərdi ki, ikitərəfli dialoq artıq çoxdandır ənənəvi əməkdaşlıq səviyyəsini aşıb və hazırda kompleks, uzunmüddətli və institusional xarakter alır.**

Akılbayev Qazaxıstan və Azərbaycanın əsas məqsədlər - iqtisadi əməkdaşlığın genişləndirilməsi, nəqliyyat marşrutlarının inkişaf etdirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində səylərin əlaqələndirilməsi və regional təhlükəsizliyin gücləndirilməsi üzrə ortaq mövqeyə malik olduğunu vurğulayıb.

Əməkdaşlığın iqtisadi aspektindən danışan ekspert ticarət dövriyyəsinin bir milyard dollara çatdırılması məqsədinin real olduğunu və davamlı impulsla dəstəkləndiyini qeyd edib. "2023-cü ildə ölkələrimiz arasında ticarət dövriyyəsi 15 faiz artımla 533 milyon dollara çatıb və bu ilin yanvar-avqust ayları ərzində artıq 547 milyon dollar təşkil edib ki, bu da ötən ilin analoji dövrünün səviyyəsindən çoxdur. Bu rəqəmlər sistemli müsbət impulsu nümayiş etdirir və bir milyard dollarlıq hədəfi, sadəcə, vəd deyil, həm də əldə edilə bilən meyar halına gətirir", - deyə o bildirib.

Ekspertin sözlərinə görə, bu gün iki ölkənin iqtisadi gündəliyi ənənəvi ticarətdən kənara çıxır. Birgə sənaye və investisiya layihələrinin inkişafı, logistika, neft-kimya, aqrar-sənaye kompleksi və metallurgiya sahələrində əməkdaşlıq, həmçinin rəqəmsal və innovativ təchizat zənciri idarəetmə həllərinin tətbiqini getdikcə daha vacib hala gətirir. O vurğulayıb: "Bu yanaşma



əmtəə mübadiləsindən əlavə dəyər zəncirləri üzrə əməkdaşlığa qədər yeni bir model formalaşdırır".

İ.Akılbayev həmçinin Orta dəhlizin inkişafına ayrıca diqqət yetirərək onu türk ölkələri məkanında strateji arteriya adlandırıb. O qeyd edib ki, 2024-cü ildə bu marşrut üzrə yükdaşımaların həcmi 62 faiz artaraq 4,5 milyon tona çatıb. "Bu, layihənin praktik əhəmiyyət kəsb etdiyini və Avrasiya logistikasının əsas arteriyalarından birinə çevrildiyini göstərir", - deyə o əlavə edib.

Analitikin sözlərinə görə, Qazaxıstan və Azərbaycan üçün Orta dəhliz tranzit marşrutlarının şaxələndirilməsi, infrastruktur risklərinin azaldılması, nəqliyyat siyasətinin suverenliyinin gücləndirilməsi, habelə Aktau, Kurık və Ələt limanlarının iqtisadi potensialının artırılması deməkdir. Akılbayev vurğulayıb ki, Astanada əldə edilən razılaşmalar liman əməkdaşlığının daha da dərinləşdirilməsi, logistika prosedurlarının birləşdirilməsi və tranzitin rəqəmsallaşdırılması üçün zəmin yaradır.

Əməkdaşlığın xarici siyasət konteksti barədə şərh verən Akılbayev qeyd edib ki, artan qlobal gərginlik fonunda Qazaxıstan və Azərbaycanın mövqelərinin əlaqələndirilməsi həm Mərkəzi Asiyada, həm də Cənubi Qafqazda mühüm sabitləşdirici rol oynayır. O, hər iki ölkənin ortaq mövqeyi - suverenliyə hörməti, beynəlxalq hüquqa riayət olunmasını və dialoqa diqqət yetirilməsini təşviq etdiyini vurğulayıb.

Politoloq qeyd edib: "Birgə səylərin perspektivli istiqamətlərinə BMT, İƏT, Türk Dövlətləri Təşkilatı və digər təşkilatlarda qarşılıqlı fəaliyyət, eləcə də kibertəhlükəsizlik, sülhməramlılıq, transmilli təhdidlərlə mübarizə, müdafiə və diplomatik dialoqun gücləndirilməsi sahələrində əməkdaşlıq daxildir".

İ.Akılbayev həmçinin Qazaxıstan və Azərbaycanın əsas hərəkətverici qismində çıxış etdiyi Türk Dövlətləri Təşkilatının (TDT) inkişaf etməkdə olan güc mərkəzi kimi artan rolunu qeyd edib. O, TDT daxilində nəqliyyat, "yaşıl iqtisadiyyat", enerji, təhsil və rəqəmsallaşmanın xüsusi potensiala malik olduğunu bildirib. Bu sahələrdə konkret layihələrin həyata keçirilməsi türk dünyası üçün vahid iqtisadi məkanın formalaşmasına töhfə verəcək.

Ekspert müsahibənin sonunda bildirib ki, Prezident İlham Əliyevin Astana səfəri Qazaxıstan ilə Azərbaycan arasında ikitərəfli tərəfdaşlığı konkret iqtisadi layihələr, logistika əlaqəsi və siyasi koordinasiya ilə zənginləşdirmək istiqamətində irəliləyişi nümayiş etdirib. O vurğulayıb: "Bu əməkdaşlıq situativ və ya emosional deyil, rasional, qarşılıqlı faydalı və onillik üfüqə yönəlmiş birgə fəaliyyətdir".

## Nümunəyə çevrilən sədrlik

### Azərbaycan 4 il müddətində Qoşulmama Hərəkatının fəaliyyətini yeni keyfiyyət mərhələsinə yüksəltdi

**6 il əvvəl, 2019-cu ilin oktyabr ayında Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi başladı. Respublikamız Qoşulmama Hərəkatına 4 il sədrlik etdi və bu müddət təşkilatın fəaliyyətinin daha da gücləndirilməsinə xidmət edən mühüm siyasi hadisələrlə zəngin oldu. Xüsusilə qeyd edilməlidir ki, Prezident İlham Əliyevin təşəbbüsləri nəticəsində Qoşulmama Hərəkatı qlobal proseslərin daha fəal iştirakçısına çevrildi.**

### 120 dövləti birləşdirən təşkilat

Qoşulmama Hərəkatı BMT-dən sonra dünyanın ikinci ən böyük təşkilatıdır. 120 ölkəni birləşdirən QH dünyadakı mövcud təşkilatlar arasında istər tarixi, istər üzvlərinin sayı baxımından kifayət qədər sanballı qurumdur. Azərbaycanın üzv olduğu digər təşkilatlarla müqayisədə QH-da iştirakı nisbətən yenidir. Belə ki, respublikamız QH-yə 14 il əvvəl - 2011-ci ildə tam hüquqlu üzv olmaq barədə qərar verib.

QH-yə üzvlük ölkəmizin milli maraqlarının və mənafeyinin beynəlxalq müstəvidə təmin edilməsi, müxtəlif dövlətlərlə ikitərəfli və çoxtərəfli formatda münasibətlərinin inkişaf etdirilməsi üçün yeni əlverişli imkanlar açdı. Ən əsası Azərbaycanın QH-yə üzv olması artıq həll edilmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin ədalətli mövqeyinə daha çox dəstək əldə edilməsi işinə öz töhfəsini verdi. QH-nin yekun sənədlərində bu münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həll edilməsinin və bu kontekstdə BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinin vacibliyi birmənalı şəkildə ifadə olunub.

Bir sıra dövlətlərin vaxtilə soyuq müharibə dövründə iki siyasi-hərbi qütb arasında qarşıdurmaya cəlb edilməmələri üçün 1961-ci ildə təsis edilən QH sülh, təhlükəsizlik və inkişafa dair məsələlərin müzakirə edildiyi mühüm beynəlxalq siyasi platformadır. Hərəkat daxilində razılaşdırılmış mövqe BMT Baş Assambleyası çərçivəsində qərarların qəbuluna təsir baxımından əhəmiyyətli rol oynayır. Son onilliklərdə QH-yə üzv dövlətlərin sayı 120-yə çatıb. Həmçinin təşkilatın sıralarında 18 müşahidəçi dövlət və 10 müşahidəçi beynəlxalq təşkilat təmsil olunur.

Əsas insan hüquq və azadlıqlarına, BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə, dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət etmək, böyüklüyündən asılı olmayaraq bütün irqlərin və xalqların bərabərliyini tanımaq, digər dövlətlərin daxili işlərinə qarışmaqdan çəkinmək, BMT Nizamnaməsi çərçivəsində hər bir dövlətin özünü fərdi və ya kollektiv şəkildə müdafiə etmək hüququna hörmət etmək və digər bu kimi məsələlər hərəkatın məqsəd və prinsipləridir. Hərəkata üzv dövlətlər daim bu prinsip və dəyərləri qoruyub saxlayıblar və qarşılıqlı əməkdaşlığa gətirib çıxaran fəaliyyət üçün ortaq zəmin yaratmaq bacarığı nümayiş etdiriblər. Hərəkat qoşulmama anlayışını müsbət və cəlbedici səy kimi formalaşdıra bilib. Müstəmləkələrin ləğv edilməsi və qlobal sosial inkişaf gündəliyinin yaradılması kimi XX əsrin ən mühüm nailiyyətlərindən bir çoxu hərəkatın bu günədək dünyaya verdiyi önəmli töhfələri sırasındadır.

### Respublikamıza olan yüksək beynəlxalq etimadın göstəricisi

Qoşulmama Hərəkatının XVIII Zirvə görüşünün 2019-cu ildə Prezident İlham Əliyevin sədrliyi ilə Bakıda keçirilməsi və 2019-2022-ci illər üzrə təşkilata sədrliyin Azərbaycana keçməsi ölkəmizin böyük diplomatik uğuru oldu. Dünyanın ikinci ən böyük təşkilatına sədrlik Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik və uzaqgörən siyasətin nəticəsi, respublikamıza olan yüksək beynəlxalq etimadın göstəricisi kimi tarixə düşdü. Həmin vaxt Prezident İlham Əliyev bununla bağlı demişdi: "Oktyabrın 25-də isə dünyanın ikinci böyük təşkilatı olan Qoşulmama Hərəkatına sədrlik etməyə başlamışıq. Qoşulmama Hərəkatından daha böyük təşkilat Birləşmiş Millətlər Təşkilatıdır ki, onun da sədri olmur. Orada Təhlükəsizlik Şurasının sədri olur və özü də rotasiya qaydasında. Ona görə biz bu gün işlək vəziyyətdə sədrliyi olan ən böyük beynəlxalq təşkilata sədrlik edirik və bu sədrliyi 119 ölkənin dəstəyi ilə əldə etmişik. Bu, nəyi göstərir? Onu göstərir ki, dünya ictimaiyyəti bizi dəstəkləyir, bizə inanır, bizə rəğbətlə yanaşır və bizim mövqeyimizi müdafiə edir".

Sədrliyə başladıqdan sonra Azərbaycan təşkilatın qlobal məsələlərdə iştirak səviyyəsini artırmaq üçün böyük işlər gördü. Bu istiqamətdə fəaliyyətin ən mühüm göstəricilərindən biri pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatının xətti ilə beynəlxalq həmrəyliyin təmin edilməsi idi. Qoşulmama Hərəkatının Sədri kimi bu məsələdə qlobal liderliyi öz üzərinə götürən Prezident İlham Əliyevin qətiyyəti və təşəbbüsləri bu məsələdə öz sözünü dedi. 2020-ci ilin mayında Azərbaycanın təşəbbüsü ilə hərəkatın COVID-19 ilə mübarizəyə həsr edilən liderlər səviyyəsində onlayn sammitinin keçirilməsi bu istiqamətdə atılmış ilk addımlardan biri idi. Həmin ilin dekabr ayında isə Prezident İlham Əliyevin təklifi ilə BMT Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr edilən xüsusi sessiyası keçirildi. Yetmişdən çox dövlət və hökumət başçısının çıxış etdiyi bu xüsusi sessiya pandemiya ilə mübarizə sahəsində ən qlobal tədbir oldu.

Azərbaycan peyvənd millətçiliyinə qarşı qətiyyətli mübarizə apardı. 2021-ci ilin mart ayında BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə qəbul edildi. BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində isə assambleyanın plenar iclasında hərəkatın Sədri qismində Prezident İlham Əliyevin təşəbbüsü ilə hərəkat üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT üzv dövlətlərinin mütləq əksəriyyətinin dəstəyi ilə qəbul olundu.

Bu qətnamənin qəbulu Azərbaycan Prezidentinin Sədrliyi ilə Qoşulmama Hərəkatının COVID-19 pandemiyasına qarşı mübarizədə qlobal səylərin mərkəzində dayandığını göstərdi.

Azərbaycanın sədrliyi dövründə QH-nin institusional fəaliyyətinin inkişafı istiqamətində də mühüm işlər görülüb. QH-nin prinsip, ideya və məqsədlərinin həyata keçirilməsində parlamentarilərin konstruktiv rolu nəzərə alınaraq, üzv dövlətlərin parlamentləri arasında əlaqələrin dərinləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ilin noyabr ayında Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi təsis olundu.

Bundan başqa, Azərbaycanın sədrliyi dövründə QH-nın Gənclər Təşkilatı da yaradılıb.

Azərbaycanın QH-yə sədrliyi uğurlu oldu. Uğurlu fəaliyyətinin və təşkilatın ümumi işinə verdiyi töhfələrin nəticəsi olaraq respublikamızın Qoşulmama Hərəkatına sədrliyi daha bir il uzadıldı. Beləliklə, Azərbaycanın QH-yə sədrliyi 4 il davam etdi və 2023-cü ildə başa çatdı. 4 il böyük zaman kəsiyi deyil. Lakin bu qısa dövrdə Azərbaycan Qoşulmama Hərəkatına sədrliklə bağlı yeni nümunələr yaratdı və bütün bunlar təşkilatın qlobal nüfuzunu və çəkisini artırdı. Respublikamızın nümunəyə çevrilən sədrliyi Qoşulmama Hərəkatının fəaliyyətini yeni keyfiyyət mərhələsinə yüksəltdi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Dövlətin sosial dəstəyindən heç kim kənarda qalmır

## Bu il icra olunan 5-ci sosial paket 4 milyon nəfəri əhatə edir

**Prezident İlham Əliyevin "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır" sözləri ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm irəliləyişlərdə əməli təsdiqini tapır.**
















2025-ci ilin doqquz ayını da ölkəmiz sosial sahədə mühüm uğurlarla başa vurub və bu dövrdə əmək, məşğulluq və sosial müdafiə sahələrində islahatlar, sosial müdafiə sisteminin gücləndirilməsi, aztəminatlı ailələrə və həssas kateqoriyadan olan vətəndaşlara dəstək tədbirləri davam edib. Dövlət başçısının tapşırıqları əsasında 2025-ci ildə növbəti, 2018-ci ildən isə 5-ci sosial islahat paketi icra olunub və 4 milyon vətəndaşı əhatə edən bu paket üzrə sosial ödənişlərdə yeni artımlar üçün illik əlavə 1,4 milyard manat ayrılıb.

Minimum əməkhaqqı 2025-ci ilin əvvəlindən 16 faiz artırılaraq 345 manatdan 400 manata çatdırılıb. Bir çox qurumlarda çalışanların, hərbi qulluqçuların, xüsusi rütbəsi olan əməkdaşların, dövlət qulluqçusu olmayan işçilərin maaşları, tədris məşğələlərinin aparılmasına cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri və s. artırılıb. Yanvarın 1-dən bütün pensiyalar indeksləşdirilərək 8,1 faiz artırılıb, həmçinin sığortaolunanların fərdi hesablarındakı pensiya kapitalları 2,2 faiz indeksləşdirilərək artırılıb. Fevralın 1-dən isə minimum pensiya 280 manatdan 14,3 faiz artırılaraq 320 manata çatdırılıb.

Şəhid ailələrinə, əlilliyi olan şəxslərə, müharibə, 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirmək və Çernobıl AES-də hərbi xidmət ilə əlaqədar əlilliyi olan şəxslərə, Azərbaycanın Milli qəhrəmanlarına, beşdən çox uşağı olan qadınların və müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına, valideyn himayəsindən məhrum uşaqların qəyyumlarına və digər bir sıra kateqoriyadan olanlara ödənilən müavinət və təqaüdlər iyulun 1-dən orta hesabla 15 faiz artırılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən bu ilin 9 ayında əvvəlki ilin müvafiq dövrünə nisbətən pensiya təminatı üzrə yönəldilən vəsaitin 10 faiz (467 milyon manat) çox olmaqla 5 milyard 326 milyon, dövlət büdcəsi hesabına müavinətlər üzrə yönədilən vəsaitin 7 faiz çox olmaqla 861 milyon, Prezident təqaüdləri üzrə yönəldilən vəsaitin 7 faiz çox olmaqla 551 milyon manata çatdırılması sosial təminata yönələn xərclərin bu il də artmaqda davam etdiyini göstərir.

Sosial rifahda mühüm amil olan məşğulluğun təminatı proqramları bu il də genişlənməkdə davam edib. Nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Xidməti tərəfindən bu ilin yanvar-sentyabr aylarında 371200 şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub, o cümlədən 137 min işsiz və işaxtaran şəxsin münasib işlərlə təminatı həyata keçirilib, 135 min nəfər ... 13500 nəfər isə əmək bazarının tələblərinə uyğun peşələr üzrə hazırlıq kurslarına cəlb edilib. Özünüməşğulluq proqramı çərçivəsində 15700 şəxs üçün ailə təsərrüfatları qurularaq kiçik bizneslər yaradılıb.

Məşğulluq imkanlarının artırılması, qeyri-rəsmi məşğulluğun leqallaşması üçün görülən kompleks tədbirlər nəticəsində ölkəmizdə əmək müqavilələrinin sayı 2018-ci ilə nisbətən 45 faiz artaraq 1 milyon 275 mindən 1 milyon 851 minə çatıb. İşğaldan azad olunmuş ərazilərə köçürülən sakinlərin məşğulluğunun təminatı işləri 2025-ci ilin 9 ayında da davam edib. Ümumilikdə ötən dövrdə həmin sakinlərdən artıq 6 mindən çox şəxsin məşğulluğu təmin edilib ki, bu da onlardan iqtisadi fəal olanlar arasında məşğulluq göstəricisinin 90 faizi ötməsi deməkdir.

Beynəlxalq səviyyədə də yüksək qiymətləndirilən DOST konsepsiyası əsasında dövlət sosial xidmətləri "bir pəncərə"dən, müasir və çevik, şəffaf mexanizmlərlə, vətəndaş məmnunluğuna uyğun təqdim edilməkdə davam edib, 9 ay ərzində DOST mərkəzləri, filial və məntəqələrində 658 min vətəndaşa xidmət göstərilib. Bu il həm də Qarabağ Regional DOST Mərkəzinin Kəlbəcər rayonunda DOST məntəqəsi istifadəyə verilib.

Vətən müharibəsindən sonra Prezidentin göstərişi ilə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərlə bağlı icra edilən sosial dəstək paketi üzrə işlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2025-ci ilin 9 ayında da davam etdirilib. Şəhid ailələri üçün Prezidentin aylıq təqaüdü artırılaraq 600 manatdan 700 manata çatdırılıb, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər üçün Prezidentin aylıq təqaüdü artırılıb. Bu ilin oktyabr ayında daha 100 mənzil şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim edilib. Ümumilikdə ötən dövrdə bu kateqoriyalardan olan vətəndaşlara 16 min mənzil, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 7800 avtomobil verilib.

Elektron sistemlər üzərindən tibbi-sosial ekspertiza xidmətləri davam etdirilərək 40 mindən çox şəxsə əlillik və əlilliyə görə proaktiv qaydada sosial ödənişlər təyin olunub. Nazirliyin reabilitasiya mərkəzlərində 9 ayda əlilliyi olan 103 min şəxsə reabilitasiya xidmətləri göstərilib, 11200 nəfər əlilliyi olan şəxsə 104 min reabilitasiya vasitəsi verilib. Qeyd edilən dövrdə həmçinin sosial xidmət müəssisələrində 2200 nəfərə stasionar, 397 nəfərə yarımstasionar qaydada xidmət göstərilib. Uşaq evi və ailə tipli kiçik qrup evi sosial xidmət müəssisələrində 551 nəfər uşağa, 30 şəhər və rayonda yaradılan Günərzi Qayğı Mərkəzlərində 900 nəfər uşağa sosial xidmətlər göstərilib. 4100 nəfər tənha ahıl və əlilliyi olan şəxs isə evdə (səyyar) sosial xidmətdən faydalanıb.

Son illər aparılan sosial islahatların mühüm uğurları sırasında dövlət sosial xidmətlərinin elektron texnologiyalar üzərində qurulması mühüm yer tutur. İşçi və işəgötürənlər arasında əmək müqavilələrinin "Əmək və Məşğulluq" altsistemi platformasında e-qaydada bağlanması prosesi davam edib və bu müqavilələrin artıq 96 faizi elektronlaşdırılıb.

Bunlar sosial islahatların ardıcıl xarakter aldığını, sosial rifahın dövlət siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiq edir. 9 ayın sosial sahədə qeyd edilən yekunları bu il də uğurlu addımların olduğunu göstərir.

***Rüstəm KAMAL, "Azərbaycan"***

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2025-ci ilin noyabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Kürdəmir** | Kürdəmir, Ucar, Göyçay, Ağsu, Ağdaş, Hacıqabul, Şirvan | **01** |
| 2. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **03** |
| 3. | **Baş prokuror** Kamran Əliyev | **Abşeron** | Abşeron, Zəngilan | **04** |
| 4. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Quba** | Quba, Qusar, Xaçmaz, Şabran | **06** |
| 5. | **Ədliyyə naziri** Fərid Əhmədov | **Masallı** | Masallı, Lənkəran, Astara, Lerik, Cəlilabad, Yardımlı | **07** |
| 6. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Beyləqan** | Beyləqan, İmişli, Saatlı, Sabirabad, Xocavənd | **13** |
| 7. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Gəncə** | Gəncə, Samux, Kəlbəcər | **14** |
| 8. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Zərdab** | Zərdab, Ucar, Kürdəmir | **14** |
| 9. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Sumqayıt** | Sumqayıt | **14** |
| 10. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Biləsuvar** | Biləsuvar, Salyan, Neftçala, Şirvan, Hacıqabul | **14** |
| 11. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Naftalan** | Naftalan, Goranboy, Xocalı | **14** |
| 12. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Mingəçevir** | Mingəçevir, Yevlax, Ağdaş, Göyçay, Ucar, Zərdab, Kürdəmir | **14** |
| 13. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Göygöl** | Göygöl, Daşkəsən, Goranboy, Naftalan, Xocalı | **14** |
| 14. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Bərdə** | Bərdə, Tərtər | **14** |
| 15. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Şəmkir** | Şəmkir, Gədəbəy, Ağstafa, Qazax, Tovuz | **19** |
| 16. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Yevlax** | Yevlax, Mingəçevir | **21** |
| 17. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Zərdab** | Zərdab, Ucar, Yevlax, Mingəçevir, Ağdaş, Göyçay, Kürdəmir | **21** |
| 18. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Biləsuvar** | Biləsuvar, Cəbrayıl | **24** |
| 19. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **28** |
| 20. | **Energetika naziri** Pərviz Şahbazov | **Xızı** | Xızı, Siyəzən, Şabran, Sumqayıt, Abşeron | **28** |
| 21. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | **İmişli** | İmişli, Beyləqan | **28** |
| 22. | **Mədəniyyət naziri** Adil Kərimli | **Ağdam (Quzanlı qəsəbəsi)** | Ağdam, Ağcabədi, Bərdə, Tərtər, Füzuli, Laçın | **28** |
| 23. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Astara** | Astara, Lənkəran, Lerik | **28** |
| 24. | **"Azəristiliktəchizat" ASC-nin sədri** İlham Mirzəliyev | **Bərdə** | Bərdə, Tərtər | **28** |
| 25. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | **Zaqatala** | Zaqatala, Balakən | **28** |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# "Ümid" ümidləri doğruldur

## Bu qaz-kondensat yatağında 7067 metr dərinliyi olan quyu qazılacaq

**"Ümid" yatağının cənub qanadında ilk qiymətləndirmə quyusu qazılacaq. Bunun üçün "Neptun" özüqalxan qazma qurğusunda modifikasiya işləri aparılıb. Özüqalxan üzən qazma qurğusu ilə sualtı qiymətləndirmə quyusunun qazılması SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) tarixində ilk olacaq.**

Bu quyu həm də indiyədək "Ümid"də qazılan ən dərin quyu sayılır. Onun layihə dərinliyi 7067 metr təşkil edir.

Xəzərin Azərbaycan sektorundakı karbohidrogen yataqları sırasında "Ümid"in özünəməxsus yeri var. Belə ki, bu, ölkəmizin müstəqilliyinin bərpasından sonra SOCAR-ın öz gücü ilə kəşf etdiyi ilk yataqdır.

"Ümid" qaz və kondensatla zəngindir. Yataq Bakıdan 75 kilometr cənubda, qurudan 40 kilometr məsafədə yerləşir. 2009-cu ildə strukturda dərin axtarış-kəşfiyyat qazmasına başlanmış və 2010-cu ilin noyabrında burada nəhəng qaz-kondensat yatağı kəşf edilmişdir.

"Ümid" strukturunda dayaqları suyun 58 metr dərinliyində yerləşən stasionar dəniz özülünün tikintisindən dərinliyi 6006 metr olan quyunun qazılmasına qədər bütün işlər SOCAR-ın öz gücü ilə həyata keçirilmişdir. Quyuda karotaj göstəricilərinə əsasən, məhsuldar qatın VII və V horizontlarında karbohidrogen ehtiyatları müəyyən edilmişdir. Sonradan VII horizontdan qaz axını alınmışdır. Bu da strukturun karbohidrogen ehtiyatlarını qiymətləndirməyə imkan vermişdir.

Xatırladaq ki, o zaman - 2010-cu il noyabrın 19-da Prezident İlham Əliyev "Ümid"in açılmasının böyük əhəmiyyət daşıdığını bildirərək həmin münasibətlə şirkətin rəhbərliyi ilə görüşmüşdür. Dövlət başçısı bu mühüm hadisəni belə dəyərləndirmişdir: "Uzun fasilədən sonra biz böyük neft-qaz yatağında bütün qazma və kəşfiyyat işlərini öz hesabımıza, öz gücümüzlə aparmışıq. Siz bunu yaxşı bilirsiniz ki, Xəzər dənizinin bütün yataqlarını Azərbaycan neftçiləri kəşf etmişlər. Xəzərdə 1950-ci illərdən başlayaraq, bu günə qədər Azərbaycan neftçiləri, mütəxəssisləri müstəsna rola malikdirlər. Xəzər dənizinin neft-qaz ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün ölkəmiz aparıcı rol oynamışdır. Ancaq bildiyiniz kimi, Sovet İttifaqı dağılandan sonra və ondan əvvəlki illərdə neft-qaz sənayesində tənəzzül başlamışdır. Demək olar ki, biz mövqelərimizi itirməyə başlamışdıq. 1990-cı illərin əvvəllərində Ulu Öndər Heydər Əliyev tərəfindən başlanmış yeni neft strategiyamız bu sahədə köklü dönüşün yaranmasına gətirib çıxardı. "Əsrin kontraktı"nın, "Şahdəniz" yatağı üzrə kontraktın imzalanması və digər addımlar bizə imkan verdi ki, neft-qaz sahəsində özümüzə məxsus olan mövqelərimizi bərpa edək. Biz mövqeyimizi nəinki bərpa edə, hətta onu böyük dərəcədə möhkəmləndirə bilmişik".

"Ümid"in ümumi karbohidrogen ehtiyatları 200 milyard kubmetr qaz və 40 milyon ton kondensat həcmində qiymətləndirilir. Prezident İlham Əliyev "Ümid"in ehtiyatlarının bəlkə deyiləndən daha çox olacağını da bildirmişdir: "Yadımdadı, "Azəri-Çıraq-Günəşli" yatağının ehtiyatları haqqında birinci xəbərlər göstərirdi ki, 511 milyon ton neft vardır. Hətta mən o vaxt bir az təəccüblənirdim ki, nə üçün 511, belə dəqiqliyi necə bilmək olar?! Ancaq sonra həyat özü onu göstərdi ki, "Azəri-Çıraq-Günəşli" yatağının ehtiyatları 511 milyon ton deyil, 1 milyard tondan artıqdır... Ona görə, "Ümid" yatağının ehtiyatları haqqında verilən ilkin məlumat əminəm ki, gələcəkdə görülən işlər nəticəsində, düzəlişlərlə tamamlanacaq və dünya miqyaslı yeni qaz yatağının aşkarlanması dünya qaz bazarına müsbət təsir göstərəcəkdir. Azərbaycanın imkanları daha da genişlənəcək, bizim qaz ixracımız daha da artacaqdır".

"Ümid" yatağı 2012-ci ildə sənaye istismarına daxil edilib. 10 ilə yaxın bir dövrdə (2012-2021-ci illər ərzində) yataqda qaz hasilatı 15 dəfəyə yaxın, kondensat hasilatı isə 14 dəfəyədək artıb. 2025-ci il sentyabrın 1-i tarixinə olan məlumata görə, isə "Ümid"in işlənməsinin birinci mərhələsi çərçivəsində ümumilikdə 12,3 milyard kubmetr qaz və 1,8 milyon ton kondensat hasil edilib.

"Neptun" qurğusu vasitəsilə yatağın cənub qanadında sualtı qiymətləndirmə quyusunun qazılması cari ilin oktyabr ayında planlaşdırılıb. Bu barədə qurğunun dənizə yola salınması münasibətilə keçirilən tədbirdə məlumat verilib. Qeyd edək ki, tədbirdə SOCAR, "Nobel Upstream", "Umid Babek Operating Company" Əməliyyat Şirkətinin (UBOC) Azərbaycandakı filialının, eləcə də "Caspian Oilfield Services" (COS) şirkətinin rəhbərləri və xidmət göstərən digər tərəfdaş şirkətlərin rəsmiləri iştirak ediblər.

Yeni quyuda qazma işlərinin tamamlanması və lay sınağına təhvil verilməsi müddəti təxminən 10 ay çəkəcək.

***Flora SADIQLI, "Azərbaycan"***



# Daha 16 itkin-şəhidin dəfn mərasimləri keçiriləcək




**Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası itkin-şəhidlərin dəfn mərasimlərinə dair məlumat yayıb.**

Dövlət Komissiyasından AZƏRTAC-a bildiriblər ki, oktyabrın 28-31-də daha 16 itkin-şəhid torpağa tapşırılacaq.

Oktyabrın 28-də Abdulla Novruz oğlu Quliyev Abşeron rayonunun Saray qəsəbəsi qəbiristanlığında, Lətif Qəribalı oğlu Şahhüseynov Sumqayıt şəhərində yerləşən Şəhidlər xiyabanında, Mübariz Ağahüseyn oğlu Şahmurov paytaxtın Nizami rayonunun Keşlə qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn olunacaqlar.

Oktyabrın 29-da Rəfael Sultan oğlu Abbasov, İlham İmdad oğlu Mehdiyev, Əliyar Fərrux oğlu Əliyev və Azər Ziraddin oğlu Bayramov Bakı şəhərinin Suraxanı rayonunda yerləşən "Dədə Qorqud" qəbiristanlığındakı Şəhidlər xiyabanında torpağa tapşırılacaqlar.

Oktyabrın 30-da Elçin Balaxan oğlu Quliyev paytaxtın Suraxanı rayonunda yerləşən "Dədə Qorqud" qəbiristanlığındakı Şəhidlər xiyabanında, Fikrət Abbas oğlu Əzizov paytaxtın Qaradağ rayonundakı "Sofi Həmid Piri" qəbiristanlığında, Cəmil Nizami oğlu Rəhimov Şirvan şəhərindəki Şəhidlər xiyabanında, Aydın Nəriman oğlu Nuriyev isə Göyçay rayonunda Mırtı kənd qəbiristanlığında dəfn olunacaqlar.

Oktyabrın 31-də Çingiz Usub oğlu Hüseynov və Səfər Qarsalan oğlu Qəmbərov Xocalı şəhərində yerləşən Şəhidlər xiyabanında, Mikayıl Atababa oğlu Əliyev paytaxtın Xəzər rayonunun Zirə qəsəbəsindəki yeni məzarlıqda, Teymur Qüdrət oğlu Allahverdiyev Neftçala rayonunun Qaçaqkənd kənd qəbiristanlığında, Elçin Ağamməd oğlu Heydərov İmişli rayonunun Ağamməmmədli kənd qəbiristanlığında torpağa tapşırılacaqlar.

Qeyd edək ki, onların hamısı Birinci Qarabağ müharibəsi zamanı itkin düşən hərbçilərdir.

# Döyüşə getməyə can atan müəllim - şəhid Rəşad Məmmədov



**Gəncənin fəxri olan, Vətən müharibəsi başlanan zaman əlindəki qələmi silahla dəyişən təhsilverənlərindən biri də Rəşad müəllim oldu. Şagirdlərinə hər zaman ondan əvvəl yazılan tarixi anladan müəllim bu dəfə özü tarix yazdı. Torpaqlarımızın azadlığı və ərazi bütövlüyü uğrunda canından keçən şəhid Rəşad Məmmədovun xatirəsi hər zaman doğmaları və şagirdləri tərəfindən ehtiramla anılır.**

AZƏRTAC-ın bölgə müxbiri şəhidin anası Rəfiqə Süleymanovanı ziyarət edib, Rəşadla bağlı xatirələri onun dilindən dinləyib. Rəfiqə ana deyib: "Uşaq vaxtlarından hərbiyə həvəsi var idi. Küçədə hərbçi görəndə sevinir, onlarla görüşür, arxalarınca gedirdi. Hər zaman düşmənə qarşı onda xüsusi nifrət olub. Müharibə başlayanda mən ona təkid etdim ki, evin tək övladıdır. Mənim də yalnız və yaşlı olmağıma görə müharibəyə getməsin. Amma mənimlə razılaşmadı. Dedi ki, onsuz da qayıdacağam, narahat olma. Hər zaman verdiyi sözü tuturdu, mən də rahat idim ki, mənə söz verib qayıdacaq. Amma bu səfər sözünü tutmadı".

Rəşad Məmmədov 4 sentyabr 1989-cu ildə Gəncə şəhərində anadan olub. 2006-cı ildə Gəncə şəhəri 34 nömrəli tam orta məktəbi bitirib və Gəncə Dövlət Universitetinin Tarix fakültəsinə daxil olub. 2013-cü ildə Gədəbəy rayon Qoşabulaq kəndi 1 saylı tam orta məktəbdə tarix müəllimi kimi əmək fəaliyyətinə başlayıb. 2018-ci ildə Gəncə şəhər M.S.Vazeh adına 16 saylı tam orta məktəbdə tarix müəllimi fəaliyyətinə davam edib. 2020-ci ildə Gəncə Dövlət Universitetinin "Azərbaycanın yeni və ən yeni tarixi" ixtisası üzrə magistr pilləsində təhsil almağa başlayıb.

"Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin və Azərbaycan Ordusunun sayəsində 30 illik həsrətə son qoyuldu. Mən də bir şəhid anası kimi övladımla fəxr edirəm ki, o torpaqlarımızın azadlığı və bütövlüyü uğrunda canından keçib. Üstündən 5 il keçsə də, mənim üçün elə bil hər şey dünən baş verib", - deyə şəhidin anası Rəfiqə Süleymanova deyib.

Vətən müharibəsi zamanı Rəşad Məmmədov Şuşanın azadlığı uğrunda gedən döyüş əməliyyatında iştirak edib. O, 8 noyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. 17 noyabr 2020-ci ildə Gəncə Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.



**Azərbaycan: ZƏFƏR gündəliyi**

**28 oktyabr 2020-ci il**

# *İlham ƏLİYEV:* "İşğalçılara döyüş meydanında layiqli cavab veriləcək"

**28 oktyabr**

### Xocavənd, Füzuli, Zəngilan və Qubadlı istiqamətlərində döyüşlər davam edib



Humanitar atəşkəs rejiminə riayət etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 27-si gün ərzində və 28-nə keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və cəbhəboyu zonaya yaxın yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutub.

Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmənin hücum cəhdlərinin qarşısı qətiyyətlə alınıb, o, itki verərək geri çəkilib.

### İrəvanda hərbi müqavilələlilər və polislər döyüşməkdən imtina ediblər



Ermənistandan toplanan hərbi vəzifəlilərin Azərbaycanın işğal olunmuş ərazilərinə göndərilməsi prosesi davam edib.

İşğalçı dövlətdə döyüşlərə cəlb etmək məqsədilə 2000 nəfərdən ibarət heyətin toplanması barədə tapşırığın verilməsinə baxmayaraq, cəmi 300 nəfəri toplamaq mümkün olub. Hətta bir çox hərbi müqavilələlilər və polis əməkdaşları cəbhəyə getməkdən imtina ediblər.

### Bərdəyə kasetli raket atılıb, 21 nəfər həlak olub, 70-dən çox insan yaralanıb

Ermənistan silahlı qüvvələrinin bölmələri gecə və səhər müxtəlif vaxtlarda Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən yaşayış məntəqələrimizi və bölmələrimizin mövqelərini atıcı silahlardan atəşə tutublar.

Həmçinin səhər saat 07:30, günorta 14:40 radələrində Ermənistan silahlı qüvvələri Tərtər, Bərdə və Goranboy rayonlarının ərazisini atəşə tutublar.



"Bərdə ərazisinin "Smerç" yaylım atəşli reaktiv sistemləri ilə atəşə tutulması nəticəsində 21 nəfər həlak olub, 70-dən çox insan yaralanıb.

Bununla da erməni silahlı birləşmələri tərəfindən 27-28 oktyabrda Bərdədə dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin yerləşdiyi əraziyə beynəlxalq hüquqla qadağan olunmuş kasetli bombalardan zərbə endirilməsi nəticəsində həlak olanların sayı 26 nəfərə çatıb.

### İlham ƏLİYEV: "Bərdə sakinlərinin qisası yerdə qalmayacaq"




Prezident İlham Əliyev özünün rəsmi "X" səhifəsində paylaşım edib: "Erməni silahlı qüvvələrinin raketlərlə hücumu nəticəsində Bərdədə həlak olanlara Allahdan rəhmət diləyir, ailələrinə başsağlığı verir, yaralıların şəfa tapmasını diləyirəm. Bərdə sakinlərinin qisası yerdə qalmayacaq və döyüş meydanında işğalçılara layiqli cavab veriləcək".

### Düşmən Qubadlıda silahını, texnikasını ataraq qaçıb



Ermənistan ordusu Qubadlı istiqamətində gedən döyüşlər zamanı silah və texnikasını ataraq qaçıb. Azərbaycan Müdafiə Nazirliyi düşmənin atıb qaçdığı hərbi texnika və silah-sursatların fotosunu və videogörüntüsünü yayıb.

### Azərbaycan Prezidenti xalqa daha bir müjdəli xəbər verib




Prezident İlham Əliyev özünün rəsmi "X" səhifəsində xalqa müjdəli xəbər verib: "Müzəffər Azərbaycan Ordusu Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac, Qubadlının Qiyaslı, Əbilcə, Qılıcan kəndlərini işğaldan azad etmişdir".

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

### Düşmən uydurma xəbərlər yayıb



Düşmən dezinformasiya yaymaqla törətdiyi hərbi cinayətlərdən diqqəti yayındırmağa çalışıb.

Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumatda qeyd edilib ki, Ermənistan mətbuatının Azərbaycan Ordusu tərəfindən Xankəndidə yerləşən doğum evinin guya atəşə tutulması barədə xəbəri məqsədyönlü şəkildə yayılan dezinformasiyadır.

Bu məlumatla düşmən bir qədər əvvəl Bərdə şəhərində törətdiyi çoxsaylı insan tələfatı ilə nəticələnən hərbi cinayətindən diqqəti yayındırmağa çalışıb.

### Birinci vitse-prezident Mehriban ƏLİYEVA: "Erməni qəddarlığının həddi yoxdur"



Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistan silahlı qüvvələrinin Bərdəyə növbəti dəfə raket hücumu ilə əlaqədar rəsmi "İnstaqram" səhifəsində paylaşım edib.

Paylaşımda deyilib: "Bu gün Ermənistan silahlı qüvvələri dinc Azərbaycan şəhəri Bərdəyə növbəti dəfə qəddarcasına, qeyri-insani zərbə endiriblər. Zərbə nəticəsində 21 nəfər həlak olub, 70 nəfər ciddi xəsarət alıb. Təəssüf ki, qurbanların sayı artmaqda davam edir.

Bu cür vəhşicəsinə hücumlar onu göstərir ki, ermənilərin qəddarlığının həddi yoxdur. Üstəlik, Azərbaycanın dinc mülki əhalisinə hər bir hücumu Ermənistanın ağlını itirmiş hərbi-siyasi rəhbərliyinin total mənəvi tənəzzülünə dəlalət edir.

Bu hücumların məqsədi aydındır - Azərbaycan xalqını qorxutmaq və bizim ordumuzu Ermənistan ərazisinə cavab zərbəsi endirməyə məcbur etmək. Bu, üçüncü tərəfləri münaqişəyə cəlb etməyə imkan verərdi. Lakin düşmənimiz bilməlidir ki, heç nə bizi haqq yolundan dönməyə məcbur edə bilməz. Hər hücum bizi daha da güclü edir və işğal olunmuş ərazilərimizin erməni təcavüzkarlardan azad edilməsi kimi müqəddəs missiyanı başa çatdırmağın zəruri olmasına inandırır. Həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir və yaralananların tezliklə sağalmalarını arzulayıram.

Azərbaycan Ordusu düşməni döyüş meydanında sıxışdırdığı bu günlərdə biz həmrəyliyimizi qoruyub saxlamalı və Prezidentimizin ətrafında möhkəm birləşməliyik.

Yalnız möhkəm yumruq kimi birləşməklə ədalətin zəfər çalmasına nail olacağıq, ona görə ki, Qarabağ Azərbaycandır!

Uca Tanrı Vətənimizi və Azərbaycan xalqını qorusun!"

### Prezident İlham ƏLİYEV: "Ordumuz döyüş meydanında üstünlüyünü sübut etdi"



Prezident İlham Əliyev Rusiyanın "İnterfaks" Agentliyinə müsahibə verib. Azərbaycan Ordusunun uğurlu əməliyyatlarından danışan dövlət başçısı deyib ki, ordumuz döyüş meydanında özünün üstünlüyünü sübut etdi. İşğal edilmiş ərazilərin xeyli hissəsi bu bir ay ərzində azad olundu. Bu göstərir ki, Azərbaycan Ordusunun dünyada ən yaxşı döyüş qabiliyyətinə malik ordulardan biri hesab edilməsi əbəs deyildi.

Prezident bir daha əməliyyatların dayandırılması məsələsinə toxunub: "Biz Ermənistan tərəfindən onların yüksək rəhbərliyinin şəxsində öhdəlik almalıyıq ki, qoşunları işğal olunmuş ərazilərdən çıxaracaqlar. Hələlik biz bunu eşitməmişik. Erməni rəhbərliyindən bu cür öhdəlik alınandan və bu, ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən təsdiq ediləndən dərhal sonra biz hərbi əməliyyatları dayandırmağa hazırıq".

### Düşmən bütün istiqamətlərdəki döyüş meydanından qaçıb



Gün ərzində mülki infrastrukturu və dinc əhalini atəşə tutan düşmənin canlı qüvvəsi bölmələrimizin sərrast atəşi ilə məhv edilib. Bölmələrimizin dəqiq atəş zərbələrinə tab gətirə bilməyən düşmən döyüş meydanından qaçıb.

Humanitar atəşkəs rejimini kobudcasına pozaraq şəhər və rayonlarımıza atəş açan düşmənin qüvvə və vasitələrini Azərbaycan Ordusunun bölmələri darmadağın ediblər.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# İqtisadiyyat və sosial həyat

## 4 yaşlı Füzuli Beynəlxalq Hava Limanı Zəfərin ilk quruculuq səhifələrindəndir



**4 il öncə bu torpaqda böyük bir səssizlik vardı. Hər tərəf sükutla örtülmüşdü, yollar az da olsa hələ yad ayaqların izini daşıyır, havada düşmən nəfəsi duyulurdu. Hər baxışda bir həsrət, hər nəfəsdə bir ağrı gizlənmişdi. Amma tarix elə bir an yetişdirdi ki, torpağın qəlbi yenidən döyündü, dağlar dərindən nəfəs aldı.**

2021-ci il oktyabrın 26-da Füzuli səmasında illərin həsrəti, qüruru və qələbə ruhu bir araya gəldi. Məhz həmin gün Azərbaycan tarixində yeni bir səhifə açıldı - Füzuli Beynəlxalq Hava Limanının təntənəli açılışı oldu. Bu mühüm hadisə bir nəqliyyat layihəsinin reallaşmasından daha çox, azad edilmiş torpaqlarda yeni həyatın doğuşu, bərpası və inkişafı idi. Açılış mərasimində Prezident İlham Əliyev və Türkiyə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan iştirak etdilər. İki qardaş ölkə liderinin Füzuli Hava Limanını birlikdə açması Azərbaycan-Türkiyə qardaşlığının möhkəmliyini və regionda sülh prosesinə yönəlmiş ortaq iradəni nümayiş etdirirdi.

İnşası cəmi 8 aya başa çatan Füzuli Beynəlxalq Hava Limanı dünyanın nadir tikinti rekordlarından biri kimi tarixə düşən və düşməndən azad edilmiş ərazilərdə boy göstərən ilk böyük nəqliyyat layihəsidir. Müasir standartlara cavab verən aeroport Qarabağın "hava qapısı" adlanır. Buradan həm daxili, həm də beynəlxalq reyslərin həyata keçirilməsi mümkündür ki, bu da regionun iqtisadi və sosial inkişafında mühüm rol oynayır, turizmə qapı açır.

Dörd il öncə Füzuli səmasında havalanan ilk təyyarə gələcəyə uçuşun, dirçəlişin və qayıdışın timsalına çevrildi. Bu hadisə həm də xalqın iradəsinin, dövlətin gücünün və qələbə ruhunun təcəssümü idi. Hava limanı azad edilmiş torpaqlara yeni nəfəs, yeni ümid gətirdi, Qarabağda və Şərqi Zəngəzurda yaşayışın bərpasını, iqtisadiyyatın canlanmasını və insanların doğma yurda qayıdışının möhkəm təməlini qoydu. Bu aeroport Zəfər yolunun qapısı və Şuşa şəhərinə gedən əsas nəqliyyat qovşaqlarının açarıdır.

Hava limanının uzunluğu 3000, eni 60 metr olan uçuş-enmə zolağı beynəlxalq standartlara tam uyğundur. Müasir infrastrukturla təchiz olunan terminal binası saatda 200 sərnişinə xidmət etmək imkanına malikdir. Bu, təkcə texniki göstərici deyil, həm də sərnişinlər üçün komfort və etibarlığın zəmanətidir. Aeroport avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə qülləsi ICAO və IATA standartları ilə müvafiq şəkildə uçuşların idarə olunmasını təmin edir.

Hava limanında baqaj konveyerləri, qeydiyyat sistemi, VIP zallar, mağazalar, restoranlar və digər zəruri məntəqələr mövcuddur. Hazırda Füzuli aeroportu bölgənin iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynayan nəqliyyat-logistik mərkəzə çevrilməkdədir. Ötən ilin iyul ayından etibarən Azərbaycanın milli aviadaşıyıcısı AZAL-ın Qarabağa müntəzəm reyslərinin başlanması ilə regionun Azərbaycan və dünya ilə sıx inteqrasiya edilməsi istiqamətində yeni bir mərhələ başlanıb.

Bu sadalananlar Füzuli Beynəlxalq Hava Limanının qısa zamanda regionun nəqliyyat infrastrukturunda strateji əhəmiyyətə malik bir mərkəzə çevrildiyini göstərir. Hava limanı həm humanitar yardımların, həm də bərpa işləri üçün materialların çatdırılmasını təmin edir. Onu da xüsusi qeyd edək ki, aeroport təkcə daxili uçuşların deyil, beynəlxalq səviyyəli tədbirlərin logistik təminatında da mühüm rol oynayır.

Bunun nümunəsi kimi ötən ilin iyul ayında Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünü misal çəkə bilərik. Liman tədbir çərçivəsində 40-dan çox reys qəbul edib və yola salıb. Onların sırasında 10-dan artıq təyyarə növü var idi. "Gulfstream V", "Falcon 7X", "Airbus 319, 320", "Embraer 190", geniş gövdəli "İL-96", "Airbus 330, 340" və "Boeing 787" kimi hava gəmilərinin Füzuli aeroportuna uğurlu enişi onun müxtəlif tipli təyyarələri qəbul etmək qabiliyyətini, müasir texnoloji səviyyəsini və beynəlxalq standartlara uyğunluğunu təsdiqləyir.

Hər eniş və qalxış bu hava limanında yenidən qurulan Qarabağın səmalarına ümid, güvən və inkişaf gətirir. Füzuli səmasında uçan hər təyyarə bu torpaqlarda sülhün, tərəqqinin və həyatın bərpasını özündə əks etdirir. Buradan Şuşaya, Xankəndiyə, Hadruta gedən yollar açılır, yeni həyat axını başlayır. İndi bu limanla Zəngilan və Laçın hava limanları arasında əlaqə yaradılıb. Nəticədə Qarabağ regionu vahid nəqliyyat sistemi ilə dünyaya bağlanıb.

Uzaqdan baxanda bu 4 yaşlı aeroport sadəcə bir hava limanı kimi görünür, amma zolaqlarında Zəfərin qüruru, şəhidlərin ruhu, millətin birliyi yaşayır. Hər uçuş zolağı qayıdış arzusu və ana duası ilə doludur. Hər enişdə isə bir yurd həsrəti gerçəkləşir. Füzuli səmasında indi sükut yoxdur. Səma təyyarələrin səsi və azadlığın nəğməsi ilə lərzəyə gəlir.

4 il çox deyil, amma bu illər içində Füzuli hava limanı bir tarix kitabına çevrildi. O kitabda dağıntılardan doğan dirçəliş, göz yaşlarından yoğrulan sevinc, müharibədən sonra gələn sülh yazılıb. Və bu tarix davam edir. Çünki Füzuli səmasında artıq yalnız təyyarələr deyil, ümidlər uçur.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Vətəndaşlar "Milli Proqram" çərçivəsində 69 min beynəlxalq sertifikat alıblar

**"4Sİ Akademiyası" çərçivəsində "Milli Proqram"da indiyədək 37500 nəfər "Coursera" platformasındakı təlimlərdən yararlanıb. İstifadəçilər 193 mindən çox təlimə müraciət edib və 69 min təlimi uğurla başa vurublar.**

İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) ilə Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondunun birgə əməkdaşlığı ilə həyata keçirilən "4Sİ Akademiyası" çərçivəsində "Milli Proqram" üzrə iştirakçıların sayı artmaqda davam edir.

Bu ilin aprel ayından başlayan "Milli Proqram" çərçivəsində bu günədək 37 500 nəfər "Coursera" onlayn təhsil platformasında təqdim olunan təlimlərdən ödənişsiz yararlanıb. Təlim iştirakçılarının 29 faizini universitet tələbələri və ali təhsil müəssisələrinin əməkdaşları, 12 faizini isə akademik sferada (orta məktəblər, elmi-tədqiqat institutları və s.) fəaliyyət göstərənlər təşkil edir. 11 mindən çox tələbə və universitet əməkdaşı "Coursera" onlayn tədris platformasındakı 67 mindən çox təlimə (ümumi müraciətlərin 1/3-i) müraciət edib.

"Milli Proqram" ölkədə rəqəmsal bacarıqların, innovasiya yönümlü təfəkkürün və yeni texnologiyalara inteqrasiyanın təşviqinə xidmət edir. Layihə çərçivəsində müxtəlif ixtisaslar üzrə müasir biliklərin əldə olunması və əmək bazarının tələblərinə uyğun kadr potensialının gücləndirilməsi məqsədilə genişmiqyaslı onlayn təlim imkanları yaradılıb. Proqram çərçivəsində bu günədək istifadəçilər 193 mindən çox təlimə müraciət edib və 69 min təlimi uğurla başa vurublar. İştirakçılar daha çox süni intellekt, data elmi, layihələrin idarə olunması, informasiya texnologiyaları və yumşaq bacarıqlar üzrə təlimlərə üstünlük veriblər.

## Azərbaycan Çin şirkəti ilə dənizdə və quruda "yaşıl enerji"nin istehsalı və ixracını müzakirə edib

**Azərbaycan Çin şirkəti ilə "yaşıl enerji" sahəsi üzrə əməkdaşlığın mövcud vəziyyətini və növbəti addımları müzakirə edib.**

Trend xəbər verir ki, bu barədə Azərbaycanın energetika naziri Pərviz Şahbazov "X" hesabında paylaşım edib.

"China Energy Engineering Corporation Limited" şirkətinin vitse-prezidenti Lu Xu ilə enerji sahəsində hərtərəfli strateji tərəfdaşlığımız çərçivəsində prioritet layihələrin icrasına dair səmərəli görüş keçirdik.

Dənizdə və quruda külək və günəş enerjisinin istehsalı və ixracı, ötürücü şəbəkələrin inkişafı, "Yaşıl Enerji|nin İnkişafı üzrə Birgə Tədqiqat Mərkəzi"nin yaradılması, eləcə də ümumi gücü 760 MVt olan günəş-elektrik stansiyalarının avadanlıqlarla təchizatı istiqamətində əməkdaşlığın mövcud vəziyyətini və növbəti addımları müzakirə etdik", - paylaşımda qeyd edilib.

## BP Xəzərə daha bir müasir texnologiya gətirir

**"Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının işlənməsi layihəsinin operatoru olaraq BP şirkəti dünya neft və qaz sənayesinin ən müasir texnologiyalarını Xəzər regionuna gətirməkdə davam edir. Bu səylərdə əsas məqsədlərdən biri bu dünya səviyyəli yataqlar blokunda hasilatı gücləndirmək, laylardan maksimum neftverməyə nail olmaq və yatağın istismar müddətini uzatmaqdır.**



Bu məqsədə uyğun olaraq BP "Dərinsulu Günəşli" ərazisində bir çox quyuda sualtı müdaxilə əməliyyatlarına başlamağa hazırlaşır. Bu işlər üçün BP-nin Xəzərdəki əməliyyatlarında ilk dəfə olaraq quyuya dikborusuz yüngül müdaxilə (QDYM) texnologiyası tətbiq ediləcək. Blue Ocean dikborusuz müdaxilə sistemi (BORIS) kimi tanınan bu texnologiya Oceaneering International şirkətinin sualtı mexaniki tros vasitəsilə quyuya müdaxilə sistemidir. Bu innovativ yanaşma təzyiqin idarə olunması və hasilat səviyyəsinin gücləndirilməsi imkanlarının səmərəli tədqiqinə və erkən aşkarlanmasına imkan verəcək. Bununla da yataqların bundan sonrakı potensialının üzə çıxarılmasına kömək edəcək.

Yarımdalma qazma qurğularından asılılığı azaltmaq və sualtı müdaxilələrin daha erkən həyata keçirilməsi üçün bu proqram Xəzərdə ilk dəfə tətbiq olunan daha bir yenilikdən istifadə edəcək. Bu, gəmidən icra olunan müdaxilə üsuludur. Yəni QDYM sistemi gəmi üzərinə inteqrasiya ediləcək və bütün quyu müdaxilələri birbaşa həmin gəmidən icra olunacaq. "Xankəndi" sualtı tikinti gəmisi bu əməliyyatlar üçün ən uyğun texniki baza kimi seçilib.

BP şirkəti bu proqramın təhlükəsiz və səmərəli icrası üçün artıq iki əsas müqavilə imzalayıb. Bunlardan biri QDYM xidmətləri üçün Oceaneering International şirkəti ilə çoxmilyonluq müqavilədir. Bu müqaviləyə BORIS sisteminin gəmidə yerləşdirilməsi, yığılması və sınaqdan keçirilməsi, həmçinin layihənin idarə olunması, mühəndislik işləri, sistemlərin inteqrasiyası və BORIS-ın tətbiqi üçün lazımlı avadanlıqların, materialların və inşa işlərinin təmin edilməsi daxildir.

QYM (Quyuya Yüngül Müdaxilə) xidmətləri üçün çoxmilyonluq müqavilə isə SLB şirkəti ilə imzalanıb. Bu müqaviləyə ağır yüklərin qaldırılması işlərinin ləğvi və "qırmızı zona"nın idarə olunmasını sadələşdirmək üçün kombinə edilmiş troslu-təkxətli (Combo) qurğunun təminatı daxildir. Müqavilə həmçinin dövretmə və təzyiq sınaqları üçün yüksəktəzyiqli nasos işlərinə qadir təzyiq-maye boşaltma avadanlığı paketi, eləcə də bu işlər üçün tələb olunan çoxprofilli işçi heyətlərin təminatını nəzərdə tutur.

Bu proqram çərçivəsində dəniz əməliyyatlarının cari ilin sonunadək başlanacağı və 2026-cı ilin axırınadək yekunlaşacağı gözlənilir.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionunda quyu əməliyyatları üzrə vitse-prezidenti Rassel Morris deyir: "Hesab edirik ki, QDYM texnologiyası, xüsusilə də "Dərinsulu Günəşli" ərazisindəki quyulara BORIS sisteminin tətbiqi bizə sualtı suvurma quyularını daha yaxından izləməyə, lay təzyiqinin idarə olunması və hasilatın gücləndirilməsi üçün ən perspektivli imkanları müəyyən etməyə imkan verəcək. BP-nin qlobal əməliyyatlarında həyata keçirdiyimiz oxşar proqramlardakı təcrübəmizdən istifadə ilə Xəzərdə ilk dəfə tətbiq edəcəyimiz gəmidən aparılacaq quyu müdaxilələrindən çox faydalanacağımıza inanırıq. Bu, qazma qurğularından asılılığımızı azaldacaq və imkanların erkən aşkarlanmasını mümkün edəcək. Bütün bunlar bizim sualtı əməliyyatlar aparmaq qabiliyyətimizi və imkanlarımızı xeyli artırır və Xəzərdə sualtı quyuların idarə olunması işlərində yeni səhifə açır".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## SOCAR ilə "Uzbekneftegaz" arasında süni intellektin tətbiqi sahəsində Anlaşma Memorandumu imzalanıb



**SOCAR ilə Özbəkistanın "Uzbekneftegaz" Səhmdar Cəmiyyəti arasında neft-qaz sənayesində süni intellektin tətbiq olunması sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə dair Anlaşma Memorandumu imzalanıb.**

SOCAR-dan bildirilib ki, əməkdaşlıq çərçivəsində SOCAR-ın hazırladığı süni intellekt həllərinin alınması, təcrübə və mütəxəssis mübadiləsi, SOCAR tərəfindən rəqəmsal transformasiya, istehsal proseslərinin rəqəmsallaşdırılması və səmərəliliyinin artırılması, həmçinin informasiya texnologiyaları sahəsində konsultasiya xidmətlərinin göstərilməsini nəzərdə tutulur.

Memorandum çərçivəsində tərəflər qarışdırma parametrlərinin optimallaşdırılması ilə dizel yanacağı istehsalının artırılmasına yönələn süni intellekt əsaslı layihələr, əməliyyat qruplarının işini dəstəkləyən böyük dil modelini (Large Language Model - LLM), həmçinin geoloji və enerji məlumatlarının təhlilinin avtomatlaşdırılmasına yönələn "Seismic AI" (seysmik süni intellekt) və ENOM həllərinin hazırlanmasını planlaşdırır. Bundan əlavə, SOCAR şirkətin bütün biznes proseslərini birləşdirən vahid məlumat arxitekturasının yaradılması, eləcə də seysmik və qazma məlumatlarının tam rəqəmsallaşdırılması və vizuallaşdırılmasını təmin edən ODLAR və "Daily Drilling" layihələrində konsultasiya dəstəyi göstərəcək.

SOCAR və "Uzbekneftegaz" Səhmdar Cəmiyyəti arasında imzalanmış Anlaşma Memorandumu neft və qaz sənayesində süni intellekt texnologiyalarının tətbiqini inkişaf etdirəcək. Bu əməkdaşlıq enerji sektorunda innovativ yanaşmaların tətbiqini təşviq etməklə yanaşı, iki ölkənin iqtisadi əməkdaşlığını və texnoloji tərəfdaşlığını daha da möhkəmləndirəcək.

## ƏMAS-da yeni funksionallıq

### Yalnız əmək müqaviləsini deyil, digər sənədləri də e-qaydada imzalamaq olar

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Əmək və Məşğulluq" altsistemində (ƏMAS) yeni funksionallıq yaradılıb.**

Artıq işəgötürənlər əmək münasibətləri çərçivəsində yalnız əmək müqaviləsini deyil, həmçinin digər hüquqi sənədləri də sistem üzərindən rəqəmsal qaydada imzalaya biləcəklər.

Bu yenilik Əmək Məcəlləsinin 200-cü maddəsinə əsaslanır. Həmin maddəyə görə, işəgötürən iş prosesində ona etibar edilən əmlak və digər maddi sərvətlərlə bağlı məsuliyyət daşıyan, bu sərvətlərin saxlanması, emalı, satışı, daşınması və istifadəsi kimi əməliyyatlarda iştirak edən 18 yaşına çatmış işçilərlə tam maddi məsuliyyət haqqında yazılı müqavilə bağlaya bilər.

Yeni funksionallıq sayəsində bu kimi sənədlərin (tam maddi məsuliyyət müqaviləsinin, informasiya texnologiyaları üzrə təhlükəsizlik müqaviləsinin, öhdəlik müqaviləsinin və digər əlavə sənədlərin) elektron imzalanması mümkündür.

Bu dəyişiklik işəgötürən və işçi arasında sənəd dövriyyəsini asanlaşdırmaqla yanaşı, əmək münasibətlərində rəqəmsallaşmanın daha da genişlənməsinə, şəffaflıq və hüquqi məsuliyyətin təmin olunmasına xidmət edir.





# Mədəniyyət





Arxivlərimiz

# Tarixi yaddaşımıza çevrilmiş məkan

**Tariximizin əhəmiyyətli səhifələrinin qorunub saxlandığı məkandayıq. Burada toplanmış sənədlər XIX yüzillikdən bu günümüzədək ədəbiyyat və incəsənətimizin keçdiyi yola bələdçidir. Yazıçı, şair, dramaturq və ədəbiyyatşünaslarımızın Salman Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivində (ARDƏİA) olan şəxsi fondlarındakı sənədləri Azərbaycan ədəbiyyatının təşəkkülü və inkişafını əks etdirir.**

## Maraqlı olduğu qədər də çətin və məsuliyyətli peşə

Dövlət Ədəbiyyat və İncəsənət Arxivi Azərbaycan SSR Nazirlər Sovetinin 1965-ci il 17 iyul tarixli 496 nömrəli qərarına əsasən yaradılıb. 1966-cı ilin yanvarından fəaliyyət göstərir. İlk adı Azərbaycan SSR Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivi olub.

Bu il 60 yaşı tamam olan arxiv tarixi bir yol qət edib. Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin direktoru Könül Nəsibova ilə söhbətimizə də bu çətin və şərəfli tarixi vərəqləməklə başlayırıq. Arxivin direktoru deyir: "Ümummilli Lider Heydər Əliyevin 13 sentyabr 1996-cı il tarixli sərəncamına əsasən, Azərbaycan ədəbiyyatı qarşısında xidmətləri nəzərə alınaraq, görkəmli ədəbiyyatşünas, mətnşünas Salman Mümtazın adı verilib".

Könül Nəsibova bildirir ki, arxiv fəaliyyətə başladığı vaxtlardan indiyədək Azərbaycan ədəbiyyat və incəsənət xadimlərinin, bu sahədəki dövlət idarələrinin və yaradıcılıq təşkilatlarının sənədlərini toplayır, onların mühafizəsi və istifadəsi işini təşkil edir: "Salman Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivi Azərbaycan Respublikası Milli Arxiv İdarəsi sistemi daxilində altı respublika tabeli arxiv təşkilatlarından biridir. Arxivdə "Milli Arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, ölkənin mədəni həyatı üçün xüsusi əhəmiyyət kəsb edən idarə, müəssisə və təşkilatlarının, görkəmli elm və mədəniyyət xadimlərinin Milli Arxiv fondunun tərkibinə daxil olan sənədlərinin daimi mühafizəsini həyata keçirir. Bura, eyni zamanda şəxsi mənşəli fondları zənginləşdirən avtoqrafla yazılmış çap məhsulları - kitablar, dərgilər və avtoreferatlar daxildir. Bundan əlavə, Ədəbiyyat və İncəsənət Arxivi Milli Arxiv fonduna daxil olan sənədlərin komplektləşdirilməsini, uçotunu, elmi-məlumat aparatı sisteminin təkmilləşdirilməsi və elektronlaşdırılmasını, arxiv sənədlərinin istifadəsi və publikasiyasını həyata keçirir".

Arxivin saxlancları ilə tanış oluruq. Könül Nəsibova diqqətimizə çatdırır ki, arxiv işçisi olmaq maraqlılığı ilə yanaşı, çətin və məsuliyyətlidir. Ancaq tarixi yaddaşımıza çevrilmiş bu məkana ürəkdən bağlandınsa, ayrıla bilmirsən: "Mən əvvəllər də ixtisasım üzrə işləmişəm. 1999-cu ilin dekabrından isə bu arxivdə şöbə müdiri kimi işə başlamışam. O zaman Salman Mümtaz adına Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin direktoru Maarif Teymur idi. Məni də bu arxivdə işləməyə Maarf müəllim dəvət etmişdi. O vaxtlar arxiv bir qədər təmirsiz idi. Problemlərimiz az deyildi. Ancaq kollektiv Maarif Teymurun rəhbərliyi ilə həvəslə işləyirdi. Mən də ilk günlərdən burada ürəklə çalışmağa başladım. Sanki mühafizəxanalarında qorunan sənədlər, burada yaşayan ruhlar məni bu arxivdən ayrılmağa qoymadı. Bir müddət sonra Ədəbiyyat və İncəsənət Arxivində direktor müavini oldum. 2016-cı ildə Maarif müəllim dünyasını dəyişdikdən sonra arxivin direktoru vəzifəsini daşıyıram".

Arxivin saxlanclarına baxa-baxa Könül Nəsibovadan öyrənirik ki, burada toplanmış sənədlərin mühafizəsi qaydalar üzrə həyata keçirilir. İlk növbədə onların mühafizəsi üçün şəraitin yaradılması, temperatur, rütubət rejiminə əməl olunması, sənədlərin itməsinin, zədələnməsinin, tozdan çirklənməsinin qarşısı alınması məqsədilə tədbirlər görülür.



## Arxivin komplektləşdirilməsi və sənədlərdən istifadə qaydaları

Könül Nəsibova bildirir ki, öncə komplektləşdirmə mənbəyi olan idarə və təşkilatların və yaxud şəxslərin siyahıları razılaşdırılır: "İdarə və yaradıcı təşkilatların sənədləri arxivə qaydaya salınmış halda, elmi-məlumat aparatı ilə birlikdə qəbul edilir. Sənədlər Arxivə Ekspert Yoxlama Komissiyasının (EYK) təsdiq etdiyi və yaxud razılaşdırılmış siyahılar üzrə qəbul edilir. Şəxsi mənşəli sənədlərin qəbulu isə pərakəndə halda götürülür və ilkin ekspertizadan keçirildikdən sonra qəbul edilir. Yeni fond olduqda EYK-nin protokoluna əsasən, fond açılır, növbəti dəfə daxil olursa siyahı nömrəsi ilə qeyd edilir. Sənədlər elmi-texniki cəhətdən qaydaya salınır. İlk növbədə fondun təşkili tarixi, vəziyyəti, sənədlərin sistemləşdirilməsi, sənədlərin elmi-tarixi əhəmiyyətini, saxlama müddətini təyin etmək üçün dəyərinin ekspertizası, sənədlərin xronoloji ardıcıllıqla sistemləşdirməklə saxlama vahidinin formalaşdırılması, saxlama vahidlərinə daxil olmuş vərəqlərin nömrələnməsi, təsdiqedici vərəqlərin yazılması, sərlövhənin tərtibi, daxili siyahının hazırlanması və üz cildinin təsviri, arxiv siyahısının hazırlanması və onun üz cildinin tərtibi, saxlama vahidlərinə arxiv şifrinin qoyulması və qutularda mühafizəxana daxilində yerləşdirilməsi həyata keçirilir, sənədlərin elmi-texniki cəhətdən qaydaya salınmasının nəticələri barədə akt tərtib edilir".



Arxivin direktoru sənədlərdən istifadə qaydaları barədə də məlumat verdi. Bildirdi ki, arxiv sənədlərindən istifadə qaydaları Azərbaycan Respublikasının Konstitusiyasına, "Milli Arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununa, "İnformasiya əldə etmək" haqqında Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına uyğun olaraq, Azərbaycan Respublikası Milli Arxiv İdarəsi tərəfindən müəyyən edilir: "Sorğulara uyğun arxiv öz təşəbbüsü ilə maraqlananların müvafiq məlumat ala bilmələrini təşkil edir. Sənədlər tədqiqat məqsədilə oxu zalında istifadəçilərə verilir, sərgi vasitəsilə (elektron qaydada) nümayiş etdirilir. Kütləvi informasiya vasitələrində sənədlərdən istifadə olunur. Arxiv fondun sənədlərindən istifadəyə dair lazımi şəraiti yaradır".

Arxivdə Azərbaycanın bir çox görkəmli ədəbiyyat və incəsənət xadimlərinin - Hüseyn Cavid, Əliağa Vahid, Mir Cəlal Paşayev, Mirvarid Dilbazi, Əziz Şərif, Abbas Zamanov, Nəbi Xəzri, Mirzə İbrahimov, Süleyman Rəhimov, Süleyman Rüstəm, İsa Muğanna, Mehdi Hüseyn, Ceyhun Hacıbəyli, Mirzağa Əliyev, İsmayıl Osmanlı, Leyla Bədirbəyli, Əli Zeynalov, Bəşir Səfəroğlu, Nəcibə Məlikova, Sona Hacıyeva, Nəsibə Zeynalova, Fatma Qədri, Mehdi Məmmədov, Aleksandr Tuqanov, Ağasadıq Gəraybəyli, Tofiq Quliyev, Niyazi, Əfrasiyab Bədəlbəyli, Xan Şuşinski, Şövkət Ələkbərova, Sara Qədimova, Rübabə Muradova, Cahangir Cahangirov, Ağarza Quliyev, Lətif Səfərov, Həsən Seyidbəyli, Hüseyn Seyidzadə, Səttar Bəhlulzadə, Mikayıl Useynov, Kazım Kazımzadə, Fuad Əbdürrəhmanov, Maral Rəhmanzadə, Bədurə Əfqanlı və başqalarının sənədləri saxlanılmaqdadır.

"Sənədlər tarix etibarı ilə XIX əsrin ortalarından başlayaraq, bu günümüzə qədər dövrü əhatə edir. Arxivdə şəxsi mənşəli fondlarda Mirzə Fətəli Axundzadə, Mirzə Ələkbər Sabir, Əhmədbəy Ağaoğlu, Əlibəy Hüseynzadə, Cəlil Məmmədquluzadə, Həsən bəy Zərdabi, Üzeyir bəy Hacıbəyli, Mikayıl Müşfiq və digər görkəmli şəxslər haqqında maraqlı əlyazmalar, məktublar, fotoşəkillər, onların həyat və yaradıcılıqları haqqında sənədlər də mövcuddur. Bu mənada, ədəbiyyatşünas alim, filologiya elmləri doktoru Əziz Şərifin (fond №255) şəxsi fondu xüsusi əhəmiyyət kəsb etməkdədir. Burada 1910-1987-ci illərdə yazdığı gündəlikləri, xatirələri, atası Məşədi Qurbanəlinin Cəlil Məmmədquluzadə ilə, Əziz Şərifin Mehdi Hüseyn, Cəlil Məmmədquluzadə, Mirzə İbrahimov, Süleyman Rəhimov, Tağı Şahbazi və digər görkəmli şəxslərlə yazışmaları, eləcə də "Molla Nəsrəddin", "Füyuzat", "Gələcək" və başqa nadir qəzet və jurnallar, bir-birindən dəyərli kitablar saxlanılır", - arxivin direktoru deyir.

## Arxivin fondları daha da zənginləşdirilir

Arxiv sənədlərinin elektron daşıyıcılara köçürülməsi, elektron arxiv məlumat bazasının yaradılması, kompüter avadanlığından istifadəsi, əməkdaşların bu sahədə biliklərinin artırılması, istifadəçilərin elektron arxiv məlumatlarına çıxışının təmin olunmasını özündə birləşdirir. Könül Nəsibova məlumat verir ki, elektron arxiv məlumat bazasının yaradılması, həm də rəqəmsallaşdırılmış arxiv sənədi-sənədlərin etibarlı mühafizəsini, sənədlərdən istifadənin səmərəli təşkilini, universal informasiya axtarış sisteminin yaradılmasını təmin edir. Milli Arxiv fondunun rəqəmsallaşdırılması, vahid elektron arxiv məlumat sisteminin yaradılması məqsədilə həyata keçirilir. Bu sahədə normativ hüquqi sənədlərin layihələri hazırlanmışdır. Arxiv siyahılarının və sənədlərin elektron daşıyıcılara köçürülməsi işi davamlı olaraq yerinə yetirilir. Elektron sənəd dövriyyəsi sistemi (EAMS) ilə arxiv arayışlarının verilməsi prosesi həyata keçirilir. EAS, EAMS, ESDS, EHS-in və digər informasiya sistemləri vasitəsilə arxiv sənədlərinin sistemli işlərinə nəzarət, fəaliyyətinin və daim yenilənməsinin təmin olunması, sistemlər üzərində müvafiq texniki yenilənmələr həyata keçirilir.

"Azərbaycan Respublikasının Konstitusiyasının 40-cı maddəsinin ikinci hissəsinə əsasən, "hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır", - deyə arxivin direktoru vurğulayır. Diqqətə çatdırır ki, Azərbaycanın mədəni irsinin bir hissəsi olan arxiv sənədləri keçmişimiz ilə bağlı məlumatların əldə olunması işində ən vacib saxlanc mənbəyidir.

Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi bu gün də müntəzəm olaraq ədəbiyyat və incəsənət xadimlərinin, mədəniyyət sahəsindəki dövlət idarələri və yaradıcı təşkilatların sənədlərini dövlət mühafizəsinə qəbul edərək öz fondlarını daha da zənginləşdirir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Ədəbi simalarımız

# Nəğməkar şair, etibarlı dost, səmimi insan

**Çox böyük hikmət sahibləri müdrikcəsinə deyiblər ki, şairlərin, yaradıcı insanların yaşı olmur. Çünki onlar ölümlərindən sonra əsərlərində yaşayırlar, insanların qəlbində, ürəyində məskən salırlar, bütün dövrlərdə yad edilirlər, xatırlanırlar, unudulmurlar. Sanki ölümlərindən sonra onların ikinci - əbədi həyatları başlayır.**



Ölkənin ədəbi-mədəni ictimaiyyəti bu günlər ötən əsrin 60-cı illərində ədəbiyyata gəlmiş, poetik yaradıcılığı ilə yanaşı, mətbuatda, həmkarlar orqanlarında və bir sıra məsul vəzifələrdə çalışmış istedadlı şair, tərcüməçi, jurnalist, ictimai xadim, Əməkdar incəsənət xadimi Həmid Abbasın 90 illik yubileyini qeyd edir. Həmid Abbas sadə bir ömür yaşayıb. Elə sadəliyi, səmimiliyi ilə də ürəklərə, qəlblərə köçüb. Qələmindən bir-birindən dəyərli əsərlər çıxıb, neçə-neçə kitabları nəşr olunub. Şairin yazdığı əsərlər ondan xalqımıza, ədəbiyyatımıza qalan mənəvi bir sərvətdir, dəyərli və qiymətli yadigardır. Sevimli şairimiz Səməd Vurğun çox gözəl yazıb: "De gəlsin hər nəyin vardır, deyilən söz yadigardır". Şair Həmid Abbasın da yazdıqları xalqımız üçün əvəzsiz yadigardır.

Daim xatirələrdə yaşayan şairin ömür kitabını vərəqləyəndə öyrəndik ki, Həmid Məmmədəli oğlu Abbasov 1935-ci il oktyabrın 10-da Ağstafa şəhərində qulluqçu ailəsində dünyaya göz açıb. Şəhərdəki 22 nömrəli dəmiryol məktəbində oxuyub. Orta təhsilini başa vurduqdan sonra 1953-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsinə qəbul olub və 1958-ci ildə oranı bitirərək "Azərinform"da tərcüməçi köməkçisi kimi əmək fəaliyyətinə başlayıb. Sonralar həmin təşkilatda ədəbi işçi, səyyar müxbir, yerli mətbuat üçün xəbərlər şöbəsinin redaktoru, müxbirlər şəbəkəsinə rəhbərlik şöbəsinin böyük redaktoru vəzifələrində çalışıb.

Həmid Abbas ədəbiyyata ötən əsrin 50-ci illərində gəlib. İlk dəfə 1957-ci ildə "Dilican" adlı şeiri dərc edilib. Həmid Abbas bu şeiri ilə böyük ədəbiyyata kiçik cığır açıb, keçəcəyi yolları imzalayıb. Daha sonra "Gəncliyin səsi" adlı ədəbi külliyyatda və müxtəlif mətbuat orqanlarında şeirləri dərc olunub. Elə işıq üzü görən bu şeirləri ilə oxucular tərəfindən sevilib, bəyənilib.

Əsərləri bu gün də maraqla oxunan Həmid Abbas istedadlı şair idi. 200-dən çox şeirinə mahnı bəstələnməsi onun əsərlərinə oxucu sevgisindən, bəstəçi marağından xəbər verir. Buna görə də unudulmaz alim, görkəmli ədəbiyyatşünas Qulu Xəlilli onun "Ürəyə toxunma" kitabına yazdığı ön sözü "Nəğməkar şair" adlandırmışdı. Tənqidçi yazırdı ki, Həmid Abbasov şeirlərində həyatımızın ən işıqlı tərəflərini, adamlarımızın zərif və incə duyğularını, arzu və istəklərini, qurub-yaratmaq həvəsini, övlad, ata-ana məhəbbətini qələmə almışdır. Şair nəğmələrində adamlarımızın ağlını, zəkasını, zəhmətini, təbiətin füsunkar gözəlliklərini ilham və məhəbbətlə qovuşdurub tərənnüm etmişdir. Xalq yazıçısı Əzizə Cəfərzadə də "Ədəbiyyat və İncəsənət" qəzetində dərc etdirdiyi məqaləsində nəğmələr şairi kimi Həmid Abbasın yaradıcılığına yüksək dəyər vermişdir.

Şair respublikamızın qazandığı uğurlardan bəhs edən "Nəğməli Azərbaycan", qüdrətli Xalq şairi Səməd Vurğuna həsr edilən "Zirvədə" poemalarında da insanların əməyini, nəcib arzularını, xeyirxah əməllərini bacarıqla əks etdirmişdir. Onun şeirlərindəki məna böyüklüyü şairin təfəkkürünün zənginliyindən, genişliyindən xəbər verirdi.

Həmid Abbas Vətəninə, torpağına, millətinə, dövlətinə bağlı qeyrətli bir vətəndaş, son dərəcə sədaqətli və səmimi bir insan idi. O həm də etibarlı dost, qayğıkeş ata, vəfalı ömür-gün yoldaşı idi. Həyat yoldaşı Solmaz xanım dünyasını dəyişəndən sonra qohumlar, dostlar, tanışlar, yaxın adamlar ona yenidən ailə qurmağı təklif edəndə gözləri dolmuş və kədərli səslə "Ailə bir dəfə qurular" demişdi. Üstündən illər keçməsinə baxmayaraq, şairin həyat yoldaşının xatirəsinə həsr etdiyi həzin, qəm yüklü misraları həyəcansız oxumaq olmur. "Dirilə biləydin bircə anlığa", "Solmazıma vurğunam", "Qaldı", "Süzülür kağıza ürək sözlərim", "Gözüm səni axtarır", "Nağıl deyən vaxtı nağıla döndü", "8 Mart", "Əlimdə gül, gözümdə yaş" və onlarca başqa şeirləri ömür-gün yoldaşına həsr etdiyi əsl sədaqət nümunələridir. Bu şeirlər sevib-sevilən insanlar üçün əvəzsiz örnəkdir.

Ali partiya təhsili alandan sonra Həmid Abbas 1970-1981-ci illərdə Azərbaycan KP MK-da məsul vəzifədə işləmişdir. 18 il Mədəniyyət İşçiləri Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri vəzifəsində çalışmışdır. Onun xidmətləri "Şərəf nişanı" ordeni və müxtəlif medallarla qiymətləndirilmişdir. Həmid Abbas ölkəmizin ictimai həyatında fəal iştirak etməklə yanaşı, həm də tərcüməçi, jurnalist və vətənpərvər bir şəxsiyyət idi.

Şair ilk şeir kitabına "Tarla qızları" adı vermişdi. Sonrakı illərdə Həmid Abbasın "Ömrün elə çağıdır ki..." "Ürəyə toxunma", "Günahım olsa", "Dinlədi nəğməmi sirdaşım mənim", "Nər igidlər, alov saçın", "Şuşa həsrəti, türk həqiqəti", "Gözüm səni axtarır" və digər kitabları işıq üzü görmüşdür. Bir-birinin ardınca nəşr olunan bu kitablar şairə böyük şöhrət qazandırmışdır.

Həmid Abbas şeirlərində insanların ağlını, zəkasını, zəhmətini, təbiətin füsunkar gözəlliklərini böyük sevgi və məhəbbətlə tərənnüm edir. Şairin daha çox oxunan və sevilən şeirlərindən biri də "Dayanın bircə an, dayanın barı"dır. Şeiri oxuduqca həyatımızın gözəl günləri, anları gözlərimiz qarşısında canlanır. O günlər, o anlar üçün çox darıxırıq, o çağlara qayıtmaq istəyirik.

*Dayanın bircə an, dayanın barı,*
*Ey, mənim ömrümün gözəl anları.*
*Tezcə xəyal olub uzaqlaşmayın,*
*Dayanın, keçmişlə qucaqlaşmayın.*

*Mən necə sevindim, necə ağladım?!*
*Necə ürək açdım, könül bağladım?*
*Sizsiniz şahidi, danışın aylar,*
*Ey, axan bulaqlar, kükrəyən çaylar.*

Şərəfli ömür yaşamış Həmid Abbas 1969-cu ildən Jurnalistlər, 1983-cü ildən Azərbaycan Yazıçılar birliklərinin üzvü idi. O, 1991-ci ildə Azərbaycanın Əməkdar incəsənət xadimi adına layiq görülmüşdü. Şair Həmid Abbas 1999-cu il noyabrın 19-da vəfat etmişdir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Praqada Azərbaycan və Özbəkistanın turizm potensialı təqdim edilib

**Azərbaycan ilə Özbəkistan arasında genişmiqyaslı "İpək yolunun əsas məkanları" layihəsi çərçivəsində Praqada birgə yol şousu keçirilib.**

Tədbir Avropanın altı şəhərini - Frankfurt, Vyana, Sürix, Budapeşt, Praqa və Barselonanı əhatə edən Avropa turunun bir hissəsi olub.

Təşəbbüs Azərbaycan Turizm Bürosu (ATB) və Özbəkistanın Milli Təbliğat Mərkəzi arasında tərəfdaşlıq çərçivəsində həyata keçirilir. Məqsəd iki ölkənin mədəni, tarixi və təbii turizm potensialını təşviq etmək, böyük İpək yolu boyunca birgə marşrutlar hazırlamaq və tur operatorlarının peşəkar əlaqələrini gücləndirməkdir.

Tədbirdə turizm komitələrinin, təbliğat mərkəzlərinin, hotel şəbəkələrinin nümayəndələri, eləcə də Çexiyanın tur operatorları və müvafiq təşkilatların rəhbərləri iştirak ediblər.

Təqdimat zamanı Azərbaycan və Özbəkistan nümayəndələri iki ölkənin UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş əsas turizm məkanlarını təqdim ediblər. Xüsusi diqqət ekoturizmin, qastronomiyanın, xizəkçiliyin, sağlamlıq və mədəni turizmin inkişafına yönəldilib.



Rəsmi sessiyadan sonra B2B toplantısı keçirilib. Burada Özbəkistan, Azərbaycan və Çexiyadan olan tur operatorları əməkdaşlıq perspektivlərini müzakirə edib, birgə turizm məhsullarının hazırlanması üçün təkliflər mübadiləsi aparıblar.

# Ağdam Dövlət Dram Teatrında ustad dərsləri təşkil olunub

**Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) təşkilatçılığı və Qarabağ Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə Qarabağ bölgəsində keçirilən "Mədəniyyət ruzgarı" tədbirlər silsiləsi davam edir. Bu barədə MEMİM-dən məlumat verilib.**

Bildirilib ki, layihə çərçivəsində Ağdam Dövlət Dram Teatrında "Regionlarda peşəkar teatr dərsləri" layihəsi üzrə ustad dərsləri təşkil olunub.

Layihənin keçirilməsində əsas məqsəd kollektivin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, aktiv yaradıcı mühitin formalaşdırılması və səhnə sənəti ilə bağlı çağdaş tendensiyaların diqqətə çatdırılmasıdır.



Nəzəri-praktik ustad dərsləri Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Dram rejissoru və səhnə plastikası kafedrasının dosenti Əməkdar incəsənət xadimi, rejissor Bəhram Osmanov və MEMİM-in əməkdaşı teatrşünas Dağlar Yusif tərəfindən aparılıb.

MEMİM-in "Regionlarda peşəkar teatr dərsləri" layihəsi 2024-cü ilin oktyabrından reallaşır. Layihə üzrə ötən il Qusar Dövlət Ləzgi Dram və Lənkəran Dövlət Dram teatrlarında, bu il isə Qax Dövlət Gürcü Dram və Qazax Dövlət Dram teatrlarında ustad dərsləri təşkil olunub.

### Ermənilərin Bərdə terrorundan 5 il ötür

# Zəfər yaralarımıza məlhəm oldu

**Müqəddəs Qarabağ savaşının qələbəylə başa çatmasında bərdəli igidlərin də rolu alqışa layiqdir. Bu şöhrətli diyarın vətən sevdalı oğulları hər iki Qarabağ savaşında qəhrəmanlıqlar göstərmiş, vətən torpağı uğrunda sinələrini sipər etmiş, yurd sevgisini başları üzərində bayrağa çevirib əzmlə vuruşmuşlar.**



Neçəsi şəhid olub əbədiyyətə qovuşmuş, neçəsi yaralanıb şərəfli qazi adı qazanmışdır. Amma nə edəsən ki, faşist xislətli, döyüş meydanlarında axıdılan qandan doymayan düşmən cəbhə xəttindən xeyli uzaqlıqda yerləşən Gəncəyə, Tərtərə, Bərdəyə raketlər ataraq mülki əhalini qətlə yetirməkdən çəkinməmişdir.

2020-ci il oktyabrın 27 və 28-i bərdəlilərin yaddaşına həkk olmuş qanlı bir tarixdir. Oktyabrın 27-də Qarayusifli kəndinə, 28-də isə Bərdə şəhərinə Ermənistan silahli qüvvələrinin mövqelərindən raket hücumları oldu. Bu, əsl terror idi.

Döyüş meydanından uzaqda gündəlik həyatını yaşayan dinc və günahsız insanları belə amansızlıqla qətlə yetirmək nə insanlıq qanunlarına sığırdı, nə də müharibə qaydalarına. Buna baxmayaraq, Ermənistan silahlı qüvvələri məkrli bir faciəyə imza atdılar. Nəticə yetərincə ağır idi - 27 nəfər həlak oldu, 70 nəfər yaralandı. Həlak olanların 5-i, yaralananların isə 15-i qadın idi. Yaralananlar arasında 3 azyaşlı uşaq da vardı.

Beynəlxalq aləmin, o cümlədən Qərbin laqeydliyindən "ruhlanan" nankor düşmənlərimiz törətdikləri bu qırğınla beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozduqlarının fərqinə varmadılar. Halbuki onlar Bərdəyə hər birinin içərisində 72 ədəd 9N235 saylı, ümumilikdə 144 bombacıq olan "Smerç" tipli əməliyyat-taktiki təyinatlı 3M525 qəlpəli böyük dağıdıcı gücə malik ballistik "claster" tipli 2 raket zərbəsi endirmişdi. Bu zərbələr nəticəsində həlak olanlardan və yaralananlardan savayı 30-dan artıq mülki infrastruktur obyekti dağılmış, 20-dən artıq fərdi yaşayış evinə və 22 nəqliyyat vasitəsinə ziyan dəymişdir.

Bizim isə cavabımız ədalətli oldu. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun hünəri nəticəsində qazandığımız Zəfər bütöv bir xalqın 30 illik ağrı-acılarına birdəfəlik son qoydu. Ermənistan ordusu darmadağın edildi. İlahi ədalətin parlaq təntənəsidir ki, Qarabağ müharibəsinin bir qrup təşkilatçısı bu gün Bakıda məhkəmə salonunda sorğulanırlar.

Tarixi Zəfərimiz nankor qonşularımızın, namərd düşmənlərimizin zaman-zaman sinəmizə çəkdikləri dağların, torpaqlarımıza vurduqları yaraların məlhəmi idi. Ərazilərimizi 30 il işğalda saxlayıb nahaq qanlar tökən, təkəbbürlə "Qarabağ Ermənistandır. Nöqtə" deyən faşist cəlladlarının bugünkü miskin durumu Bərdə terrorundan zərər çəkənlərin ən böyük təsəllisidir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Bərdə terroru bəşəri cinayətdir

**Haqq savaşına çıxdığımız Vətən müharibəsinin 44 günü ərzində xalqımız çox qürurlu günlər yaşadı. Savaşın elə ilk günündən ön cəbhədən arxa cəbhəyə qanadlanan qələbə müjdələri ölkədə böyük coşquya, Zəfər təntənəsinə səbəb oldu. Evlərimizin, eyvanlarımızın, meydanlarımızın, küçələrimizin, əllərimizin ən gözəl bəzəyi qəhrəman oğullarımızın Qarabağın zirvələrində dalğalandırdıqları üçrəngli ay-ulduzlu bayraqlar oldu.**

Cəsur döyüşçülərimiz düşməni torpaqlarımızdan addım-addım qovaraq düz bir qərinədir ki, azadlığını həsrətlə gözlədiyimiz yurdlarımızı yağı əsarətindən xilas etdilər və ürəklərimizi fəxarətdən dağa döndərdilər. Rəşadətli Azərbaycan Ordusu Ermənistanın 10 noyabrda kapitulyasiya - məğlubiyyət aktına imza atmasına qədərki cəmi 44 günlük zaman kəsiyində böyük igidlik nümayiş etdirərək 300 yaşayış məntəqəsini, 5 şəhər və 4 qəsəbəni, çoxsaylı strateji yüksəkliyi düşməndən azad etdi. Bu qələbələr silsiləsinin məntiqi nəticəsi olaraq Ağdam, Kəlbəcər, Laçın bir güllə atılmadan, bir itki verilmədən öz əzəli sahiblərinə qaytarıldı. Bununla da tarixi ədalət zəfər çaldı.

## Düşmən mənfur xislətini 44 günlük savaşda da göstərdi

Vətən müharibəsi dövründə həm də faşist xislətli düşmənin qanlı cinayət əməllərinə bir daha şahidlik etdik. İşğalçı siyasət yürüdən Ermənistan həmin dövrdə dəfələrlə müharibə cinayətləri törətdi, mülki azərbaycanlıları hədəfə çevirdi, əllərini körpələrimizin, uşaqlarımızın, qocalarımızın, ümumiyyətlə, dinc sakinlərimizin qanına batırdı. Döyüş meydanında igid savaşçılarımızla bacara bilməyən düşmənin bu çirkin əməlləri ilə xalqımız illər əvvəl də dəfələrlə üz-üzə qalmışdı. Elə Birinci Qarabağ savaşı zamanı da işğalçı Ermənistanın mənfur siyasəti dinc əhalini nişan almağa hesablanmışdı. Təkcə 1992-ci ilin fevralında törətdikləri Xocalı soyqırımı erməni terrorçularının insanlıqdan uzaq xislətlərini gözlər önünə sərir. Hətta uşaq qatili Serj Sarkisyan Xocalıda həyata keçirdikləri soyqırımını beynəlxalq səviyyədə etiraf edib və bu qanlı əməlləri törətməklərinə peşman olmadıqlarını həyasızlıqla dilə gətirib.

Ermənistan 2020-ci il sentyabrın 27-dən etibarən ölkəmizə qarşı təxribatlarının baş tutmadığını və döyüş meydanında biabırcasına məğlub olduğunu görərək yenidən silahını dinc sakinlərimizə yönəltdi. Cəbhədə qəhrəman döyüşçülərimiz tərəfindən əzici məğlubiyyətə uğrayan düşmən acığını mülki vətəndaşlarımızdan çıxmağa çalışdı və beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror törətməyə başladı. İşğalçı ordunun həm cəbhəboyu rayon və kəndlərimizi, həm də cəbhə zonasından uzaq məsafədə yerləşən şəhərlərimizi ağır artilleriya və raket atəşinə tutması nəticəsində içərisində azyaşlıların da olduğu mülki şəxslər yaralandı, həlak oldu, evlər və sosial obyektlər dağıdıldı.

2020-ci ilin oktyabrında təkcə Gəncə şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən düz beş dəfə ayrı-ayrı zamanlarda bombalandı. Həmin il oktyabrın 4-də, 5-də, 8-də, 11-də və 17-də Gəncə şəhərinə edilmiş raket hücumları nəticəsində 26 mülki şəxs qəsdən öldürülüb, 175 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Həlak olmuş 26 nəfərdən 10-u kişi, 10-u qadın, 6-sı isə yetkinlik yaşına çatmayan şəxslərdir. Xəsarət almış 175 nəfərin isə 61-i kişi, 66-sı qadın, 48-i isə yetkinlik yaşına çatmayanlardır.

Gəncədə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə, yaşayış evlərinə və digər tikililərə külli miqdarda ziyan dəydi.

## Bərdə də düşmənin hədəfində idi

44 günlük Vətən müharibəsi dövründə Gəncə, Tərtər, Goranboy və digər yaşayış məntəqələrimiz kimi Bərdə də düşmənin hədəfində idi. 27 oktyabr 2020-ci ildə Ermənistan silahlı qüvvələri Bərdə rayonunun Qarayusifli kəndində terror törədib.

Həmin tarixdə Qarayusifli kəndinə 2 ədəd "Smerç", 2 ədəd "Elbrus" ballistik raketi atılıb. Nəticədə biri azyaşlı olmaqla, 5 nəfər həyatını itirib, 14 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Qarayusifli kəndində həlak olanlar arasında Aysu adlı 7 yaşlı qızcığaz da var idi. Cəmi bir gün sonra, oktyabrın 28-də ömrünün baharında həyatdan qoparılan məktəbli Aysunun dəfni günündə Bərdə növbəti dəfə təcavüzkar Ermənistan tərəfindən raket zərbələrinə məruz qaldı.

Ermənistan silahlı qüvvələri həmin tarixdə yenidən Bərdədə dinc sakinləri "Smerç" raketləri ilə atəşə tutdu. Bərdə şəhərində dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin yerləşdiyi əraziyə beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalardan istifadə olunmaqla zərbələr endirilməsi nəticəsində aralarında uşaq və qadınlar da olmaqla, 21 dinc sakin həlak oldu, 70-ə yaxın mülki şəxs yaralandı.

Ümumiyyətlə, Bərdə şəhərinin 2020-ci il oktyabrın 5-də, 8-də, 27-də, 28-də və noyabrın 7-də raket və ağır artilleriya ilə bombalanması nəticəsində 8-i qadın, 19-u kişi, 2-si uşaq olmaqla, 29 nəfər şəxs qəsdən öldürülüb, 26-sı qadın, 71-i kişi, 15-i uşaq olmaqla 112 nəfər yaralanıb, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə, yaşayış evlərinə və digər tikililərə külli miqdarda ziyan dəyib.

## "Vətən sağ olsun"

44 günlük Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, Beynəlxalq Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq xalqımıza qarşı müharibə cinayətləri törətdi. Düşmən bu qanlı əməlləri ilə Qarabağa qayıdış yolumuzu kəsmək istədi. Ancaq Azərbaycan xalqı faciələrinə də mətanətlə sinə gərib, "Vətən sağ olsun, biz bir ölürüksə, min dirilirik" dedi, haqq yolundan dönmədi.

Vətən müharibəsi dövründə erməni silahlı qüvvələrinin raket atəşinə məruz qoyduğu cəbhəboyu və cəbhədən uzaqda yerləşən yaşayış məntəqələrimizin sakinlərinin bütün təhlükələrə rəğmən ev-eşiyini, doğma yurdunu tərk etməməsi düşmənə gözdağı, dünyaya vətən sevgisinin örnəyi oldu.

## Qisasımızı döyüş meydanında aldıq

44 günlük Vətən müharibəsi və 23 saatlıq antiterror tədbirləri zamanı mənfur düşməndən qisasımızı döyüş meydanında aldıq.

"Ermənistan müharibə zamanı şəhərlərimizə və kəndlərimizə ballistik raketlər atdı, onları kasetli mərmilərlə bombaladı, 100-dən çox günahsız mülki vətəndaşımızı qətlə yetirdi", - deyə Prezident İlham Əliyev BMT-nin 80-ci yubiley sessiyasında ölkəmizin həqiqətlərini bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı.

Dövlətimizin başçısı xüsusi vurğuladı ki, Azərbaycan isə müharibəni beynəlxalq humanitar hüquqa tam riayət etməklə apardı: "Biz mülki şəxslərin mühafizəsini təmin etdik, qeyri-hərbi infrastrukturu hədəfə almaqdan çəkindik. 44 günlük Vətən müharibəsi zamanı Silahlı Qüvvələrimiz işğal altındakı əraziləri azad etdi, Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq bərpa etdi".

Bəli, vətənpərvər oğullarımız hərb meydanında düşmənin külünü göyə sovurmaqla həm də Xocalıda, Ballıqayada, Başlıbeldə, Gəncədə, Bərdədə və digər ərazilərimizdə insanlarımıza qarşı törədilən soyqırımların, terror aktlarının intiqamını aldılar. Torpaqlarımızın bütövlüyü uğrunda qurban gedən şəhidlərimizin qanını yerdə qoymadılar.

Milli kimliyimizə düşmən kəsilərək xalqımızın qanına susayan, onlara qarşı bəşər tarixində rastlanmamış cinayət əməlləri törədən, bir zamanlar Qarabağda, digər işğal etdikləri ərazilərimizdə əliyalın insanlarımıza divan tutmaları, o cümlədən Gəncədə, Tərtərdə, Bərdədə mülki insanlarımızı qətlə yetirmələri ilə qürrələnən canilərin indi Azərbaycan qanunları ilə mühakimə edilmələri də elə İlahi ədalətin yerini tapması deməkdir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
Şanlı Zəfərə aparan yol
Vladimir Putin İlham Əliyevə zəng edib
Qubadlının azadlığı müharibənin taleyini həll etdi
Bərpa, yenidənqurma və dirçəliş dövrü
Cənubi Qafqazda sülhün açarı regionun öz əlindədir
Böyüklük nümunəsi
Erməni cəmiyyətində revanşistlərə inam qalmayıb
44 günlük Vətən müharibəsi
Düz 5 il əvvəl həmin gün

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# ABŞ-Çin ticarət sazişi: Tramp-Cinpin görüşündən öncə çərçivə razılaşması əldə olunub

**Pekin qabaqcıl texnologiya üçün vacib olan nadir torpaq metallarının ixracına daha sərt məhdudiyyətlər qoymaq qərarına gəlib. Buna cavab olaraq D.Tramp Pekini Çin idxalına əlavə tariflər tətbiq etməklə hədələyib.**




Bazar günü hər iki tərəfin rəsmiləri ABŞ və Çin ticarət sazişi üçün ilkin çərçivə barədə razılığa gəliblər. Bu, Kuala Lumpurda keçirilən Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının (ASEAN) sammitində danışıqlar zamanı baş verib. ABŞ Prezidenti Donald Tramp və Çin lideri Si Cinpin cümə axşamı Cənubi Koreyada keçiriləcək mühüm görüşdə razılaşmanı yekunlaşdırmağa ümid edirlər.

ABŞ maliyyə naziri Skott Bessent razılaşmanı "çox uğurlu" adlandırıb və bildirib ki, bu, Trampın tariflərini noyabrın 1-da ləğv edə bilər, Çin isə məhdudiyyətlərin tətbiqini bir il təxirə salacaq. Çin rəsmiləri təfərrüatlar barədə məlumat verməyiblər. D.Tramp isə razılaşmanın tezliklə əldə olunacağına əminliyini ifadə edərək həm Çinin, həm də ABŞ-nin "razılaşma əldə etmək istədiyini" bildirib. Amerika lideri həmçinin gələcəkdə Çinə səfər etmək planlarını təsdiqləyib və Si Cinpini Vaşinqtona və ya Trampın Floridadakı şəxsi klubu olan Mar-a-Laqoya dəvət edib.

Bu arada Donald Tramp Tailand və Kamboca arasında "tarixi sülh sazişi"nə başçılıq edib. Keçənilki sərhəd mübahisələrindən sonra Tailand və Kamboca ABŞ Prezidentinin sədrliyi ilə atəşkəs sazişi imzalayıblar. Sazişin ilkin mərhələsinin bir hissəsi olaraq, Tailand Kamboca məhbuslarını azad edəcək və Kamboca ağır artilleriyasını geri çəkəcək. Regional müşahidəçilər hərbi əməliyyatların yenidən başlamasının qarşısını almaq üçün vəziyyəti izləyəcəklər.

"Çoxlarının yerinə yetirilə bilməyəcəyini dediyi bir şeyi etdik", - deyə Tramp bildirib. Kambocanın Baş naziri Hun Mane bunu "tarixi gün" adlandırıb, Tailandın Baş naziri Anutin Çarnvirakul isə sazişin "davamlı sülh üçün təməl daşlar" yaratdığını qeyd edib.

Mərasim Trampın Kuala Lumpurda keçirilən Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının illik sammitinə gəldikdən bəri ilk tədbiri idi. Yaponiya və Cənubi Koreyaya səfərləri və Çin lideri Si Cinpin ilə mümkün görüşü də əhatə edən bu səfər Trampa sövdələşmələr bağlayan və sülh sazişləri imzalayan beynəlxalq fiqur kimi nüfuzunu möhkəmləndirmək imkanı verir.

Bundan başqa, ABŞ Prezidenti Kamboca, Tailand və Malayziya ilə iqtisadi sazişlər imzalayıb ki, onların da bəziləri vacib minerallarla ticarəti genişləndirməyi hədəfləyir. ABŞ ticarət nümayəndəsi Ceymison Qrin bildirib: "Əsl tərəfdaşlar kimi birlikdə işləməyimiz çox vacibdir. Bu, təchizat zəncirlərinin rahat işləməsini, xalqımızın həyat keyfiyyətini və təhlükəsizliyini təmin etməkdir".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Hava əsasən yağmursuz olacaq



**Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi gündüz arabir güclənəcək. Havanın temperaturu gecə 14-17, gündüz 21-26 dərəcə isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunundan 758 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 80-85, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, bəzi yerlərdə arabir duman olacağı gözlənilir. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 10-15, gündüz 22-27, dağlarda gecə 4-9, gündüz 13-18 dərəcə isti olacağı bildirilir.

# Oktyabrın 29-u axşamdan 30-u gündüzədək bəzi yerlərdə hava şəraiti qeyri-sabit keçəcək

**Oktyabrın 29-u axşam Azərbaycanın şimal və qərb rayonlarından başlayaraq 30-u gündüzədək bəzi yerlərdə hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir.**

Bu barədə AZƏRTAC-a Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.

Bildirilib ki, ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qara keçəcəyi ehtimal edilir.

Çaylarda sululuğun artacağı, bəzi dağ çaylarından isə qısamüddətli daşqın və sel keçəcəyi proqnozlaşdırılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Şuşa rayon prokuroru Nəriman Əsədova atası

**SABİR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirliyə əzizi

**XƏTAİ HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclis Aparatının Redaksiya və nəşr işləri şöbəsinin kollektivi iş yoldaşları Gülnarə Hüseynovaya qardaşı

**RÖVŞƏN HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Namiq Süleymanov, Eldar Təhməzov, Gülalı Eminəliyev, Eldar Əliyev, Lazım və Rafiq Hüseynovlar, Məcid Miriyev, Hüseyn Fərzəliyev və Hidayət İsmayılov Azərbaycan Respublikası Maliyyə Nazirliyi Aparatının Hüquq şöbəsinin sektor müdiri Anar Əsədova atası

**MEHMAN AĞA OĞLU ƏSƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4085**
**Sifariş 2201**

**Qiyməti 60 qəpik**